# Yeraltı məbəd

Müəllif: Məsumə Mirəbutalibi

kitaboxu.com

بسم الله الرحمن الرحيم

Kitabın adı...................................Yeraltı məbəd
Müəllif:............................Məsumə Mirəbutalibi
Çap tarixi:....................................................2025
Çap növbəsi:.............................................Birinci
Tiraj:.............................................................1000

kitaboxu.com

# Birinci fəsil

**Kəhnuc, 7 avqust, günorta**

- Bu dəqiqə, dayı...

Bidonu daşın üstünə qoyub yenə ocağı üfürməyə başladım. Çubuqlar yanmalı idi ki, tava da qızsın.

- İlyas, acıq, tez ol daha! – dedi, sonra isə yavaş səslə əlavə etdi: - Nə qədər ləngdir bu uşaq!

Dönüb ona baxdım. Əhməd idi, Əhməd ağa. Kaş çənəsinə bir yumruq ilişdirə biləydim! Elə danışırdı ki, elə bil, nökəriyəm; elə bil, mənim böyüyümdür.

Çubuqlar yanan kimi tavanı daşların üstünə qoydum. Bir topa quyruq yağı qoparıb tavaya atmaq üçün alüminium qaşığı bidonun içində fırlatdım.

Bir qaşıq yağı tavaya tökdüm. Az idi. Onu yenə bidona salıb fırladanda əyildi. Qaşıq düzəlsin deyə onu bayıra çıxarmadan bidona sıxdığım yerdə birdən bidon çevrilib tavanın üstünə düşdü və bütün yağı qolumun

kitaboxu.com

bayırda qalmış hissəsinə sıçradı. Sonra isə həm tava, həm bidon daşların arasına düşdü.

Qolum hələ çox da yandı rmırdı. Bidonu götürmək üçün o biri əlimi uzatdım, ancaq çubuqlar onu deşmiş, yağ da tavanın içinə tökülmüşdü. Tava yuxarı buruldu və ərimiş yağın qalanı üzümə sıçradı. Qışqırıb özümü geriyə atanda isə xurcuna dəydim və yumurtaların hamısı bədənimin altında xırçıldadı.

Ağrıdan qıvrıldığım yerdə hamının başıma toplaşdığını gördüm.

Əhmədin atası dedi:

- Yumurtaların ağını gətir, üzünə sürt. Yaxşı ki, gözünə girməyib.

Üzümün harasının yandığını anlaya bilmirdim. Ağrı hər yerinə yayılmışdı. Ancaq onu bilirdim ki, gözlərim görür.

- Gətir də...

Kimsə üzümə sərin bir şey sürtdü. Sanki nəfəsimin ağ ciyərimdən çıxmasına kömək etdi. Qışqırtılarımın arasında nəfəsimi saxlayıb ətrafa baxdım. Dayım aralıda dayanıb başını yelləyirdi. İstədim deyəm ki, mənim təqsirimdən olmadı, amma Əhmədin atası məndən qabaq dilləndi:

- Əhməd ağa, get, motosikleti gətir. Gərək uşağı şəhərə aparaq.

Buyur! Əhməd "ağa" olmuşdu, mənsə "uşaq".

kitaboxu.com

- Fərsiz, - dayım dedi, - bir qayğanaq bişirəcəkdin! Yaxşı ki, müharibəyə getməmisən!

- Pis yanıb, - Əhmədin atası dedi, - iltihab əmələ gələcək.

İstəyirdim oturub deyəm ki, bir şey deyil, amma əllərimə baxıb əti görən kimi yenə çığırmağa başladım. Boşuna deyildi; ciyərimin yandığını hiss edir, üstəlik, odda ütülmüş kəlləpaça iyini də yaxşı bilirdim.

Əhməd gedib iki-üç dəqiqədən sonra motosikletlə gəldi. Motosikletin tərkində oturmağıma onun atası kömək etdi. Əhməd qaza basdı. Torpaq yolda gedə-gedə küləkdə qışqırırdı:

- Belimdən bərk tut ki, sürüşüb aşmayasan!

Sözünə baxmaq istəmirdim; ümumiyyətlə, heç kimin sözünə baxmaq istəmirdim. Amma başıma bir bəla da gəlsəydi, daha pis olardı. Təkəlli Əhmədin belindən tutdum. Bir tramplinin üstündən keçəndə ikimiz də oturacaqdan havaya qalxıb-düşdük. Üzümün göynərtisi çoxalmışdı. Toz zərrəciklərinin küləklə birgə üzümün ətinə girdiyini hiss edirdim.

Əhməd şəhəri tanımadığına görə məni xəstəxanaya aparmadı, sifarişçimizin evinin önündə dayandı. Ağrıdan qıvrılırdım. Artıq yanıq ağrısı təkcə üzümdə deyildi, bütün bədənimə yayılmışdı. Ayaq üstə də dayana bilmirdim. Əlimi qarnımın qırışları arasına salmış, əl və üzümün ağrısı bir qədər azalar deyə

kitaboxu.com

üstünə əyilmişdim; amma ağrı azalmırdı. Göz yaşlarımı saxlaya bilmirdim.

Sifarişçi bir qoca arvadla bayıra çıxdı. Arvad qışqırdı:

- Bura gəl, işığın altında baxım.

Əyilə-əyilə ona yaxınlaşdım. Qolumdan tutub işığın altına dartdı.

- Gətir hamama! Dərisini soysam, suluq bağlamaz.

- Yox! – deyə qışqırdım, qaçmaq istəyəndə Əhməd qolunu qarnıma dolayıb məni evə sarı dartdı. Ağrı bütün gücümü almışdı. İstəməsəm də, Əhmədin belində içəri girdim.

***

---

**Kəhnuc, 8 avqust, günorta**

kitaboxu.com

Əməlli-başlı mumiyalanmış meyitə bənzəyirdim. Bütün üzüm sarılmışdı, yalnız gözlərim görünürdü. Dayım məni görüb gülməyə başladı.

- Özünü nə hala salmısan sən?!

Dayımdan sonra digərləri də güldülər. Üzüm hələ yandırırdı. Axşam arvadın üz və əlimə etdikləri barədə düşünəndə üzümün göynərtisi o qədər artırdı ki, ürəyim bulanırdı.

Arvad hamamda Əhmədlə oğluna tapşırdı ki, qollarımı tutsunlar. Məni hündür yerdə oturtmuş, əl-

ayağına dolaşmasın deyə ətəyini düyünləmişdi. Şalının uclarını da boynunun arxasında bir-birinə bağlamışdı.

Onlara dedi:

- Nə qədər qışqırsa da, buraxmayın, möhkəm saxlayın. Başa düşdünüz?!

Özümü qəssabın ayaqları altından son dəfə dünyaya baxan bir qoyun kimi hiss edirdim. Arvad bir neçə tozu mis kasada qarışdırdı. Qoxularından yalnız sidr və kitrə iyi mənə tanış gəldi. Sonra tozları xəmir edib üzümün hər yerinə sürtdü.

Qaynar yağ bu xəmir qədər göynətməmişdi. Qışqıranda xəmirin bir topası ağzıma girdi. Qollarım taxta parçaları kimi iki tərəfdən möhkəm saxlanmışdı. Arvadın vecinə də deyildi. Bütün sifətimi xəmirləyəndən sonra bir kasa su gətirdi, yanmış dərimin üzərindəki xəmiri isladıb kisə ilə sürtməyə başladı.

Dərimi lay-lay qoparırdı və mən kisənin qana boyandığını görürdüm. Deməli, adamın dərisini diri-diri soymaq belə olurmuş! Bilmirəm qandan qorxduğumdandı, yoxsa ağrının gücündən; amma daha qışqırmağa taqətim qalmamış, bədənim boşalmışdı. Arxamda divar olmasaydı və qollarımı iki tərəfdən tutmasaydılar, hamamın yerinə sərələnərdim.

Arvadın işinin nə vaxt bitdiyini yaxşı xatırlamıram. Prosesin davamı barədə bircə bu yadımdadır ki, bintləri



kitaboxu.com

ağ mayedə isladıb üzümə doladı. Qolumun yanığına başlayanda isə yenə özümdən getdim.

- Bu vəziyyətdə kəhrizə girməyəsən ha, - deyə Əhmədin atası yaxınlaşdı. – Sən yuxarıda işlə.

Dayım onun arxasında dayanmışdı; başını yelləyib getdi.

Mən kəhrizdə də işləyə bilərdim. Arvad demişdi ki, sabah gəl, bintləri açıb yenidən bağlayım. Üç dəfə getməli idim. Buna görə də bintlərin toz-torpağa bulaşması əsla önəmli deyildi.

- Mən kəhrizə girə bilərəm...

- Yox, yox... – deyə Əhmədin atası sözümü kəsdi. – Yenə başına bir bəla açarsan. Ananın bütün ümidi sənədir.

Anamın bütün ümidi mənə və məni – yeganə oğlunu tapşırdığı dayıma idi. Sarığın üstünə əlimi çəkdim. Axşam üzümdə yanıq izinin qalacağını düşünməmişdim. Əhmədin atası anamdan danışanda ev yadıma düşdü, fikirləşdim ki, birdən yanıq yarasının yeri üzümdə qalar və Siddiqə mənə baxmaz da. Heç indi də baxmır, o ki qala üzümdə bir neçə böyük yanıq izi olsa. Arvad demişdi ki, qandan qorxmayıb bir neçə dəfə də yanına getsəm, hamısını soyub sarıyacaq və yanıqdan əsər-əlamət qalmayacaq.

- Hələlik get, arxda paltarları yu; bu gün su var, - Əhmədin atası xurcunu mənə verib dedi, sonra isə: -

kitaboxu.com

Nahara bozbaş asmışam, ehtiyatlı ol, çevirməyəsən, - deyə göz vurub getdi.

Xurcundakı paltarlara baxdım. Kankandan çox tibb işçisi, ya da qulluqçuya oxşayırdım. Ancaq fikirləşdim ki, dayımın həndəvərində nə qədər az olsam, bir o qədər yaxşıdır.

Nahar vaxtı Hacı İslam ağlamağa başlayıb dedi ki, səhər qardaşı oğlunun şəhadət xəbərini gətiriblər. Dəfnə çatmayacaq, amma yenə də kəndə qayıtmaq istəyir. Dayım yavaşca dedi: "Yaxşı oğlan idi. Allah da seçib yaxşıları aparır".

Dayım məni qəsd edirdi. Hacı İslamın qardaşı oğlunu tanıyırdım. Bizdən iki-üç yaş böyük idi. Onu məktəbdə görmüşdüm. Dayım heyifsilənirdi ki, niyə o, şəhid olub, mənsə qalmışam. Məndən bu qədər acığı gələn dayımın önündə nə vaxtsa Siddiqənin adını necə çəkəcəyimi bilmirdim.

Siddiqə yadıma düşəndə üzümün istiləşdiyini hiss edirdim. Bu dəfə də qızışıb yanırdı. Dayım mənim Siddiqə ilə ailə qurmağıma heç vaxt icazə verməzdi. Bəs Siddiqə istəsə, necə? Heç Siddiqənin məni istəyib-istəmədiyini də bilmirdim.

Biz balaca olanda Siddiqə çox vaxt bizdə olurdu. Mən tək idim. Siddiqə ilə böyük bacısı Fatimə bizə gəlirdilər, üçümüz oynayırdıq. Əsas oyun yerimiz də evimizin arxasındakı bağça idi. Fatimədə qorxu yox

kitaboxu.com

idi, həmişə bir şuluq edirdi. Siddiqə ilə mən də sözünə baxırdıq. Siddiqə sakit və mehriban idi.

- Sən də Hacı İslamla qayıt kəndə, burada maneçilik törədirsən.

Bu sözləri dayım şam yeməyində hamının yanında dedi. Dodağımı dişlədim. Nə deyəcəyimi bilmirdim. Belə sarıqlı üzlə kəndə getsəydim, anamın qorxudan ürəyi gedərdi. Ağzımı açmaq istəyəndə Əhməd dilləndi:

- Arvad dedi ki, iki dəfə də gəlsin, sarığını dəyişdirim.

- Kəndə getsin, orada dəyişdirərlər, - dayım gözlərini qıyıb dedi.

Ağzımı açıb bu arvadın işində çox mahir olduğunu deyincə yenə Əhməd cavab verdi:

- Arvadın işi yanıqdır. Amma kəndə getsə, yanıq izləri üzündə qala bilər.

Dayım mürəbbə şüşəsindəki çayını başına çəkdi və ayağa qalxıb:

- Bu uşaq başdan ayağa dərd-sərdir, - dedi.

Əhmədin atası:

- Hacı İslam, bu uşağın anasına deməyəsən ha yandığını, - dedi, mən də təsdiq əlaməti olaraq başımı yellədim.

- Yox, onunla nə işim var?! – Hacı İslam dedi. – O yazığın bütün dünyası budur.

kitaboxu.com

“Budur”. “Bu” deyəndə məni nəzərdə tutub mumiyalı üzümə baxmışdı. Nə qədər bədbəxt idim mən! Yəni məndən də bədbəxt adam yaratmaq Allahın yadından çıxmışdı?! Yəqin ki, yadından çıxmış və bu şərəf mənə aid olmuşdu.

Dayım uzaqdan qışqırdı:

- İlyas, bu paltarlar hələ çirklidir ki!

Yuduğum paltarları qaldırıb havada yellədirdi. Stəkanımdakı çaya baxdım və bir söz demədən ayağa qalxdım. O çay da mənə qismət deyilmiş! Hacı İslam çayımı arxamca ocağın üstünə boşaltdı və mən “cızz” səsini eşitdim.

---

**Kamalabad, 31 avqust, səhər**

kitaboxu.com

Dayımın kankanlığa 17 yaşlı bir cavan yerinə 4-5 yaşlı bir uşaq apardığına dair fikrinə özüm dərhal haqq qazandırdım. Bunun da bütün günahı anamdaydı.

Kəndin meydanında mikroavtobusdan düşən kimi anamı gördük. Sübh tezdən meydanda bir ins-cins yox idi. Hamı toyuq-cücəsi ilə məşğul olmağa, inəyini sağmağa, təndirinə çörək yapmağa, günortaya yemək bişirməyə, ya da əkin sahəsinə işləməyə getmişdi, mənim anamsa ayaqlarını cütləyib meydanda oturmuş, məni gözləyirdi. Bilmirəm bizim qayıdacağımızı da Hacı İslam söyləmişdi, ya başqa biri.

Anam mikroavtobusun yanına qaçıb hamının yanında məni əzizləməyə başladı. Üzümdəki böyük qırmızı ləkələri görəndə isə özünə nəzarəti itirdi, ağlamağa başlayıb hamının önündə üzümə toxundu. Analıq möcüzəsi ilə məni əvvəlki halıma qaytarmağa cəhd edirdi, amma əbəs idi. Qoca arvad demişdi ki, ancaq səbir; zaman ötdükcə ləkələr sönükəcək, amma heç vaxt tam itməyəcək.

Dayım heç nə demədən anamın yanından keçib getdi. O qədər kişinin önündə anamla mübahisə etmək istəmirdi. Mənim yanımda min dəfə demişdi ki, bu uşağı bu qədər ərköyün eləmə. Oysa özü ilə bacara bilmirdi. Anamın əlini itələyib dayımın arxasınca küçəyə tərəf getdim. Gözdən uzaq olmaq istəyirdim. Mənim hələ də hamı üçün uşaq olmağım səbəbsiz deyildi.

- Boyuna qurban, oğul... de görüm, nə olub? – deyə anam ardımca qaçırdı.

Tam məlumat verməyəcəkdim. Bağçada tut ağacının altında uzandım. Anam bir stəkan isti çayla başımın üstünü aldı. Başa düşmüşdü ki, o, israr etdikcə mən daha çox susur və bir söz demirəm. Başıma nə oyun açdığımı öyrənmək üçün içdən alovlanır, amma bunun da faydası olmurdu. Mən sükut orucu tutmuşdum.

kitaboxu.com

Anam dayımgili günorta yeməyinə çağırmışdı. Məndən söz ala bilməyəcəyini başa düşüb onu ehmalca evə gətirmək, bir-iki ipucu öyrənmək istəyirdi. Dayım başlasaydı, pis başlayacaqdı. Lakin bu da yanıq barədə məlumat verməyimə səbəb olmurdu.

Süfrə başına keçdik. Anam ət və noxud dolu qazanı dayımın önünə qoyub:

- Əz, dadaş, - dedi.

O, bozbaşın ətini əzmək üçün həvəngdəstəni süfrədəki ən böyük kişiyə verərdi. Dayımsa qazanı əli ilə geri itələyib dedi:

- Biləyim ağrıyır. Ver İlyasa.

Bu da bir plandı. Gözucu Siddiqəyə baxdım, amma yalnız çadrasının kənarı görünürdü. Fatimənin böyründə gizlənmişdi.

Həvəngdəstəni alıb əzməyə başladım.

- Bunun üzünə nə olub? – deyə anam birdən soruşdu. Onun üçün də "İlyas" yox, "bu" idim!

- Heç nə... yağ boşqabını üzünə çevirib.

Anam əlinin içi ilə üzünə vurdu. Dayım yoldaşı "Allahu əkbər" deyib gözlərini üzümə zillədi.

- Niyə?

"Başıma at təpməyib ki, qaynar yağı özüm üzümə töküm?!" demək istərkən dayım məni qabaqlayıb:

- Niyəsi yoxdur ki, - deyib üzümə baxdı.



kitaboxu.com

Həvəngdəstə əlimdə boşalmışdı. Allahı çağırırdım ki, dayım davam etməsin; ən azı burada Siddiqənin yanında yox. Qapımıza gəlmiş adam dadıma çatdı. Daşla qapını döyürdü. Dayım danışmasın deyə yerimdən dik qalxdım. Gələn Əhməd idi:

- Dayın burada?

- Hə. Nə olub?

- Rüknabaddan Hacı Qulamhüseyn xəbər göndərib ki, axşam namazına Rüknabad Cümə məscidinə gedək. Kamalabadlı kankanlarla işi var.

- Yaxşı, deyərəm, - deyə başımı tərpətdim.

Əhməd motosikletdən enib yavaşca qulağıma dedi:

- Özün də gəl, maraqlı olacaq. Bildiyim qədərincə cəbhəyə kankan aparacaq.

Bərəlmiş gözlərimi Əhmədə dikdim:

- Cəbhəyə?!

- Əvvəl də bir neçə nəfəri aparıb, - Əhməd başını yellədikdən sonra dedi. – Özü də gedib. Atam qoysa, mən də getmək istəyirəm. Sən də... – nəsə demək istəyirdi, amma qaşlarını düyünləyib əlavə etdi: - Gəl, gör nə deyir. Maraqlı adamdır.

Bu qısa söhbətdən sonra yenə motosikletinə mindi və qaza basıb getdi.

Qapının önündə dayanıb uzaqlaşmasına baxırdım. Cəbhə! Heç bu barədə düşünməmişdim. Dayım da

kitaboxu.com

orada olmayacaqdı. Qayıdanda da başıuca İslam döyüşçüsü olacaqdım. Bəs şəhid olsam necə?

***

**Rüknabad, 31 avqust, axşam**

Camaat namazı qurtarmışdı. Kişilər bir-bir cərgələrdən qalxıb bayıra çıxırdılar. Bəziləri də ayaqlarını şəbistanın yerinə sərilmiş zililər üzərində sürüyə-sürüyə ətrafa çəkilir, məscidin sərin divarına söykənirdilər. Tavan ventilyatorları titrəyə-titrəyə fırlanır, hündür tağların ortasında yellənirdi. Mən dayımdan geridə oturmuşdum. Əvvəldən onunla getməmi istəmirdi. Əhmədin məni birbaşa dəvət etmədiyini bilsəydi, getməyə qoymazdı. Ancaq ona demişdim ki, Hacı Qulamhüseyn bütün kankanları çağırıb.

Əhməd yanımda oturub sütuna söykəndi. Mən də ona yaxınlaşıb sütuna söykəndim. Dayım hələ məscidin ortasında oturub zikr deyirdi.

- Hacı Qulamhüseyn odur, - deyə Əhməd əli ilə sıx saçlı bir kişini göstərdi. Birinci cərgədə oturub sağ və solundakı adamlarla danışırdı; gah sağdakına cavab verirdi, gah soldakına.

- Nə cavandır! – dedim.

Onu daha yaşlı, saç-saqqalı ağarmış, yaşlı kankanların çoxu kimi beli bükülmüş halda təsəvvür

kitaboxu.com

edirdim. Onlar illərlə yerin altında işlədiklərinə və alçaq tunellərdə gəzdiklərinə görə belləri çox tez bükülürdü.

- Hə, atamdan çox cavandır, - Əhməd dedi.

Üzünü görmək üçün boylandım. Yaxşı görünmürdü. Dayım məscidin ortasından qalxıb Əhmədin atasının yanında oturdu. Hacı İslam da gəlmişdi.

- Qalx, gedək, onların yanında oturaq, - deyə Əhməd bildirdi. – Məscid boşalan kimi başlayacaq.

- Yaxşı.

Əhməd qalxanda mən də bir az qalxdım, sonra oturdum. Nə deyəcəkdilərsə, ucadan deyəcəkdilər, mən də eşidəcəkdim. Dayımın qılıncının altına keçmək istəmirdim.

Əhməd qrupumuzun yanında oturub əli ilə mənə işarə verdi. Mən də ayağımın yanına düşmüş təsbehi əlimə götürüb ona göstərdim; yəni dayanmadan zikr deyirəm və bu zikrlərin ortasında ora gəlib dayımın təhqirlərinə qulaq asa bilmərəm!

Hacı Qulamhüseynin iki tərəfində oturmuş adamlar qalxıb getdilər. Hacı oturduğu yerdə geri dönüb məscidə baxdı. Sıx qara saqqalı vardı. Gözləri sıx qaşlar altından parıldayırdı. Hacı İslamı görüb ayağa qalxdı və ona yaxınlaşdı.

- Pah, Hacı İslam! Sən hara, bura hara!

kitaboxu.com

Hamısı ayağa qalxdı. Mən də onlara baxıb qalxdım. Hacı Qulamhüseyn yaxınlaşıb dayımgillə görüşdü. Mən kiçik bir addım geri getdim. "Kaş əvvəldən onların yanına gedəydim! İndi Hacı Qulamhüseyn haradan biləcək ki, mən də onlarlayam?!" – deyə öz-özümə düşündüm.

Hal-əhval tutandan sonra hamısı dairəvi oturdu. Əhməd Hacı Qulamhüseynin arxasından boylanıb əli ilə işarə verdi ki, ora gedim. Fikirləşdiyim yerdə birdən hacı dönüb Əhmədi gördü, sonra mənə baxıb ucadan dedi:

- Qalx, bura gəl, cavan! Bildim rüknabadlı deyilsən ha...

Udqundum. Hələ hacıya salam da verməmişdim. İrəliləyib bərkdən salam verdim və sonradan dayım deyinməsin deyə əlimi uzatdım. Hacı ayağa qalxdı, bir az geri çəkilib yanında mənə yer açdı, sonra da əlimi bərk sıxdı. O bilmirdi ki, mən sadəcə "İlyas"am, Əhmədsə "Əhməd ağa"dır.

- Vaxtınızı çox almayacağam, - dedi. – Bilirəm ki, yorğunsunuz, Kəhnucdan yeni gəlmisiniz. Hacı İslam dedi. Allah qardaşın oğluna da rəhmət eləsin, yaxşı oğlan idi.

Hacı İslam Hacı Qulamhüseynə baxmadan başını buladı. Yəqin, gözləri dolubmuş.

kitaboxu.com

- Cəbhədə bir iş var. Bir neçə kankana ehtiyac yaranıb. Digər adamlara da dedim, gəlib işə baxdılar, amma bəziləri "bizim işimiz deyil" deyib qayıtdılar. Mən də dedim ki, öz ətrafımdakı kankanlardan yaxşısı kim ola bilər?! Top-tüfənglə işimiz yoxdur. İşimiz bel, əl arabası və torpaqladır. Amma hər halda, cəbhədir, orada halva paylamırlar.

Dayım oturduğu halda yerini rahatladı. Hacı İslam dedi:

- Necə işdir?

- Məsələn, haradasa bir neçə şəhid qalıb; gedib onları geri gətirməliyik.

- Yəni iraqlıların gözü önündə?

- Bəli, - deyə Hacı Qulamhüseyn gülümsəyib başını yellədi.

Ürəyimə qorxu düşdü. Bel, külüng və araba götürüb iraqlıların önünə getmək?! Axı onlar müharibəyə bel və külünglə gəlmirlər. Onların tankları, zirehli maşınları, katyuşaları var.

Bir az geri çəkildim. Əgər qorxub geri çəkiləcəkdimsə, yaxşısı buydu ki, göz qabağında olmayım. Düşündüm ki, kaş hacının yanında oturmazdım.

- Sənə çox adam lazımdır, hacı? - Hacı İslam soruşdu.

kitaboxu.com

- Yox, Rüknabaddan bir neçə nəfər gələcək. Dedim ki, sizdən də kim istəsə, gəlsin.

Gözlərimi dayımın üzünə dikdim. Fikirləşdim ki, indi başını qaldırıb məni göstərəcək, "necə qorxaqlara ümid edirsən" deyəcək. Ancaq o, başını aşağı salıb fikirləşirdi. Əhməd özünü irəli verib dedi.

- Mən varam, hacı!

***

**Kamalabad, 1 sentyabr, günçıxan çağı**

Tək qalmaqla tək qalmaq istəmək arasında fərq var; günəşin doğuşu ilə batışı arasındakı fərq kimi. Gün doğuşu kimi bir doğuş üçün mən özüm tək olmaq, özümə bir seçim haqqı tanımaq istəyirdim. Məsələn, özüm insanlardan qaçım, amma hamı məni öz yanında görmək istəsin, dayım yeri gəldi-gəlmədi, kişilik bəhanəsi ilə başımdan vurmasın və anam mənim hələ də sağ və sol əllərimi tanımadığımı düşünməsin.

Bir dəfə doğuş üçün bayıra çıxanda anam bilmiş, bilmirəm nədənsə atamın məzarına getdiyimi düşünmüşdü. Yəni adamın ata-babaları torpağın altından qalxıb kiminsə təklik və yorğunluğunu darta və özləri ilə torpağın altına apara bilərlər?!

Torpaq... torpaq... torpaq...

Niyə bu torpaq məndən əl çəkmirdi? Əgər bu torpaq atamı diri-diri udmaq həvəsinə düşməsəydi, mənim də

kitaboxu.com

dayımla bir işim olmazdı. Bəlkə də, Siddiqə məsələsini atamın özü dayıma deyərdi. Atam mütləq mənə “ağa İlyas” deyərdi. Aman torpaq əlindən! Doymaq da bilmir. Bir gün məni də diri-diri udacaq, izim-tozum da qalmayacaq. Bu torpaq kimi udmayıb ki?!

Usta Məmmədin bağının palçıq hasarının başında oturmuşdum. Arxın yanındakı tut ağacından ora çıxmışdım və özüm də bilmədən başımı məzara tərəf çevirib torpaq haqda düşünürdüm. Günəşin nə vaxt üfüq xəttini yarıb düzənliyin ortasından boylandığını bilmədim. Səmanın rəngi dəyişir, günəş əsla tələsmədən üfüqdən özünü göstərirdi.

Hasardan yerə hoppandım. Ata-babalarım torpaq altından məni sakitləşdirən deyildilər, amma, bəlkə, atam səsimi eşidərdi; eşidər və xora kimi canıma düşmüş bu fikirlə nə edəcəyimi anlamağa kömək edərdi. Mənim gücüm yoxdur; mən iki addım aralıda top və güllə atılan yerə gedə bilmirəm. Amma... amma gedə bilsəm, Siddiqənin mənə qarşı fikri dəyişər. Qərarımı dayıma desəm, dərhal deyəcək ki, səndə o cəsarət yoxdur. Amma hamının qarşısında möhkəm dayanmalıyam - anamın, özümün, həyatın məni quyunun dibinə göndərən mənasız gedişinin qarşısında. Həmişə quyunun dibində qalmaq istəmirəm!

kitaboxu.com

Çoxdandı atamın məzar daşını görmür, ortadan yarıldığını və yazılarının oxunmadığını bilmirdim. Sərin meh əsir, bir neçə günə payızın gələcəyini ölülərin yadına salırdı. Ölülərin payızla işləri yoxdur. Onlar fəsilləri özləri ilə torpağın altına aparmışlar.

Məzarlıqda heç kim yox idi. Atamın qəbri yanında oturub ayaqlarımı uzatdım. Daşla danışmaq gülməlidir, amma sözlər öz-özünə çıxırdı ağzımdan:

- Hacı Qulamhüseynlə gedə bilsəm, bəlkə, onda dayım məndən əl çəkər; bəlkə, Siddiqə də bilər ki, mən də insanam. Ata, bax... - deyə yanıq izlərini daşa göstərdim. – Görürsən, ata? Bəxtim yoxdur. Bir qaşığa, işəyaramaz bir qaşığa görə dayım hamının yanında ağzından çıxanı mənə dedi. Sən olsaydın... anam bir az məndən əl çəkərdi. Bəlkə, bacım, qardaşım da olardı... Ata, səncə, nə edim? Heç kim Hacı Qulamhüseynlə getməyəcək. Mən gedimmi? Amma gedib qorxudan qayıtsam, çox pis olar. Pis yox ey, biabırçılıq! Rüsvay olaram. Ata, gedim?

Daşın yarığı gülürdü; həqiqətən, gülürdü. Deyirdi ki, qorxma, bel, külüng və əl arabası ilə gedib düşmən öldürən deyilsən. Deməli, özün də ölməyəcəksən.

- Deyirsən ölmərəm?! Onda gedim? Əhməd gedə bilmirsə, mən gedim, eləmi? Belə çıxır ki, mən Əhməddən irəliyəm? Yəni ondan çox-çox ürəkli və cəsarətliyəm?

kitaboxu.com

Daşın yarığı daha gülmür, mənə baxırdı. Tərpənə bilsəydi, mütləq atılıb-düşər, "get" deyərdi; get və göstər ki, Əhməddən üstünsən; get və göstər ki, sən də kişisən, uşaq deyilsən.

- Ata, əgər qayıtmasam... əgər ölsəm... yəni əgər şəhid olsam, məni də bu torpağın altına gətirəcəklər. O zaman mən də payızın gəldiyini, müharibənin getdiyini, Səddamın oturub öldürmək və İran torpaqlarını zəbt etmək əmri verdiyini bilməyən ölülərdən biri olacağam. Ata, ölü olmaq çox yaxşıdır, deyilmi?! Daha dirilərlə işin olmur, istədiyin bir qarış torpağa da yiyələnmiş olursan. Özünündür. Bəlkə, çürüyəndən sonra üstündə birini də basdıra bilərlər, amma torpaq var və əbədilik sənindir.

Daşın yarığı qəhqəhə ilə gülürdü.

- İnan, ata, mən hər tərəfini düşünmüşəm. Anam... Mən torpağın altına sənin yanına gəlsəm, anamdan bir şey qalar?

Daşın yarığı dinmədi.

- Buyur; deməyə sözün yoxdur. Anamdan söz düşəndə mənim kimi sənin də deməyə sözün olmur. Bilirsən nə düşünürəm? Bəlkə, heç bu torpağı da istəmədim. Hacı Qulamhüseyn deyirdi ki, bir neçə şəhidi geri gətirmək istəyirlər. Yəni onları gətirən olmasa, özlərinin olmayan torpaqda həmişəlik qalacaqlar.

kitaboxu.com

- Ora da İrandır, - deyə daşın yarığı dilləndi.

Sevindim. Ürəyimin üfüq xəttinin ortasından günəş qalxdı.

- Danışdın. Deməli, bu dəfə bura boşuna yolum düşməyib. Ora da İrandır. Yəni deyirsən ki, torpaqdan torpağa fərq yoxdur? Mən orada da qalsam, yenə buranın torpağından sayılır?

Daşın yarığı tərpənmədi. Nəinki danışmadı, heç gülmədi, qaşqabaq da göstərmədi; heç nə... Artıq yenə daş yarığı idi. Deyəcəyini demişdi. Yarığın üstünü tumarladım.

- Gedirəm, ata. Kim nə deyir-desin. Lap elə dayım düz deyir; mən qorxağam. Ancaq o şəhidləri şəhərlərinə gətirmək üçün gedəcəyəm. Analar üçün torpaqdan torpağa fərq var, mənimçün isə torpaq elə torpaqdır.

Ayağa qalxdım. Anamı razı salmaq çətin idi. Hacı Qulamhüseynlə cəbhəyə getmək istədiyimi deməyin özü üçün də böyük cəsarət lazımdı. Bəlkə, heç yolu da məsələni anama birbaşa söyləmək deyildi.

Ən yaxşı yol dayımın özü idi. Onun yanına getməli və cəsarətimi birinci o görməli idi. Qoy ikilikdə olanda nə qədər istəyir danlasın, anamın yanında deməyə sözü qalmasın.

***

kitaboxu.com

**Kamalabad, 1 sentyabr, səhər**

Dayımın gözləri bərəldi:

- Hacı Qulamhüseynlə?

Bir addım geri çəkildim. Dayımın üzünün bu halından yaxşı xatirəm yox idi. Dayım qapı çərçivəsinin altından bir addım irəlilədi. Küçədə idim, asanlıqla qaça bilərdim.

- Qələt edirsən...

Vəziyyət get-gedə pisləşirdi. Bir addım da geri çəkildim.

- Sən cəbhəyə getsən, cəbhə hara gedəcək?! Səndə cəbhəyə gedəcək hünər var?! Gedib orada bir fərsizlik də göstərib bizi biabır edərsən!

Dayım həmişəki reaksiyasını verirdi; yəni mən heç bir iş bacarmıram və cəbhənin öhdəsindən gələ bilmərəm. Mənsə bu dəfə bacardığımı sübut etmək istəyirdim. Dayımın istədiyinin əksinə qərar vermək və bununla görünmək istəyirdim.

- Kankanlığı bacarıram. Hacı Qulamhüseyn də dedi ki...

- Hacı Qulamhüseynin dedikləri sənin üçün deyildi, - deyə dayım sözümü kəsdi. – O, bu işə cəsarəti olanlar üçün deyirdi.

kitaboxu.com

Zamanı idi. Səsimi qaldırıb bağırdım:

- Atam deyilsən ki, səndən icazə alım. Mən gedirəm. Gəlib dedim ki, xəbərin olsun.

Dayım bir addım da irəlilədi, amma ağzını açıb nəsə deyincə güllə kimi yerimdən sıçradım. Var gücümlə evə qaçırdım. Dayım çox əsəbimə toxunmuşdu. Anam bilsəydi, ondan da çox etiraz edəcəkdi. Mənimçün elə qərar qəbul edirdilər ki, elə bil, balaca uşağam.

Arxa otağa keçib balaca qara brezent çantamı götürdüm, içinə iki dəst şalvar-köynək və iki alt paltarı qoydum, üstündən də bir ovuc quru çörək tökdüm. Kifayət idi.

Otaqdan çıxanda anam əlində çörək eyvanın önündə dayanmışdı. İsti çörəyin ətri hər yeri bürümüşdü.

- Çanta nə üçündür? – anam məni görüb soruşdu.

Yaxınlaşıb çörəkdən böyük bir parça qopardım. Gülü bibinin çörəyi idi. Anam demişdi ki, gedib mənimçün təzə çörək alacaq.

- Gedirəm, - dedim.

- Hara? Dayın bir söz demədi axı.

- Mənim getdiyim yerə dayım getmir.

Anamın çadrası sürüşüb həyətə sərildi. Çörəyi eyvanın xalçasının kənarına qoyub dedi:

- Nə?! Dayın getmir?! Bəs sən hara gedirsən?

O ana qədər anamın üzünə baxmamağa çalışırdım. Gözlərini görsəydim, bəlkə də, əl-ayağımın taqəti

kitaboxu.com

çəkiləcək, həmin süfrənin başında oturub isti çörəklə qayğanaq yeyəcək, günortaya da yağlı bir xörək sifariş verəcəkdim.

Çörəyi dişləyib anamın üzünə baxdım. Gözləri islanmışdı. Halbuki hələ heç nə deməmişdim. Çörəyi güclə udub dedim:

- Cəbhəyə.

Gözlərinin bərəlməsini və "sən qələt edirsən" deyə qışqırmasını görmək üçün gözlərimi anamın üzünə dikdim. Amma gözləri bərəlmədi, büzüşüb xalçanın üstündə oturdu, əyilib həyətin kərpic döşəməsinə baxdı, sonra yavaşca:

- Cəbhəyə?! – dedi.

- Kankan istəyirlər, döyüşçü yox, - dedim. – Bir neçə şəhid torpağın altında qalıb, onları çıxarıb geri gətirməliyik, vəssalam. Hacı Qulamhüseyn dedi. Onunla gedirik. Axşam dayıma dedi; yəni hamıya dedi, amma heç kim getmir, mən gedirəm.

Anam başını qaldırıb mənə baxdı. Gözlərinin kənarından yaş axmışdı.

- Boyuna qurban olum, oğlum, nə vaxt belə böyüdün?! Get. Get Allah amanında! Bəs niyə gizlicə gedirsən? Çantanı ver, sənə quru əncirlə badam qoyum.

Əlini uzadıb çantamı dartdı, zəncirbəndini açdı.

- Bunu niyə götürmüsən? Bu cırılıb. Qoy təzə mavini qoyum. Oğlum cəbhəyə gedir. Oğlum torpağı

kitaboxu.com

üçün vuruşmağa gedir. Oğlum böyüyüb. Oğlum bu məmləkətin kişisidir...

Anam məni tərifləyə-tərifləyə çantamı götürüb otağa girdi. Çörək əlimdə qalmışdı. Qalanı da xalçanın üstündə quruyurdu. Anamın öz-özünə danışıq, sonra da ağlamaq səsini eşidirdim. Çörəyi və çadrasını götürüb otağa girdim. Getməzdən qabaq yaxşı bir səhər yeməyinə layiq idim. Anam otaqdan çıxanda gözləri qızarmışdı.

- Ana, vaxtım azdır, - dedim. – Piyada Rüknabada getməliyəm.

- Piyada niyə? Gedib Əhməd ağaya deyərəm, motosikletlə aparar. Özüm də gələrəm. Səni Hacı Qulamhüseynə tapşırmaq istəyirəm.

İstədim deyəm ki, bu dəfə vaz keç, ana; məni Hacı Qulamhüseynə tapşırsan, deyər ki, cəbhəyə uşaq istəmirik. Amma bir söz demədim. Mən dayımın "get" deyəcəyini, anamınsa qoymayacağını da zənn edirdim, amma əksinə olmuşdu. Düşündüm ki, hələlik anama qarşı çıxmaq lazım deyil.

Anam çantanı önümə qoyub:

- Yaxşıca səhər yeməyi yeyirsən, sonra, - dedi, sonra mətbəxə keçib mənə həmin qayğanaqlardan bişirdi.

Özü yemək yemədi. Süfrəni hazırlayıb Əhmədin ardınca getdi. Sonra küçədən dayımın bərk danışıq səsi gəldi. Əlimdə çanta anamı gözlədiyim yerdə səs-küy

kitaboxu.com

qopdu. Küçədə anamla mübahisə edirdi. Əhməd həyətin pərdəsini çəkib içəri girdi.

- Əhsən sənə, İlyas! Kişi adamsan! Kamalabaddan heç kim Hacı Qulamhüseynlə getməsəydi, çox pis olardı.

- Dayım nə deyir?

- Sənə qarşı hirslidir, - deyə Əhməd güldü. – Deyir ki, bir quyunun dibini təmizləmək üçün söz vermişdim, indi işçim məndən icazəsiz gedir. Anan da küçədə bir uşaq görüb Hacı İslamı çağırmağa göndərdi.

Hacı İslam artıq gəlmiş, onun səsi də digərlərinin səsinə qarışmışdı. Əhməd yenə güldü.

- Dayın hirsindən qızarmışdı. Çırtma vursaydın, qan çıxardı.

- O, hər kəsin etirazına dözər, anamdan başqa. Biz ona “baş üstə”dən başqa heç nə deməmişik.

- Mən də çox istəyirdim gedəm, - deyə Əhməd çiynimə vurdu. – Anana halaldır, çox arxanda durur. Anam bizim Rüknabada niyə getdiyimizi bilən kimi dedi ki, cəbhəyə getsən, südüm sənə haram olsun. Sən get, mən də ardınca gələcəyəm. Anam sənin getdiyini bilsə, orada təhlükə olmadığına inanacaq... Gedim, görüm davanın axırı nə oldu.

Əhməd pərdəni çəkib bayıra çıxdı. Özü də bilmədən yenə mənim qorxaq olduğuma eyham vurmuşdu.

kitaboxu.com

Ancaq bu dəfə bəzilərinin istədiyi kimi qorxmayacaq, geri çəkilməyəcəkdim. Bunu etməli idim.

kitaboxu.com

# İkinci fəsil

**Yol, 2 sentyabr, qürub çağı**

Mikroavtobusda yaşıdım çox idi. Beş-altı nəfər olardıq. Danışıqları arasında bəzilərinin adını eşitmişdim. Minəndə boğuq bir salam verib tez oturmuş, sonra da ancaq şüşədən bayıra baxmışdım. Dost tapmaq mənə həmişə çətin gəlib. İndi də nə qədər yad adamın arasına düşmüşdüm.

Biri Əhməd idi, biri Səməd; onlardan böyük olan Əkbər, ən böyüyü Həsən. Hüseynlə Əli də vardı, amma onları qarışdırırdım.

Bir nəfər çiynimə vurdu. Mikroavtobusun tək oturacağından dönüb geriyə baxdım.

- Ye; anam büküb, - deyə bir parça çörəyi mənə uzatdı.

- Sağ ol, varımdır.

Çiynini çəkib oradaca sendviçini dişlədi. Ona əyri-üyrü bir təbəssüm göndərdim və dönüb çantama

kitaboxu.com

baxdım. Qarnımda qəribə bir hiss dolaşırdı, nəsə yeməyə qorxurdum. Maşında ürəyi bulanan deyildim. Dayımla iş üçün oyan-buyana çox getmişdim, amma heç vaxt belə bir şey hiss etməmişdim. Sanki mədəmdə bir şey tərpənib yuxarı gəlmək istəyir, amma gəlmirdi; əlavə bir şey, canlı bir şey...

Hacı Qulamhüseyn mikroavtobusun önündə oturub sürücü ilə söhbət edirdi. Cavanların bir neçəsi də önə keçib hacı ilə danışmağa başladı. Nə baş verdiyini bilmək üçün boylandım. Ondan nəsə oxumasını istəyirdilər. Aşağı sürüşüb yenə bayıra baxmağa başlayanda isə birdən çiynimə ağır bir əl toxundu.

- Eşitmişəm, yaxşı səsin var; sən oxu.

Başımı qaldırdım. Hacı başım üstə dayanmış, bütün oğlanlar da məni dövrəyə almışdılar. Mızıldamağa başladım. Nə deyəcəyimi bilmirdim. Oğlanların biri dedi:

- Bir ağız oxu; naz eləmək lazım deyil!

- Mən... mən...

Hacı qolumdan tutub məni yerimdən qaldırdı.

- Mənim səsim yaxşı deyil, - dedim.

Hacı qolumu buraxdı, amma oğlanlar məni mikroavtobusun önünə itələyib özləri yerlərində oturdular. Dərsə cavab vermək üçün birdən lövhə önünə çıxan, sonra da tutulub hər şeyi yadından çıxaran şagird kimi olmuşdum.

kitaboxu.com

- Axı nə oxuyum? – əllərimi qaldırıb soruşdum.

“Sizə kim deyib ki, mənim səsim yaxşıdır?” – demək istəyirdim ki, oğlanların biri qışqırdı:

- Oxu! Oxumasan, özüm oxuyacağam ha!

Oturacağının yanında dayanmış Hacı Qulamhüseyn oğlanın peysərinə yavaşca vurdu. Hamı gülüşdü, oğlanın özü isə gülməkdən uğundu.

Əvvəldə pis çıxış etmək istəmirdim. Məni bir qədər saysınlar deyə nəsə oxumalı idim. Mənim Kamalabaddan onların ardınca düşmüş fərsiz oğlan olduğumu, ürəkli və qorxmaz Əhməd ağanın isə burada olmadığını bilməməli idilər.

Birdən Tasua axşamları yadıma düşdü. Yadıma düşdü ki, həmişə dəstənin ortasında dayanırdım ki, göz önündə olmayım və oxuyanın kim olduğu bilinməsin. Pis oxusam da, heç kim bilməsin, hətta yaxşı oxusam da. Oxuyanda səsimi digərləri ilə qaldırıb-endirməyi, zilə qalxıb bəmə düşməyi bacarırdım.

kitaboxu.com

Bunları düşünüb gözlərimi bağladım, özümü dəstənin ortasında, çoxlu insanın arasında təsəvvür etməyə çalışdım. Başlamaq istəyəndə bir səs dedi:

- Səddam tank altında qalsın deyə salavat!

Gözlərimi açdım. Hamı salavat dedi. Salavatı dedizdirən hacının vurduğu oğlan idi. Yenə dedi:

- Adnan Xeyrullah[1] partlasın deyə salavat!

Hamı salavat dedi.

- Taha Yasin Ramazan[2] bundan sonra heç bir ramazan görməsin deyə salavat!

Oğlan mənə vaxt qazandırırdı. Mərsiyəni bir dəfə beynimdə təkrarladım, salavat bitəndə isə başladım:

Ya Rəbb! Can gedər, getməz verdiyim sözlər,
Bu Kərbəla, bu mən, bu da yeniyetmələr.

Yavaş-yavaş mənə səs verirdilər.

Sənlə əhdim, ey Həbib, getməz hədər,
Fədayi aşiqlərdir cümlə gələnlər.
Bu səbir və təslim, bu da ərənlər,
Bu Kərbəla, bu mən, bu da yeniyetmələr.

Hacı sinə vurmağa başladı. Daha tək deyildim. Hamımız birlikdə oxuyur, sinə vururuduq.

Qurtarandan sonra hacı çiynimə vurub dedi:

- Səsində çox gözəllik var. Əhsən sənə!

Yerimdə oturanda yaxşı hisslər keçirirdim. Dönüb peysərindən vurulan oğlana baxdım. Gülüb əlini uzatdı:

- Mən Əhmədəm, - dedi.

Görüşdüm. Daha demədim ki, hara gedirəmsə, dostluq etməyə bir Əhməd tapılır.

- Mən İlyasam, - dedim.

---

[1] Səddam rejiminin Müdafiə naziri və İraq ordusunun generalı
[2] İraq Bəəs Partiyasının rəhbərlərindən biri



kitaboxu.com

- Bilirəm, əşi, - deyə güldü. – Hacı o qədər, “Kamalabaddan gənc və peşəkar bir kankan yoldaşımız var” deyib ki, başımızı keçəl edib.

Hacı mikroavtobusun önündən qışqırdı:

- Ondan öyrənin.

Məndən? Nəyi? Hacı haradan belə arxayın idi? Bəlkə, anam axırıncı anlarda məni tərifləyib, o da mənə ümid bəsləyib uşaqların önündə tərifləyir?! Gərək çalışıb özümü tərifəlayiq göstərim.

Hamı güldü. Mən də güldüm. Hərə öz işi ilə məşğul olanda çantamı açdım. Aramızda dostluq davam etsin və mənim çox özünə qapanan olduğumu düşünməsinlər deyə anamın qoyduğu badamı tapıb uşaqlara təklif etmək istəyirdim. Birdən gördüm ki, anam paltarlarımın arasına bir şey də qoyub: atamın şəklini.

Cavan idi, mənim indiki yaşımdan bir neçə yaş böyük olardı; 20-21 yaşında. Evləndiyi vaxt çəkdirmişdi. Anam danışmışdı ki, bir-birini sevibmişlər. Atam mənim təkcə bir yaşımı görmüşdü.

Mənə oxşayırdı. İndiyədək atama bu qədər bənzədiyimin fərqində olmamışam. Anam demişdi ki, bir dəfə kankanlığa gedib və daha qayıtmayıb. Amma o, heç vaxt mənə deməyib ki, getmə. Dayım məni özüylə kanal qazmağa aparanda heç vaxt mane

kitaboxu.com

olmayıb. Heç vaxt işlərimdə mənə “yox” deməyib. Hətta indi cəbhəyə gedəndə də qorxmadı.

Günəşin qürubuna baxdım. Bu gün günəş doğanda atamın yanında idim, indi isə çöllükdə Quma doğru, şəkli də əlimdə. Atam mənimlə gedirdi.

***

**Qum, 2 sentyabr, gecəyarı**

Uşaqların ikisi bizdən ayrılmışdı. Qumda qohumları vardı, axşam biz çatan kimi gəlib onları apardılar.

Uzaqdan məqbərənin günbəzini görən kimi əvvəl hacı ayağa qalxıb salam verdi, sonra da hamımız onun arxasında ayağa qalxdıq. Hamımız ziyarətə getmək istəyirdik. Yekdil qərarımız idi, amma hacı qoymayıb dedi:

- Qarın ac, bədən çirkli. Gedək bizə, duş qəbul edin, bir şey yeyin, səhər gətirərəm, doyunca ziyarət edərsiniz.

kitaboxu.com

Gedək hacıgilə! Bir pətək arını qarnıma tökdülər, onlar da önlərinə keçəni sancmağa başladılar. Niyə həyəcanlı idim? Mən də digərləri kimi. Bəlkə, digərləri də həyəcanlı idilər? Lakin bu qədər gülüş və zarafat həyəcanla uyğun gəlmirdi. Mikroavtobus bizi prospektin kənarında endirdi. Hacı çox israrla sürücünü də evinə aparmaq istəyirdi, o isə hacının

çiyinlərindən öpdü və qızının Qumda yaşadığını deyib bizdən ayrıldı.

Ördək balaları kimi hacının arxasınca düzülüb şəhərin ensiz keçələri ilə gedirdik. İnsanlar bu küçələrdə necə nəfəs alırlar? Sanki divarlar bir-birinin boğazına keçib İskəndər səddi əmələ gətirmişdi. Bu divarlardan hava keçmirdi, ağac yox idi. Küçələrdə qapı və pəncərə cərgələri uzanırdı. Adamlar sinə-sinəyə gəlib salam-əleyk edir, bəzən heç salamlaşmırdılar da. Adamlara baxırdım; hamı yad. Bu qədər yad adam içində necə yaşamaq olar?! Necə gedib-gəlmək, necə nəfəs almaq olar?!

Hacı balaca bir qapının önündə dayanıb zəngə basdı. Həyətdən qız səsi gəldi:

- Kimdir?

- Mənəm, qızım.

Qapı açıldı və təxminən üçyaşlı balaca bir qız hacının qucağına atıldı. Sonra hacının işarəsi ilə bir-bir bizə salam verdi. Hacı öndən gedib "ya Allah" dedi, biz də arxasınca evə girdik.

"Nə balacadır!" Bu sözü bərk-yavaş hamımız dedik. Ev çox balaca idi. Xudmani bir həyətdən ortasına 12 metrlik bir xalça sərilmiş qonaq otağına qapı açılırdı. Həyətin kənarında su kranı vardı, altında da qırağı sınmış balaca bir hovuzcuq. İki addım aralıda da sürahi

kitaboxu.com

qoyulmuşdu və zirzəminin qapısı yerləşirdi. Bütün ev bizim həyətimizin bağçası boydaydı.

Hacı ayaqqabılarını çıxarıb cütlədi və qonaq otağına girdi. Biz təəccüblə bir-birimizə baxırdıq.

- Əl-üzümüzə su vuraq, - deyə Həsən hovuzcuğa yaxınlaşdı.

Mən də onun ardınca getdim. Hacı qucağında körpə həyətə qayıtdı. Qucağında hələ bir yaşı tamam olmamış oğlan uşağı vardı.

- Buyurun, bir çay için, şam da hazırlanır, - dedi.

Bu qədər adama şam yeməyi?! Hamı dilləndi ki, ehtiyac yoxdur, çantalarımızda yemək var. Ancaq hacı razılaşmadı. Biz qonaq otağında oturanda qızarmış yemək iyi gəlir, qarnım quruldayırdı. Dua edirdim ki, qurultunu heç kim eşitməsin. Qonaq otağının kənarında iki kvarslı şüşəsi olan bir qapı, onun arxasında evin yeganə otağı, güman ki, ondan sonra da mətbəx vardı; çünki yemək iyi oradan gəlirdi.

Bir-bir namazlarımızı qıldıq. Hacının balaca oğlu aramızda oturub gülür, oynayırdı. Süfrə səriləndə Əhmədlə Əkbər dedi ki, qabları biz yuyacağıq. Mən yerimdən tərpənmədim; utanırdım.

Yeməkdən sonra hacı çay gətirib dedi:

- Hamınız bura yerləşərsiniz. Mən o biri otaqda yatacağam.

kitaboxu.com

Düz deyirdi; hamımız ora yerləşib yatdıq. Otağın qapısı açıq idi, içəri sərin külək gəlirdi. İki-üç nəfər elə əvvəldən xoruldamağa başladı. Məni isə yuxu tutmurdu. Qapının arasından göyə baxırdım. Ulduz yox idi. Sanki buranın səması bizim şoranlığın səmasından fərqli idi. Ulduzlar cansızdı, lampa işığında tez yoxa çıxırdı.

Bir nəfər yuxuda danışırdı. Kim olduğunu bilmək üçün başımı qaldıranda hacı qapını açıb bizə baxdı.

- Yatmamısan, ağa İlyas? – deyə soruşdu. – Bir şey istəyirsənsə, gətirim.

- Yox, hacı, indi yatıram.

- Gecən xeyrə, - deyib qapını örtdü.

İlk dəfə idi kimsə mənə “gecən xeyrə” deyirdi. Hacının uşaqları ilə danışıq səsi gəlirdi. Onlara nağıl danışırdı.

kitaboxu.com

***

**Müqəddəs hərəm, 3 sentyabr, günorta**

- Bu ziyarətnaməni oxuya bilərsən, oğul can? – bir qoca kişi dedi.

Ətrafımda başqa bir “oğul can” yox idi. Deməli, kişi mənimləydi. Ziyarətnamə kitabçasını ondan aldım. Özü də yanımda oturdu, amma arxası mənə sarı idi. Dedi ki, üzü zərihə dön. Döndüm. Ziyarətnamənin sözləri gözlərim önündə paraddan keçirdi. Heç bir

Quran məclisində bərkdən Quran oxumamışdım. Həmişə növbəm çatanda özümdən sonrakına deyirdim ki, oxusun. Oxuyum deyə israr edən də olmurdu. Lakin mikroavtobusda məddahlıq edə bilmişdim. Bu da qoca bir kişi idi və mən onun önündə oxuya bilirdim.

Mən oxuduqca arabir səhvlərimi düzəldirdi. Hamısını əzbər bilirdi, amma mənim də oxumağımı istəyirdi.

Oxuyub qurtarandan sonra mənə baxıb:

- Çox yaxşı oxudun. Mənim savadım yoxdur. Mənə Yasin də oxu, - dedi və üzü qibləyə doğru döndü.

Şkafdan Quran götürdüm. Düşündüm ki, bunu səhvsiz oxumalıyam. Kişi bu dəfə səhv tutmadı, amma bütün surəni mənimlə birgə oxudu. Zamandan xəbərsiz idim, saata göz atmaq yadımdan çıxmışdı. Onun üçün Ali-Yasin ziyarətnaməsini və Ərrəhman surəsini də oxudum. Yavaş-yavaş bu işdən xoşum gəlirdi. Hər dəfə oxuyub qurtarandan sonra, çoxlu səhvlərim olsa da, məni tərifləyirdi.

Axırda dedi:

- Oğul can, bir işin yox idi? Vaxtını aldım.

Birdən özümə gəlib yerimdən sıçradım və şəbistanda saat axtarmağa başladım. Saat 1 idi. Kişi ilə sağollaşıb həyətə qaçdım. Hərəmə çatanda hacı demişdi: "Namazdan sonra burada olun. Günorta yeməyinə kababçıya gedəcəyik, oradan da vağzala.

kitaboxu.com

Saat 2-nin yarısında qatar Əndimeşkə doğru hərəkət edəcək".

Saat 1 olmuşdu və mən indi həyət qapısının önünə çıxırdım.

Kül başıma! Buradan Kamalabada qayıdıb dayımın yanında boynumu bükməli, deməliyəm ki, düz deyirdin, mənim heç cəbhəyə qədər getmək fərasətim də olmadı. Yox-yox... gedə bilərəm. Onlar saat 2-nin yarısında vağzalda olacaqlar. Mən onlara çata bilərəm.

Yaxındakı hərəm xidmətçilərinin birindən vağzalın ünvanını soruşdum. Yolu göstərib dedi ki, piyada getsən və qaçsan, 2-nin yarısına çatarsan. Hərəmdən çıxan adamların arasından qaçmaq istəyirdim, amma olmurdu. Bir qoca kişiyə dəydim, yerə yıxıldı. Ona kömək etdim və küçənin o biri tərəfi ilə getməyə çalışdım.

Xidmətçinin dediyinə görə, küçənin axırında körpü və çay olacaqdı, amma küçə uzandıqca uzanırdı. Mağaza satıcılarının birindən soruşmaq istədim, amma başı çox qarışıq idi.

Bir qədər irəliləyib təsbeh satan bir qocadan soruşdum:

- Dəmiryol vağzalı hansı tərəfdədir?

Mənə başqa dildə cavab verdi. Nə o, məni başa düşmüşdü, nə də mən onu başa düşdüm. Küçə ilə bir qədər də irəlilədim. Düşündüm ki, bəlkə, xidmətçi səhv

kitaboxu.com

deyib. Amma yox... Nə çay vardı, nə körpü. Qucağında uşaq olan gənc bir qadından soruşdum. Bir az mənə baxıb dedi:

- Vağzal bu tərəfdə deyil ki!

Başa saldım ki, hərəmdə olanda xidmətçi bu tərəfi göstərib. Uşağını yerə qoyub əlindən tutdu, çadrasını çənəsinin altında toplayıb:

- Səhv gəlmisən. O biri küçəyə dönməli idin, - dedi və geridə qoyduğum bir nöqtəni göstərdi.

Ucadan "sağ ol" deyib qaçdım. Öz günahım idi, gərək soruşaydım. Lənət olsun mənə!

Küçənin başında yenə soruşdum və bir qədər irəliləyib körpünü gördüm. Körpünü keçəndən sonra taksi sürücülərinin birindən saatı soruşdum. Saat 2-yə iyirmi dəqiqə qalırdı. Məni ağlamaq tutduğunu görüb dedi:

- İstəyirsən səni aparım?

- Yox, - dedim, sonra isə fikrimi dəyişib əlavə etdim: - Bəli, dəmiryol vağzalına getmək istəyirəm.

- Çatacaqsan, - deyə sürücü başını tərpətdi. – Qatarlar həmişə gecikir, o ki qala Əndimeşk qatarına. Çatacaqsan, Allah döyüşçüsü!

Mindim və taksi sürətlə yola çıxdı. Xidmətçi düz demişdi, yol yaxın idi, tez çatdıq. Sürücü pul almayıb dedi ki, qaç. Qatarın fitini eşitdim. Bütün vağzal adamla dolu idi; arvad-uşaq, qoca-cavan... Gözləmə

kitaboxu.com

zalının çıxışındakı şüşələrdən baxanda qatarın hərəkət etdiyini gördüm. Qaçdım. Düşündüm ki, bəlkə, qışqırsam, dayanar. Mən o qatarla getməli idim. Mən Əndimeşkə getməli idim. Mən cəbhəyə getməli idim...

Gördüyüm qatarın son vaqonu idi. Ondan sonra şüşədən yalnız mavi səma görünürdü. Qapıçı mənə baxıb dedi:

- Gecikdin?

Cavab vermədim. Üzümü çevirib bir neçə addım gedəndən sonra bir nəfər arxadan çiynimə vurdu. Dönəndə hacını qarşımda gördüm.

- Haradaydın, ağa İlyas? – deyə soruşdu.

- Siz getmədiniz?

Hacı başını yellədi.

- Niyə? – deyə ətrafına baxdım; heç kim yox idi. – Uşaqlar haradadırlar?

- Onlar getdilər, mən səni tapmaq üçün qaldım, - deyə hacı çıxışa doğru addımlamağa başladı. – Gəl, gedək.

- Bəs cəbhə?

- Cəbhə heç yerə getmir, bizi gözləyir, - üzünü çevirib güldü. - Gedək evə, şam namazına yenə hərəmə gələrik, - dedi və mənim dayandığımı görüb əlavə etdi: - Danışmışam. Sabah günortakı reyslə gedəcəyik.

kitaboxu.com

# Üçüncü fəsil

**Əndimeşk, 5 sentyabr, günorta**

Hacı uşaqların Cündi-Şapur universitetində olduqlarını öncədən bilirdi. Universitet boşaldılıb ordunun düşərgəsi edilmişdi. Səhər tezdən şəhərə çatıb birbaş ora getdik. Qorxurdum ki, gecikdiyimə görə məni ələ salıb lağ edərlər, amma heç kim bir söz demədi. Sanki əvvəldən plan beləymiş ki, hacı ilə mən sonradan gələk.

Hacının ardınca qərargaha getdik və biz qapı arxasında gözlədik. Hacı kapitan Kazim Mirhüseynini axtarırdı. Uşaqlar dedilər ki, kapitan Yəzddəndir və Ayətullah Səduqinin təklifi ilə özü Rüknabada gedib hacını tapıb. Qrupumuzdan Əkbər, Həsən və Səməd kapitan Mirhüseynini görmüşdülər.

Hacı otaqdan çıxıb dedi ki, kapitanla görüşmək üçün başqa bir yerə getməli, bizsə orada düşərgədə

kitaboxu.com

qalmalıyıq. Bildirdi ki, günorta yeməyini də burada verəcəklər, ancaq çox əl-ayağa dolaşmayın.

Mən, Səməd, Əkbər və Həsən həyətdə oturacaqda oturub əsgərlərin məşqinə baxmağa başladıq. Yeni çağırışçılar idi, qaçırdılar. Bir də gördüm ki, Hüseynlə Əhməd də onların arxasınca qaçır. Əhməd həm qaçır, həm də gülməkdən uğunurdu. Sonra sıradan çıxıb divara söykəndilər.

Əsgərlər səliqə ilə dörd sıraya düzülüb qərargahın arxasındakı əraziyə doğru getdilər. Birdən həyəcan siqnalı verildi. Yerimizdən atıldıq. Sığınacağın harada olduğunu bilmirdik. Həyət boşalmışdı. Bir gizir pəncərənin arasından qışqırdı:

- Binanın arxasına qaçın, sığınacaq oradadır!

Əsgərlərin getdiyi səmtə qaçıb sığınacağın girişini uzaqdan gördük. Əhmədlə Hüseyn bizdən öncə çatmışdılar. Ortadakı binadan da bir neçə nəfər bayıra qaçdı. Biz sığınacağın girişində olanda birinci təyyarənin səsi gəldi, sonra da o birilərinin. Neçə təyyarə olduğunu bilmədik. Hava hücumundan müdafiə qurğularının atəş səsi gəldi.

Pilləkənin ortalarına çatanda bütün dünya titrəməyə başladı. Müvazinətimi qoruya bilməyib başı üstə yıxıldım. Səmədlə Əkbər də yıxılıb yanıma düşdülər. Axırıncı pilləyə çatanda əlimi yerə dayayıb oturaq halda enə bildim. Başım göynəyir, amma qaranlıqda

kitaboxu.com

heç nə görünmürdü. Pilləkənin yuxarısından qışqırıq səsi gəlirdi. Bir neçə nəfərin köməyi ilə divarın kənarında oturdum. Hələ həyəcan siqnalı davam etsə də, onlar pilləkənlə yuxarı qalxdılar. Əlimi başıma qoyub yapışqan bir şey hiss etdim: qan! Əgər dayım olsaydı, deyərdi: "Əvvəl pilləkəndən enməyi öyrən, sonra cəbhəyə get, ay fərsiz!"

Yuxarıdakı hay-küy o qədər çoxaldı ki, Əkbər yanımdan durub pilləkənlə yuxarı qalxdı. "Getmə" demək istəyəndə bir əsgərin qapının çərçivəsinin altında oturmasına kömək etdiyini gördüm. Nə baş verdiyini görmək üçün ayağa qalxdım: Əsgərin qarnından qırmızı, qanlı bir şey çıxıb ayaqlarının üstünə tökülmüşdü; içalatı və bağırsaqları idi. Ürəyim bulandı. Mədəmdəkilərin qarşısını almaq üçün bir neçə dəfə dərin nəfəs almağa çalışdım, amma bacarmadım. Hamısı paltarımın üstünə töküldü.

Yerə oturdum. Nəfəsimi bayıra buraxmağı bacarandan sonra özümü toparlamaq istədim, amma baxıb gördüm ki, paltarımı yaman günə qoymuşam. Sanki özümdən aralanıb çox solmuş olan və divarın dibinə sərələnib can verən ruhsuz bir bədənə kənardan baxır, nə qədər zəif olduğumu, bir dəstə xoruzun arasına düşmüş birgünlük cücəyə bənzədiyimi görürdüm.

kitaboxu.com

Bir neçə nəfər də sığınacaqdan çıxdı. Həyəcan siqnalı bir an da kəsilmirdi. Birdən hacını gördüm. Pilləkənin üstündən qışqırıb bir-bir bizi çağırırdı. Əkbəri yuxarıda görmüşdü. Mənim də pilləkənin aşağısında uzandığımı görüb dedi:

- Necəsən?

Başımı yelləyib bildirdim ki, yaxşıyam. Əli ilə başımı yaxınlaşdırıb yarasına baxdı. Qusuntunun zəhrimar dadı ağzımdan getmirdi.

- Yaxşıyam, - dedim.

Önümdən qalxıb getdi. Allaha şükür ki, getdi. Bir az tərpəndim və divarın dibindəki torpağı qaytardıqlarımın üstünə tökdüm. Üst geyimimi çıxarıb çirkli hissəni gizlədəcək şəkildə yumurladım, sonra atmaq üçün çantama soxdum.

Bir neçə yaralını da qapının ağzına gətirmişdilər. Ayağa qalxdım. Hacı ilə Əkbər orada oturmuş yaralılara yardım edirdilər. Çalışırdım ki, qarnı yırtılmış oğlana baxmayım. Yenə qusacağımdan qorxurdum. İki əlimi də ağzımın önünə tutmuşdum.

Normal vəziyyət siqnalı verildi. Ağ xalatlı bir kişi pilləkənin başından qışqırırdı:

- Yəzdani! Yəzdani aşağıdadır?

Amma heç bir Yəzdani cavab vermirdi. Yavaş-yavaş pilləkənlə qalxdım, sığınacağın girişində dayanıb

kitaboxu.com

bayıra baxdım. Qiyamət belə olacaqdı; yəqin ki, belə olacaqdı: tüstü, qan, alov...

Əsas korpusdan bir şey qalmamışdı. Bir hissəsi yanırdı, daş, kərpic və şüşə qırıqları hər yerə səpələnmişdi. Sığınacağın girişi qan içindəydi. Qanlar laxtalanıb yumurlanmışdı. Bəlkə də, orada keşik çəkən adamın ət parçaları idi...

Mədəm yenə qaynamağa başladı. Dibində nəsə qalmış olsaydı, mütləq gələrdi; amma daha heç nə yoxdu.

Sanki bütün ərazini götürüb çaydan buxarının üstünə qoymuş və hər şeyi dumanlandırmışdılar.

Divara söykənib oturmağa çalışdım. Hacının səsini eşidirdim:

- İlyas... məni eşidirsən?.. İlyas... başına baxım...

Hacını görürdüm; qarşımda əyilib-düzəlir, dalğalanırdı. Orada olması məni rahatladırdı. Önümdə oturmuşdu.

- Bir şey deyil, qanı dayanır. Tərpənmə, yaxşı? Mən görüm o birilər nə edirlər, - deyib getdi.

Tüstü azalanda oyan-buyana qaçan adamlara baxdım.

“Cəbhə budur! Buyur! Yox-yox, bura hələ cəbhə də deyil, Əndimeşkdir. Hələ cəbhəyə çatmamış altını islatmısan! Bu vəziyyətdə gedib şəhidləri ailələrinin

kitaboxu.com

yanına qaytarmaq istəyirsən?! Özün onun-bunun əlində qalmasan, hünər etmisən!”

Yerimdən qalxıb bir addım irəliləmək üçün bunları özümə dedim. Gedib haradansa bir daş, bir kərpic götürmək, uçqun altında qalan varsa, çıxarmaq istəyirdim. Amma lənətə gəlmiş ayaqlarım sözümə baxmırdı. Orada, qanlı yerin bir kənarında oturub qiyamət səhnəsinə baxmağa başladım.

***

**Çıxış yolu, 5 sentyabr, günortadan sonra**

Hamımız böyük yük avtomobilinin banında oturmuşduq. Hacı Qulamhüseyn kapitan Mirhüseyninin yanındaydı, arabir danışırdılar. Onlar salonun arxasındaydılar, mənsə platforma qapısının yanında. Banın üstünə çəkilmiş brezent örtük küləkdən yellənir, bəzən arasından can verməkdə olan və şüaları uzaqdakı təpələrin arxasına yayılan günəşi görmək olurdu. Mən oturduğum yerdə büzüşüb gördüklərim barədə düşünürdüm; tikə-tikə olmuş adamlar, ət, qan, sümük, kəsik ayaq, qışqırıq, kömək istəyi, bu qədər cəsarət və mənim bu adamların arasında nə etdiyim barədə. Kimə nəyi sübut etməyə gəlmişdim; özümə, Siddiqəyə, atamın ruhuna? Yoxsa bədbəxt və fərsiz olduğumu bu torpağa da göstərib evə qayıtmaq üçün gəlmişdim?

kitaboxu.com

Başımı dizlərimə dayadım. Bəs idi. Bu qədər ümidsiz düşünməməli idim. Daha geriyə də yol yoxdu. Gəlmişdim və davam etməli idim. Gedib bir şəhidi torpaq altından çıxarmalı idim ki, nəinki qorxmadığımı, hətta faydalı bir iş gördüyümü düşünə bilim.

Yük avtomobili sola döndü və hamımız bir-birimizin üstünə yıxıldıq. Uzaqdan top atəşinə bənzər səslər və partlayış gurultuları gəlirdi. Onların bircəciyi maşınımızın üstünə düşsəydi, hamımızın külünün göyə sovrulmasına bəs edərdi.

Mirhüseyni salonun şüşəsini taqqıldadıb:

- Növbəti düşərgədə enəcəyik, - dedi.

Uşaqlar hərəkətə gəlib özlərini səliqəyə saldılar. Mən çantamı qucağıma götürəndə paltarımın bayıra gələn pis qoxusunu hiss etdim. Bir yerdə bu paltarı məhv etməli idim. Onu elə bükdüyüm kimi, heç kim görmədən bir çalaya atmalı idim.

Qərargah tabloları bir-bir görünürdü. Avtomobil çuvalları bir-birinin belinə minmiş səngərin önündə dayandı. Hamımız yerə atılıb Mirhüseyninin sürücü ilə söhbətinin bitməsini gözlədik. Yük avtomobili hələ arxasında oturmuş bir neçə əsgərlə getdi və biz hacı ilə Mirhüseyninin arxasınca düşüb yoldan aralıda olan balaca və əyri-üyrü beton tikiliyə doğru getdik. Mən

kitaboxu.com

aralıda dayandım, uşaqlarsa səngərə yaxınlaşdılar. Paltardan qurtulmaq üçün fürsət axtarırdım.

Bir neçə dəqiqədən sonra səngərdən məndən də balaca bir oğlan çıxdı. Belində çanta kimi bir rabitə cihazı vardı, əlindəki dəstəkdən: "Səni görməyə gəlirlər, qardaş! Gəlirlər, gəlirlər... – deyib Mirhüseyninin yanına getdi və ona: - Yarım saata bir Toyota gələcək. O, sizi irəli aparacaq" – deyə bildirdi.

Hacı üzünü bizə tutub dedi:

- Maşın gələnə qədər buralarda bir yerdə istirahət edin.

Bundan yaxşı nə ola bilərdi?! Bu rüsvaylıqdan qurtulmağın zamanı gəlmişdi. İylənmiş paltar, bir yerdə kənara tullayıb yeni həyata başlamalı olduğum keçmişim kimi məndən əl çəkmirdi. Bu həyat o qədər yeni olmalı idi ki, özüm də yeni kişi olum və mənə fərqli şəkildə baxsınlar.

Uşaqlar oyan-buyanda uzanmışdılar. Bir yeniyetmə əllərində bir dolça şərbət və bir stəkan səngərdən çıxdı. Stəkanı doldurub uşaqların birinə verir, içib qurtarandan sonra başqasına yaxınlaşırdı. Əlimdə çanta ona sarı gedib:

- Tualet hardadır? – deyə soruşdum.

Bir qədər aralıda üst-üstə yığılmış çuvalları göstərdi.

- Səhra tualetidir.

Əlimdə çanta tualetə tərəf gedəndə Səməd dedi:

kitaboxu.com

- Çantanı yerə qoy...

Özümü eşitməzliyə vurdum. Tualet üst-üstə qoyulmuş və üç yarımçıq divar əmələ gətirmiş dörd cərgə çuvaldan ibarətdi. Vəssalam; tualet yalnız buydu.

Divarın yanından keçəndə səs eşitdim. Yarımçıq tualetdə kimsə vardı. Yolumu döndərib tualetin arxasına keçdim, paltarımı atmaq üçün təpəyə sarı getdim. İrəlidə tikanlı məftilləri gördüm. Paltarı çantamdan çıxaranda atamın şəkli də çıxıb yerə düşdü. Əyilib götürmək istəyəndə külək onu tikanlı məftillərə tərəf apardı. Bir neçə addım da irəliləyəndən sonra bir qışqırıq səsi eşitdim. Tualetin yarımçıq divarları arasında kimsə dayanmışdı.

- Getmə, orada mina var! – dedi.

Yerimdə donub qaldım. Şəkil tikanlı məftillərin birinci hissəsindən keçib sonrakılarda ilişmişdi. Kişi tez yanıma gəldi. Şalvarının kəməri ilə əlləşirdi.

- Tikanlı məftil o deməkdir ki, ondan o tərəfə keçmək olmaz. Sən hara getmək istəyirdin?

- Atamın şəklini külək apardı.

Kişi şəklə baxdı, sonra önümdə yerə düşmüş paltarı görüb dedi:

- Sənindir?

- Yox, - deyə tez cavab verdim. Sanki bir saniyə gec dillənsəydim, şübhələnəcəkdi.

kitaboxu.com

- Şəkil daha getdi, - deyə arxasını çevirib addımlamağa başladı. Külək şəkli məftillərdən ayırıb daha uzaqlara apardı. Ondan sonra o şəkli bir daha görmədim.

***

**Kərxə çayı bölgəsi, 5 sentyabr, günbatan çağı**

Hamımız boz Toyota pikapının açıq banında oturmuşduq. Hacı demişdi ki, əməliyyat zonasına gedirik, ora düşmənin görüş sahəsində olduğuna görə hava qaralandan sonra körpüdən keçəcəyik. Körpünün adını da demişdi: Nadiri körpüsü, ya da metal körpü. Bildirmişdi ki, bundan qabaq yuxarıda Dəhdəhanə adlı qədim körpü olub, oradan keçib Abbas düzü, Dehloran, Mehran və Eyn-xoşa gedirmişlər. O körpü sıradan çıxıb, yararsız haldadır, bu körpünün koordinatı da iraqlılarda var, amma hələ ki, özü iranlıların nəzarətindədir.

Körpüyə çatmamış pikap dayandı və biz yük platformasından endik. Körpü Kərxə çayının üzərindən keçirdi. Hacı çantasından hamıya kişmiş və ləbləbi paylayıb bizi başına topladı.

- Bu yer və görəcəyiniz iş gizli qalmalıdır, - dedi. – Bu barədə nə kənddə, nə də burada əsgərlərin yanında danışmaq olar. Mən sizə arxayınam, amma çox diqqətli olmanızı da istəyirəm.

kitaboxu.com

Hamı başı ilə təsdiqlədi. Mənsə təəccübləndim. Bir neçə şəhidi geri gətirmək niyə gizli qalsın ki? Heç nə deməyib hamı kimi mən də başımı yellədim. Bu, o deməkdi ki, mən də bəzi şeyləri başa düşür və sirr saxlamağı bacarıram. Amma çaşqınlıq içindəydim. Gözləyirdim ki, təklikdə Əhməd, ya da Səməddən soruşum. Hacı isə yanımızdan tərpənmədi. Torpaq siperin ətəyində uzanıb göyə baxırdıq. Qürubun qızartısı səmanı qaralmağa hazırlayırdı.

Ulduzlar göründü. Şoranlığın ulduzları kimi çox və gözəl idi.

Hacı "qalxın" deyən kimi hamımız Toyotanın arxa hissəsinə qalxdıq və sürücü sürətlə körpüyə tərəf sürməyə başladı. Partlayış səsi gəldi, getdiyimiz torpaq yolun o tərəf-bu tərəfinə bir-iki mərmi düşdü. Mən əyilib qollarımla başımı tutmuşdum. Sanki onlar zirehli idi.

Maşın enişdən enib dayandı. Biz də bir-bir yerə enib səngərləri gördük. Səngərləri qoruyan torpaq divarın arxasında, onların pərdə qapılarının arasında zəif lampalar yanırdı. Ətrafıma dövrə vurdum; qurumuş çay yatağının ortasındaydıq. Su divarları qoparıb aparmış, qalan hissəsinin üzərində naxışlar əmələ gətirmişdi. Ulduzların zəif işığı altında bu divarlardan müxtəlif şəkillər düzəltməsi üçün gözlərinə möhlət vermən kifayət idi.

kitaboxu.com

- Bura gəlin!

Uşaqlar yatağın divarına söykənən və digərlərindən böyük olan səngərə tərəf gedirdilər. Səngərin divarları iri dolu çuvallardan idi. Tavan da çuvaldandı. Onların göydə necə qalıb tavan əmələ gətirdiklərini qaranlıqda anlaya bilmədim. Qapını əvəz edən köhnə ədyal kənara çəkildi və səngərin içini gördüm: tavanda enli möhkəm taxtalar vardı. O taxtalar dəmiryol relslərinin arasına qoyulurdu. Lampa çox nazik məftillə tavandan asılmışdı, sanki son nəfəslərini alır, "pıt-pıt" səsi çıxarırdı.

Mirhüseyni hamıdan qabaq səngərə girib sıx saçı və hamar üzü olan enlikürək bir kişiyə əl verib salamlaşdı, sonra onu hacıya və bizə təqdim etdi:

- Leytenant Aramdır, bu taqımın komandiri.

Leytenant Aram hamı, hətta mənimlə də görüşdü. Hacı bizi göstərib:

- Bunlar da mahir kankanlardır.

- Usta, təbii ki, özüdür, - deyə Əkbər hacını göstərdi.

Hacı qaşlarını düyünləyib çox ciddi şəkildə dedi:

- Burada usta-şagird yoxdur, hamımız eyniyik!

Səngərin kənarlarında oturduq. Ortaya iki çəfiyə şalı sərib bir neçə çörək və iki qab pendir qoydular.

Leytenant Aram dedi:

- Burada bizim fərasətimiz budur. Buyurun!

kitaboxu.com

- Buyurun, - deyə hacı əli ilə süfrəni uşaqlara göstərdi.

Qarnım çörəyi görən kimi nə qədər ac olduğunu xatırlayıb quruldamağa başladı; yəni bu bəla çalasına bir şey at. Yaxınlaşıb çörəkdən kəsdim. Bir parçanın bəs edəcəyini düşünürdüm, amma qarnımın səsi kəsilmirdi. Məndən sonra o birilər də yeməyə başladılar. Hacı yaxınlaşmayıb leytenantla danışırdı. Bir qədər yeyəndən sonra bildim ki, əsas məsələ şam yeməyindən sonradır. Zonanın planını gətirəcəkdilər, hacı baxıb nə etmək lazım olduğunu deyəcəkdi.

Çörək əlimdə qaldı. Qrupun harada işləməli olduğunu niyə hacı müəyyən edəcəkdi? Məgər o, şəhidlərin harada qaldığını bilirdi?! Bu işdə bir tərslik vardı və mən onun nə olduğunu bilmirdim.

- Hələ bir tikə çörək ye, qardaş, - deyə leytenant Aram əlini yavaşca hacının çiyninə qoydu, - iş qaçmır.

Hacı əlini uzadanda götürdüyüm çörək parçasını tez ona uzatdım.

- Əllərinə sağlıq, ağa İlyas, - deyib çörəyi aldı.

***

**Komandir səngəri, 6 sentyabr, gecəyarı**

Plan ortaya sərilmiş və hamı ona doğru uzanmışdı. Hər iki tərəfində nöqtələr qoyulmuş uzun bir xətt xəritəni ikiyə bölürdü. Nöqtələrdən irəlidə bir uşaq

kitaboxu.com

xəyali bir varlığın rəsmini çəkibmiş kimi dalğalı xətlər vardı. Onlardan aşağıda da iki əyri xətt çəkilmişdi. Leytenant Aram iki əyri xəttin üstünə vurub dedi:

- Bu, mövsümi çaydır, yatağında bizim səngərlərimiz yerləşir, - sonra nöqtələrin arasındakı uzun xəttə vurub əlavə etdi: - Bu, həmin hündür torpaq sipərdir, iraqlılar bunun arxasına yerləşiblər. Sipərin üstündə enli çaya oxşayan təxminən yeddikilometrlik qədim kanal var. Deyilənə görə, kanalı illər öncə yəzdlilər çəkiblər, əkinçilik üçün aşağıdakı düzənliyə su aparmaq istəyirmişlər.

Bunu deyib güldü. Uşaqlar da gülməyə başladılar. Mənsə yenə təəccüb içində düşünürdüm ki, şəhid cəsədlərini tapmaq üçün yer qazmağın bu kanalla nə əlaqəsi var?

- Görürsən, hacı, bu iş əvvəldən sizdə olub! – deyə leytenant Aram yenə kağızın üstünə, uzun xəttin arxasına vurdu. – İraqlılar burada, bu sipərin arxasındadırlar. Çoxdandır bura yerləşiblər. Bura da onların minalanmış sahəsidir, üstünə çıxmasınlar deyə ətrafına tikanlı məftil çəkiblər. Tikanlı məftillər sipərdən öncəki son maneədir. Biz buranı almaq üçün çox çalışmışıq, çoxdandır buradayıq. Bu bölgə böyük strateji əhəmiyyətə malikdir. İndiyədək üç mühəndis qrupu gedib minalanmış sahədə keçidlər açıb. Qüvvələrimizin təhlükəsiz şəkildə keçməsi üçün

keçidləri ağ lentlə nişanlamışdılar. Tikanlı məftillərlə sipərin arasında da cəmi yarım metr məsafə var.

Leytenant Aram nəfəsini dərib sözünə davam etdi:

- Bu bölgədə üç dəfə əməliyyatımız olub. Axırıncısı iyulda oldu, otuz-qırx nəfər əsir də tutduq. Ancaq mövqe çoxdandır onlarda olduğuna görə bölgə ilə tanış idilər, var gücləri bizə hücum etdilər. Çox güclü texnikaları var. Tank və zirehli maşınları ora doldurdular. Biz də bütün imkanlarımızı səfərbər etdik, amma müqavimət göstərə bilmədik. Geridən bizə nə ərzaq göndərə bilirdilər, nə silah-sursat. Əlimiz tamam boşalanda, günorta saat 3-də əmr olundu ki, geri çəkilək. Biz də buraya döndük.

O, bizə göstərdiyi iki xəttin, içində səngərimiz olan çay yatağının üstünə vurub əlavə etdi:

- Düşmən sipəri ilə aramızda 400-500 metr məsafə var. Bu ərazi də hamar və düşmənin görüş sahəsindədir. Bura da minadır. Hacı, indi gör tunel üçün ideyan nədir. Məsafəni diqqətdə saxla: 400-500 metr.

"Tunel, tunel..." – deyə dodaqaltı təkrarladım.

- Bu şpalları da Dəmir yolları şirkəti verdi, burada səngər düzəltdik, - deyə Aram başının üstündəki enli şalbanları göstərdi, sonra birdən mühüm bir şeyi xatırlamış kimi gözlərini sağa-sola döndərdi, bir-bir hamımıza baxıb əlavə etdi: - Bu mövqe, plan və tunel

kitaboxu.com

sirdir, heç kim bilməməlidir. Hacı etibarlı qüvvələr gətirib ki, biz də arxayın olaq.

- Bilirlər; onlara demişəm ki, buranın vəziyyəti sirdir, bu barədə heç kim heç nə bilməməlidir. Narahat olma. Bu cavanlardan yaxşı və mahir kankan tapa bilməzsən!

Əhməd soruşdu:

- Şəhidləri gətirmək üçün yeraltı tunel qazmalıyıq?

Aram cavab vermək istəyirdi, amma hacı onu qabaqladı:

- Yox; biz kömək etməliyik ki, bir tunel qazılsın, döyüşçülər də o sipərə qədər salamat şəkildə gedib düşməni qəfil yaxalasınlar, mövqeyi alsınlar və torpağımız özümüzə qayıtsın. Şəhid gətirmək məsələsi ondan ötrüydü ki, kənddə heç kim tuneldən xəbər tutmasın. Sabah vəziyyəti birlikdə araşdırarıq. Əgər təhlükəli olsa, seçim haqqınız var və kəndə qayıda bilərsiniz. Tunelin sirr kimi qalacağına da mən zəmanət verirəm.

Son cümləsini deyəndən sonra Aramın ayağının üstünə vurub bildirdi ki, səninləyəm. Sonra sipərlə çayın arasındakı qısa və dalğalı xətləri göstərib dedi:

- Bu, bizim işə başlamalı olduğumuz yerdir.

Udqunub bir neçə santimetr geri çəkildim. Mən cəbhəyə getmək yox, sadəcə özümü göstərmək istəyirdim. Kaş hamının yanında hacının əllərindən

kitaboxu.com

tutub deyə biləydim ki, sən Allah, məni geri qaytar, mən qələt eləmişəm. Siddiqənin könlünü bir yolla alaram. Qoy dayım da ömrünün axırına qədər gedib-gəlib mənə "fərsiz" desin. Hara olduğunu bilmədiyim bu çöllükdə ölmək istəmirəm!

- Sabah zonaya baxa bilərəm? – hacı dilləndi.

- Bəli, amma ehtiyatla və yalnız bir nəfər. Düşmən bizdə hərəkətlilik görməməli, burada tunel qazıldığınadan və ümumiyyətlə bir iş görüldüyündən şübhələnməməlidir.

- Yaxşı; tək mən olacağam, - hacı başını yelləyib dedi.

Aram planı səngərin yerindən götürə-götürə:

- Sən zonaya bax. Mən mühəndis komandasına deyəcəyəm ki, necə lazımdırsa, kömək etsinlər. İşə başlayanda da ehtiyacınız olanları yazıb gətirəcəyəm. İndi istirahət edin, - dedi, ayağa qalxandan sonra isə əlavə etdi: - İstirahət etməniz üçün üç səngər var. Üç qrupa bölünüb yata bilərsiniz.

Hacı və onun ardınca hamı ayağa qalxdı. Şərait yaranan kimi təklikdə hər şeyi hacıya deməli idim. Yəqin ki, başa düşər, qorxunun nə demək olduğunu bilərdi. Heç kimə də bir söz deməz, məni bir yolla buradan göndərərdi. Özü demişdi ki, seçim imkanı olacaq. Düzdür, uşaqlar qalmaq istəyirdilər, mənsə yox.

kitaboxu.com

Səngərin bayırında bölgü zamanı hacının yanında dayandım. Hacı əlini çiynimə qoyub dedi:

- Onda mən də bu ağa İlyasla və Əkbərlə balaca səngərə gedərik.

Yaxşı oldu. Əkbər bir iş üçün bayıra çıxan kimi hacı ilə tək qalacaqdım. Səngərlərdən uzaqda yerləşən səhra tualetini və su çənini göstərib bildirdilər ki, su az olduğuna görə minimum su ilə dəstəmaz almalı, qüsl lazım olduqda isə təyəmmüm almalıyıq. Çimmək də həftədə bir dəfəydi: çayda çiməcək və paltarlarımızı yuyacaqdıq. Bunları bizə bələdçilik edən əsgər dedi.

Uşaqlar dəstəmaz almaq üçün çən tərəfdə sıraya düzüldülər. Bizim səngərin önündə yerə ədyal sərdik və namazda hamımız hacıya iqtida etdik. Namazı necə qıldığımı bilmədim. Hacını, getməyimə icazə vermək üçün onu necə razı salacağımı düşünürdüm.

Namazdan sonra Hüseyn Aşura ziyarətnaməsi oxudu və tədricən bir neçə əsgər də bizə qoşuldu. Ziyarətnamədən sonra hacı dedi ki, hava yaxşıdır, mən bayırda yatacağam. Əkbər səngərə girdi, mən də ədyalın üstündə oturub digərlərinin getməsini gözlədim. Axırıncı adam qalxıb gedən kimi oturduğum yerdə hacıya tərəf sürüşdüm. Hacı ona yaxınlaşdığımı hiss edib mənə sarı döndü.

- Səmaya bax, İlyas. Heç kəhrizin içindən ulduzlara baxmışdın? Aşağıdan daha əzəmətli olur. Sayları az

kitaboxu.com

olanda qədirlərini daha yaxşı bilirik. Belə ovuc-ovuc səmaya doluşanda gözəlliklərini az hiss edirik. Bilirsən, biz kankanlar dünyanı fərqli şəkildə görməyi öyrənirik. Allah atana rəhmət eləsin, yaxşı kişi idi! Onu bir neçə dəfə görmüşdüm. Aşura mərasiminə Rüknabada gələrdi. Mən ondan çox balacaydım, amma üzü yaxşı yadımdadır.

Ağzım açıq qaldı. Hacı ilə söhbətə hansı cümlə ilə başlayacağım tamam yadımdan çıxdı. İstəyirdim elə danışım ki, qorxaq görünməyim, eyni zamanda qayıtmaq istədiyimi söyləyim.

- Allah rəhmət eləsin! O da kəhrizin dibindən baxdığın ulduz kimi idi. Bu atanın adının qiymətini bil. Sağ olsaydı, sənin də özünə görə artıq bir kişi olduğunu görərdi. Kişi olmusan və silah yerinə əlinə külüng götürüb bu torpaq üçün böyük bir iş görmək istəyirsən.

Bir söz deməyib udqundum. Deməyə sözüm də qalmamışdı. Hacı çiynimdən vurub:

- Cavanlığının qədrini bil. Bu cəsurluğunun qədrini bil. İndi bu torpağın ümidi sizlərədir.

Başımı elə yellədim ki, bu yelləmənin mənasını özüm də bilmədim. Hacı ədyalın üstündə uzandı, mən də yanında. Deməyə söz yox idi.

***

### Çay yatağının yuxarısı, 7 sentyabr, səhər

kitaboxu.com

Təpənin arxasında oturub leytenant Aramın yanındakı hacıya baxırdıq. Onlar Həmzə diviziyasının Mühəndis-istehkam bölməsindən gəlmiş kapitan Nəsiri ilə birlikdə irəli getmişdilər.

- Görünmürlər! – Əkbər dilləndi.

İraqlıları deyirdi. Uzaqdan tikanlı məftillər və böyük sipər görünürdü. Nə bir canlı vardı, nə kol-kos, nə ağac. Yəni bu yer boş qalmışdı ki, gizlənməyə heç bir sığınacağı olmasın.

Mən dinmir, nə təsdiq, nə də inkar edə bilirdim. Digərləri isə fikir bildirirdilər ki, yerin səthi necədir, nəyə ehtiyacları var, tuneli qazmağa çay yatağının içindən başlamaq lazımdır və sair.

Gözlərimi hacıdan çəkib aşağı sürüşdüm. Hacı, leytenant Aram və kapitan Nəsiri bir neçə dəqiqədən sonra qayıtdılar. Onların ardınca çay yatağına qayıdıb axşam planı incələdiyimiz böyük səngərə girdik. Ora komandir səngəri idi. Plan yenə yerə sərildi və hacı barmağı ilə bir yeri göstərib:

- Buradan otuz metr irəlidə elə bir tunel qazacağıq ki, qüvvələriniz ayaq üstə və silahla rahat yeriyə bilsinlər; deməli, iki metrə yaxın hündürlük istəyirik, təxminən bir metr də en, - dedi, şərti hündürlüyü əli ilə hamımızın başı üstündə göstərib əlavə etdi: - Qazıntının, külüngün səsi gəlməsin və partlayış olsa, tunelin tavanı uçmasın deyə yer səviyyəsindən tunelin

kitaboxu.com

tavanına qədər dördmetrlik məsafə dolu qalmalıdır. Tunelin öz hündürlüyü ilə birlikdə edəcək altı metr. Siz azı dördmetrlik bir təpə düzəltməlisiniz ki, biz işə başlaya bilək.

Kapitan Nəsiri başını yelləyib dedi:

- Sipər qurmaq üçün buldozer lazımdır.

- İşə başlayandan sonra daha nəyə ehtiyacımız olduğunu biləcəyik, - deyə hacı bildirdi. - Özümüz bir neçə qısa dəstəkli külüng və bir karbid lampası gətirmişik.

Mən hacının bunları gətirdiyini bilmirdim.

- Sənin işinə zaval yoxdur, hacı, - deyə Aram hacının çiyninə vurdu.

***

**Çay yatağı, 7 sentyabr, axşam**

Buldozer günəş batandan sonra işıqları sönmüş vəziyyətdə körpüdən keçib çay yatağına gəlmişdi. Uzaqdan səsi gələndə iraqlılar atəş açmağa başladılar. İri gül kimi qırmızı partlayışlar gecənin qaranlığında düzənliyi işıqlandırırdı. Buldozerin sürəti bizi gətirən pikapa nisbətən az idi. Mən mərmilərin birinin ona dəyəcəyindən qorxub həyəcanla baxırdım.

Buldozer çay yatağına girən kimi leytenant Aramla hacı sürücüyə doğru qaçdılar. Biz bəzi əsgərlərlə birgə dayanıb buldozerə baxırdıq. Kapitan Nəsiri də

kitaboxu.com

gəlmişdi. Buldozerin sipər qurmağa gələcəyini əsgərlərdən eşitmişdim. Tualet növbəsində bu haqda danışırdılar. Amma tuneldən xəbərləri yox idi. Biz Bəsic təşkilatından könüllü qüvvə adıyla aralarına qatıldığımıza görə bizi çox da sorğu-sual etmirdilər.

Buldozer yatağın yoxuşundan qalxanda hacı ilə kapitan Nəsiri qurulacaq sipərin yerini göstərmək üçün onun yanı ilə getməyə başladılar. Buldozerin səsi ucalan kimi iraqlıların atəşləri də başladı. Mən uşaqların yanında dayanmışdım.

- Görəsən vurmazlar?

Bunu özümdən asılı olmadan dedim. Heç kimin bilməsini istəmirdim, amma qorxurdum. Buldozer sürücüsünün yerinə mən qorxurdum. Əmindim ki, uşaqlar səsimi eşitdilər, amma heç kim bir söz demədi. Buldozerin işinə baxmaq üçün biz də onun ardınca qalxıb yoxuşun yuxarısında oturduq.

Atəş səsləri bir an da kəsilmirdi. Güllələr qaranlıqda buldozerin kuzovuna dəyib qaynaq qığılcımları kimi parıldayırdı. Qaranlıqda buldozerin bıçağının səsini ayırd edir, hərdən qığılcımların işığında yuxarı-aşağı getdiyini görürdüm. Birdən bıçaq yuxarıda qaldı.

- Vurdular!

Qaranlıqda bu sözü kimin qışqıraraq söylədiyini və kimi nəzərdə tutduğunu bilmədim. Əllərimi bir-birinə

kitaboxu.com

keçirib torpağın üstündə oturdum. Ürəyimdə deyirdim: “Hacı, yox! Sən Allah, yox!”

Hacı ilə kapitan Nəsiri bir nəfəri sürüyə-sürüyə enməyə başladılar. Arxalarındakı torpaq qanla islanıb palçıq olmuş, hər ikisinin bədəninə yapışmışdı. Hacı ağlaya-ağlaya dedi:

- Uşaqlar, qayıdın aşağı!

Sürücü idi. Buldozer işlək vəziyyətdə iraqlıların qarşısında qalmışdı və onlar hələ də atəş açırdılar. Aram sürünə-sürünə yuxarı qayıtdı, hacı sürücünün qanlı çiyinlərinin altından tutub aşağı çəkdi. Uşaqların iki-üçü sürücünü aparmağa kömək etdi, mənsə yerimdən tərpənmədim. Qanlı palçıqların yanında oturub qarşımda yaranmış hay-küyə baxırdım. Nə baş verdiyini qaranlıqda yaxşı görmürdüm. Yalnız bu qədər bildim ki, birinci briqadanın tibbi yardımçısı da gəlib buldozer sürücüsünün şəhid olduğunu təsdiqlədi.

Ayaqlarım keyimiş, hamının yanımdan nə vaxt getdiyini duymamışdım. Bir dəqiqədən sonra buldozerin səsi kəsildi və Aram açarla qayıtdı. Heç kim buldozeri idarə edə bilmirdi. Başqa bir sürücü gələnə qədər gözləmək lazımdı.

Heç kim işindən qalmırdı. Kapitan Nəsiri pikapla başqa bir sürücü göndərsinlər deyə Mühəndis-istehkam bölməsi ilə əlaqə saxlamışdı. Mən hələ yerimdən tərpənməmişdim. Hacı yenə yoxuşla qalxıb

kitaboxu.com

yanıma gəldi. Atəş səsləri azalmışdı. İraqlılar qaranlıqda buldozerin gedib, yoxsa qaldığını bilmirdilər. Səsi gəlmirdisə, sanki özü də yox idi.

- Gəl aşağı, - deyə hacı qolumdan tutub məni torpağın üstü ilə aşağı çəkdi.

Çay yatağının divarının yanında oturub qarşımdakı get-gəllərə baxmağa başladım. Qarşıdakı divarın naxışları ora-bura aparılan lampaların işığında canlanırdı; eynilə kəhrizdə karbid lampasının işığında külüng yerlərində əmələ gələn naxışlar kimi.

Bura da kəhrizə bənzəyirdi; hələ suya çatmamış bir kəhriz. Kəhriz quru idi və mən nə qədər irəliləyə biləcəyimi öyrənmək üçün onun ortasında tək qalmışdım. Mən bacarardım. Hansı işi bacarmasam da, külüngləməyi yaxşı bacarırdım. Vedrəni torpaqla doldurub sürüyə-sürüyə quyunun ağzına aparmağı, ipi çəkməyi, bəzən də “çək yuxarı” deyə qışqırmağı bacarırdım.

Əgər bu işləri bacarmasaydım, dayım məni özüylə işləməyə aparmazdı. Külüngümü gətirsəydim, bu divarlardakı qara cızıqları təmizləyib hamısını hamarladardım və daha işıqlıq və qaranlıqda mənə gülüb qorxaq olduğumu üzümə vura bilməzdilər.

Hay-küy yatmış, uşaqlar səngərlərinə getmişdilər. Haradansa Quran səsi gəlirdi. Kimsə qaranlıqda Quran oxuyub ağlayırdı. Görəsən bu, sürücü üçün idi? Nə

kitaboxu.com

oxuduğunu bilmirdim, oxuduğu ayələrdə nə deyildiyindən xəbərsiz idim, amma məni də ağlamaq tuturdu. Ritmi və hissi yadıma salırdı ki, bir neçə dəqiqə öncə burada bir nəfər torpağı və vətəni üçün canını vermişdir. Hansı ki, onun üzünü görməmişdim, neçə yaşının olduğunu, övladının olub-olmadığını bilmirdim.

Birdən hacının balaca qızı yadıma düşdü. Qumda qatara gecikdiyim gün evə çatan kimi atasının qucağına hoppanmış, atası tez gəldiyinə görə sevincindən atılıb-düşmüşdü. Bəs bu sürücünü neçə nəfər gözləyirdi? Bəs məni? Əgər bir gün məni bu sipərin üstündən aşağı sürüsələr və torpaq qanımla islansa, yolumu yalnız anam gözləyəcək? Görəsən Siddiqənin də gözləri yolda qalacaqmı?

Çay yatağını başqa bir pikapın səsi bürüdü. Maşın işıqları sönmüş vəziyyətdə enirdi. Ucadan danışıq səsləri gəldi. Yeni buldozer sürücüsü qabaqkı sürücü üçün bərkdən ağlayırdı. Qohumu imiş. Sonra qaranlıqda məni görmədən hacı, Aram və kapitan Nəsiri ilə birlikdə yanımdan keçib yatağın yuxarısına getdilər. Buldozer işə salınan kimi iraqlılar atəşə başladılar. Görəsən bu sürücü sükan arxasına keçməyə necə cürət etmişdi? Yəni cəsarət bu deməkdi? Mən heç vaxt cəsur ola bilməzdim!

***



kitaboxu.com

**Yeni tunelin girişi, 8 sentyabr, sübh tezdən**

Buldozer günəş çıxmadan getdi və nəhayət, səs-küy yatdı. Lakin bizim işimiz yeni başlayırdı. Artıq bir təpə düzəldilmişdi və biz tunel qazmağa başlaya bilərdik. Hacı səkkizimizi də cərgəyə düzüb dedi ki, iraqlılar bizi görməyə macal tapmasınlar deyə hava işıqlanmadan təpənin yanında olmalıyıq.

Əlimizdə külüng və lampa oturaq halda sipərin yanına getdik. Gecəni əsla yatmasam da, yorğun deyildim. Qorxur, bəlkə də, daha çox, həyəcanlanırdım. Bizi heç kim görmürdü və biz çox böyük bir iş görməli idik.

Yolda uzaqdan iraqlıların sipərinə baxdım. Çox uzaqda deyildi; yəni qazacağımız məsafə bir yeraltı su kanalından az idi. Leytenant Aram bizimlə gəlmişdi. Yanında iki əsgər də vardı. Hamımız təpənin yanında oturduq. Aram ətrafı araşdırıb dedi:

- Burada bir müşahidə səngəri düzəltməliyik. Bunu axşam edəcəyik. Torpaqlar üçün də bir şey fikirləşmək lazımdır. Sənə bir neçə əsgər də verəcəyəm.

Hacı razılıqla başını tərpətdi. Aram sanki özüylə danışırmış kimi dedi:

- Bir etibarlı adam da olmalıdır ki, əsgərlərin gəliş-gedişini yoxlasın.

O, geri qayıtdı, bizsə sipərin yanında qaldıq.

kitaboxu.com

Hava sərinləşmişdi. Uzaqdan quşların səsi gəlirdi. Sanki müharibə, qan və bütün düşmənlər yer üzündən məhv olmuşdu, yer və göy özlərinin mehriban, sakit və gülər üzlərinin də olduğunu göstərmək istəyirdilər.

Hacı təpənin bir hissəsini seçib Əkbərlə birlikdə külüngləyirdi.

- Bir neçə qısa belimiz var, amma azdır. Əl arabası da lazımdır, - hacı dedi.

Mən uşaqların yanında oturmuşdum. Hacı dedi:

- Biriniz gedib bunları gətirsin.

Mən uşaqlara baxdım. Əhmədlə Hüseyn ayağa qalxdılar. Mən də qalxa bilərdim. Çünki hər halda, cəmi bir nəfər gedəcəkdi.

- Hacı, mən gedim? – deyə soruşdum.

- Əhməd, sən gəl, buranı qaz. Özüm ağa İlyasla gedərəm.

kitaboxu.com

Dodağımı dişlədim. Yersiz dillənmiş dilimə lənət! Hacı əyilib hərəkətə başladı. Çay yatağına gedirdi. Mən də ardınca getdim. Gedəndə əyilmək olurdu; bəs qayıdanda nə edəcəkdik?! Çay yatağına çatan kimi işimizə yarayan bir şey varmı deyə anbara getdik. Əl arabası və bu kimi əşyalar yox idi.

- Sən get, leytenant Aramı tap, - hacı dedi, - de ki, bizim bunlara ehtiyacımız var. Mən də gedim, uşaqları geri göndərim. Bu gün işləyə bilməyəcəyik.

***

Hələ günorta olmamışdı. Hamımız yatağın kənarında torpağın üstündə oturub bizə yemək maşını ilə əsas düşərgədən alət gətirilməsini gözləyirdik.

- Əhməd, sənin müəllimlik imtahanının cavabı gəldi? – deyə Səməd soruşdu.

Əhməd başını yelləyib cavab verdi:

- Bura gələnə qədər gəlməmişdi. Əgər gəlsə, məktub yazıb xəbər verəcəklər.

- Məndə də həmçinin, - deyə Səməd başını tərpətdi.

- Siz ikiniz də müəllim olmaq istəyirsiniz? – deyə mən söhbətə qoşuldum.

- İmtahanını vermişik, - Səməd başını yelləyib cavab verdi. – Sən də bizimlə yaşıd olarsan. İmtahanda iştirak etmədin? Çətin deyildi. Müəllimlik yaxşıdır ha.

Niyə onlardan soruşdum ki?! Soruşmasan, səndən də soruşmazlar! Bu vacib qayda yadımdan çıxmışdı. İndi də bilmirdim Səmədə nə deyim.

- Bəs digərləri? – dedim.

- Bizdən böyükdürlər, - Əhməd cavab verdi. – Demədin axı...

Bir müddət bu uşaqlarla bir yerdə qalacaqdım. Söhbəti fırladıb cavab verməmək olmazdı. Dedim:

- Mən doqquzuncu sinfə qədər oxumuşam.

- Niyə?

- Atam öləndə balaca idim. Quyu başına uçmuşdu.

kitaboxu.com

Bilirdim ki, quyu heç kimin başına uçmur, amma bu yanlış ifadəni işlətməli idim. Quyu bir kankana məzardan başqa bir şey deyil. Boş bir çaladır. Başa uçan isə torpaqdır. O torpaq da bilmirəm mənim atama qarşı niyə belə rəhmsiz olmuşdu!

- Hə, bilirəm, - deyə Səməd başını buladı. – Atan quyuda qalanda Rüknabad kankanlarından da orada olub; mənim əmim də.

- Evin bütün xərcini mən vermirəm, - deyə sözümə davam etdim. – Anam çox zəhmət çəkir. İki inəyimiz və balaca bir torpağımız var, hərdən əkib-becəririk. Doqquzuncu sinfi bitirəndən sonra isə dayım dedi ki, daha bəsdir, bundan sonra xərcə köməkçi ol, əlavə yeyən yox. İstəyirdi ki, mən kişi olum.

"Əlavə yeyən" sözlərini deyəndə Əhmədlə Səmədə baxdım. Səməd baxırdı, üz ifadəsi əsla dəyişməmişdi. Dodağının üstündən yeni çıxmış bığı nə qalxdı, nə də endi. Əhmədsə gözlərini bərəldib dedi:

- Məgər neçə bacı-qardaşsınız?

- Təkcə mənəm.

- Bəs bir uşağın nə xərci ola bilər ki?! İstəsən, özüm kömək edərəm, attestat alarsan. Bunu indi hamı alır.

Doğru deyirdi. On birinci sinifdə oxuyan Siddiqə də doqquzuncu sinfə qədər oxumuş birinin həyat yoldaşı olmaq istəyərdimi? Yəqin ki, yox. Dayımın birinci kürəkəni də müəllim idi. Fatimə müəllimlə evlənmək

kitaboxu.com

istəyibsə, Siddiqə niyə istəməsin?! Sanki qarnımın bir hissəsi qoparılmış kimi özümü taqətsiz hiss etdim. Əlimi ürəyimin üstünə qoyub sıxdım. Niyə indiyə qədər bu barədə fikirləşməmişəm? Görəsən döyüşçü olmağım mənim üçün attestatı əvəz edə bilərdi?

- Uşaqlar, gəlin, - deyə hacının səsi söhbətimizi kəsdi.

Komandir səngərinə sarı qaçdıq. Hacı ədyalı kənara çəkib səngərin girişində dayanmışdı. Hamının gəlməsini gözlədi, səkkizinci adam da içəri girəndən sonra ədyalı buraxıb yerə sərilmiş planın yanında əyləşdi.

- Uşaqlar, dördünüz kəndə qayıdın, - deyə bir-bir hamımıza baxmağa başladı. – Mən araşdırdım. Birinci mərhələdə hamımıza ehtiyac yoxdur. Dörd nəfər qalsın, onlar yorulanda qayıtsın və o biri dörd nəfər gəlsin. Hazırlaşın, axşam gələn maşınla geri gedin, səhərki birinci qatarla da Əhvaza gedərsiniz.

Gedək?! Yəni mən də gedə bilərdim?! İstədiyim elə bu deyildimi: kəndə qayıdım, hamı da bilsin ki, mən cəbhəyə gedib döyüşçü olmuşam. Amma bu tezliyə? Çox az oldu axı. Görəsən bir neçə günlə döyüşçü sayılırdım?

- İndi ki özünüz seçmirsiniz, - deyə hacı dilləndi, - daha cavan olanlar indi qalsınlar, digərləri sonra gələrlər.



kitaboxu.com

- Beləsi daha yaxşıdır, hacı, - deyə Səməd başını yellədi. – Bizim hələ ki işimiz yoxdur, imtahanımızın cavabı da gəlməyib.

Əhməd də başını yelləyib razılığını bildirdi. Həsən dedi:

- Hacı, mən də qalmaq istəyirəm. Deyirsiniz ki, cavanlar qalsınlar. Axı mən də qocalmamışam!

- Cavanlara qoşulmaq istəyirsən? – deyə hacı güldü. – Sən də gələcəksən, darıxma. Məgər mən sizdən əl çəkərəm?!

Mən də qalacaqdım. Hacı belə istədi, mən də bir söz deyə bilmədim. Hamımız səngərdən çıxandan sonra Əkbər dedi:

- Gedək bir az ətrafı gəzək.

Mən, Səməd, Əhməd və Əkbər birlikdə yola düzəldik, hacı da digər dörd nəfəri yola salmağa getdi.

Mövsümi çaya doğru hərəkət edib bir az da aşağı endik, pərdə asıb səhra hamam və tualeti düzəldilən yeri də keçdik.

- Görəsən tunel işi nə vaxt bitər? – səs tonumun çox adi çıxmasına çalışaraq dedim.

- Məncə, buna müddət təyin etmək olmaz, - deyə Səməd bildirdi. – Görünür burada heç nə öz əlimizdə deyil.

kitaboxu.com

- Təbii ki, öz əlimizdədir, - deyə Əhməd yavaşca Səmədin kürəyinə vurdu. – Elə bilirsən, Səddamın əlindədir? Onun dərsini verəcəyik!

- Yoxsa sən də dərsini vermək istəyirsən? – deyə Əkbər gülməyə başladı.

- Bəs nə bilmişdin?!

- Dayan! – deyə bir səs bizi saxladı. – Hara?

Dördümüz də yerimizdə dayandıq. Dönüb yan tərəfdəki yoxuşa baxdım. Qalın bığı və qısa saqqalı olan ucaboy enlikürək bir kişi silahını bizə doğrultmuşdu.

- Ağalar piknikə təşrif buyururlar?

- Yox, gəzişirdik, - Əkbər hətta səsi belə titrəmədən kişiyə cavab verdi.

Kişi torpağın üstündən önümüzə atıldı. Dizləri yay kimi əyildi və dübbədüz qarşımızda dayandı.

- Başınızı aşağı salıb hara gəldi gedə bilməzsiniz! Siz Yəzddən gəlmiş könüllülərsiniz?

- Bəli.

Bunu mən dedim və cavab verəndə güclü olmağa çalışdım. Kişinin üzü güldü və bizə əl uzatdı.

- Ləhcə və geyiminizdən bəllidir. Mən Ərdəbildən çavuş Üçtəpəyəm.

Doğru deyirdi; əynimizdə hərbi forma yox idi, ləhcəmiz də yəzdli olduğumuzu car çəkirdi. Qolu güclü

idi, əl görüşəndə özümü möhkəm saxlamasaydım, onunla birlikdə yellənəcəkdim.

***

**Tunelin girişi, 9 sentyabr, səhər**

- Özüm eşitdim, - Səməd dedi, - dedilər ki, ordu idman klublarının beynəlxalq yarışlarında iki dəfə medal qazanıb.

- Dünən gördüyümüz Üçtəpə? – deyə soruşdum.

- Bazularını görmədin?! – Əhməd öz bazularına vurub dedi. - Hə, oydu. Deyirlər ki, nə qədər düşməni cəhənnəmə vasil edib. Bəxtəvər insandır! Həm də çox məzəlidir.

- Hekayələriniz qurtaranda o çuvalları torpaqla doldurarsınız, - deyə hacı bildirdi.

Biz dayanıb danışırdıq, hacı ilə Əkbərsə tunelin başlayacağı yerin bir hissəsini qazmışdı. Boş çuvallar yerdəydi. Biz təpənin arxasında görünmədiyimizə görə arxayın şəkildə onları doldurmalı idik. Mən birinci çuvalın ağzını açanda hacı əli ilə Əkbərin sağ tərəfini göstərib dedi:

- Ağa İlyas, gəl, Əkbər ağaya kömək elə, mən çuvalları hara düzməli olduğunuzu deyim.

kitaboxu.com

- Çuvallar nə üçündür? – deyə soruşub beli hacıdan aldım.

- Geri göndərəcəyik, bu torpaqlardan möhür düzəldəcəklər.

- Doğrudan?

Hacı gülməyə başlayıb dedi:

- Çuvalı niyə doldururlar? Səngər düzəltmək üçün. Bura bir müddət bizim evimiz olacaq. Ona görə də səngər lazımdır ki, yeyək, yataq, namaz qılaq.

Bellə torpağı qazmağa başladım. Gələndə alatoranlıq idi, iraqlılardan, səs-küy və atəşlərdən xəbər-ətər yox idi. Nahar yeməyinə çaya qayıtmalı idik. Əyilə-əyilə, bir yerdən sonra isə sürünə-sürünə getmək lazımdı.

Əkbər üst geyimini çıxarıb yerə atdı. Tər izi sinəsinə və kürək sümüyünün altına qədər gedirdi. Mənə də isti idi. O isə daha çox işləyib tərdən islanmışdı. Mən də köynəyimi çıxarıb Əkbərin köynəyinin üstünə qoydum. Birdən səhra tualetinin yanında atdığım köynək və atamın şəkli yadıma düşdü. Bu fikirlə özümdən xəbərsiz dayanıb Əkbərin bellməsinə baxırdım.

- Nə oldu? Səni elektrik cərəyanı vurdu?

- Yox, bir şey yadıma düşdü.

- Mənim də.

kitaboxu.com

Əkbərlə birlikdə xatırlayacaq ortaq bir şeyimiz yoxdu. Başımı yellədim, amma məqsədini qətiyyən anlamadığımı büruzə vermədim.

- Bir ağız oxu, İlyas, - deyə hacının səsi gəldi.

Dönüb hacıya baxdım. Torpaqla dolu ilk çuvalı belinə atıb şərq səmtindən təpənin ən sonuna qoymağa gedirdi. Üzü tər içindəydi.

- Nə oxuyum, hacı? – deyə soruşdum.

- Məhərrəmin birinci günü hüseyniyyədə oxuduğunuzu. Bəyəm əza dəstəsi ilə əzadarlığa getmirdin?! Orada nə oxuyurdunsa, burada da oxu. Ancaq heç kim onunla oxumasın, iraqlılar səsimizi eşidərlər. Yalnız özü oxusun; səsi çox da uca deyil.

Məhərrəmin birinci günü idi. Əkbər də bunu qəsd edirmiş; yəni məhərrəmlik başlayıb, bu gündən kəndin hüseyniyyəsini qaraya bürüyəcək, simvolik tabutu bəzəyəcək, ələmləri gətirib tabutun önünə qoyacaqlar.

Məhərrəmin birinci gününün mərsiyələrini yadıma saldım. Hüseyniyyədə nə oxuyurduq? Gözlərimi yumub özümü camaatın arasında, səsimin digər səslər içində itdiyi yerdə təsəvvür etdim. Burada isə tək olacaqdım. Hacı birinci gün mənim oxumamı istəyirsə, bəlkə, Aşuraya qədər bunu istəyəcək. Odur ki, qorxmamaq, həyəcanlanmamaq və səsimin titrəməməsi üçün həmin əza dəstəsinə qayıtmalıyam.

Başladım:

kitaboxu.com

Məhərrəmdir, yaxın qara öz başıza,
Ağlayın susuz ölən qardaşıza.
Olacaq Hüseyn şəhid, Zeynəb əsir,
Bu qəmdə siz qan qatın göz yaşıza.

Gözlərim yumulu idi. Bir nəfərin sinə vurduğunu eşitdim. Sonra bir səs xəbərdarlıq etdi: “Hacı demədi ki, səsinə səs verməyin?!”

Yavaş-yavaş gözlərimi aça bildim. Digərlərinə baxmağa qorxurdum. Düşünürdüm ki, onları görsəm, bütün sözlər yadımdan çıxar. Hacı beli Əkbərdən alıb yerində dayandı. Mən oxuyur, hacı da belləyə-belləyə ağlayırdı.

Çuvalları doldurduq. Hamımız tərdən islanmışdıq. Öncəki günlərdə işləmədiyimizə görə havanın istiliyini çox da hiss etməmişdik. Bu günsə isti nəfəsimizi kəsirdi. Mən işin ortalarında maykamı da soyundum. Əynimdə yalnız pambıq şort qalmışdı, o da tər içindəydi.

Hacı əlini gözlərinin üstünə qoyub göyə baxdı.

- Uşaqlar, günortadır, - dedi. – Məncə, namaz vaxtı gəlib. Gedək nahar və namaza, sonra gələrik. Bir-bir gedin ki, diqqət çəkməyəsiniz.

Hacıya yaxınlaşıb dedim:

- Mən bir az burada qalım, gələrəm.

Başını yelləyib bir söz demədi. Torpaq təpənin yuxarı hissəsində, onun kölgəsi altında oturub

kitaboxu.com

çuvallara söykənmək istəyirdim. Bir az tək qalmaq istəyirdim. Mən onlar kimi deyildim. Bu bir neçə gündə söz və hərəkətlərimdə həmişə onları yamsılamağa çalışmışdım. İndi hiss edirdim ki, ortada itmişəm, fərsiz və qorxaq olduğumu ifşa edəcəyimdən qorxurdum. Yalnız məni adam hesab etsinlər deyə bura gəlmişdim.

Ayaqlarımı torpağın üstünə uzadıb başımı çuvallara dayadım. Hava isti olsa da, kölgə sərin idi. Ayaqlarımı uzadan kimi ağrı damarlarımda dolaşmağa başladı. Daha yerimi dəyişməyə də halım qalmadı. Gözlərimi yumub qolumu onların üstünə qoydum.

Mən buradaydım, adı cəbhə olan torpağın üstündə. Düzdür, nə silah götürmüş, nə də düşmən görmüş olsam da, hər halda, bura qədər gəlmişdim. Bəlkə, bu, onu göstərirdi ki, mən daha fərsiz deyiləm. Amma yox... mən qayıtmaq istəyirəm. Hacı kimin məzuniyyətə getmək istədiyini soruşan kimi anamı bəhanə edib qayıdacağam. Bəlkə, hacı elə bilirdi ki, mən də bu cavanlar kimi cəsarətliyəm və burada qalmaq istəyirəm. Amma özüm bilirdim ki, belə deyil.

kitaboxu.com

# Dördüncü fəsil

**Tunel, 12 oktyabr, sübh çağı**

Hacı sübh demişdi ki, məktublarınızda bu həftə qayıdacağınızı qeyd edin. Mənsə yazmaq istəmirdim; qayıtmaq da istəmirdim. Burada olduğum müddətdə üç dəfə məktub göndərmişdim, anam da cavab yazmışdı. Anam yazıb-oxumağı bilmirdi. Məktubları, yəqin ki, ya Siddiqə yazırdı, ya Fatimə.

Axırıncı məktubda yazmışdı ki, Hacı İslamın oğlu gələn həftə Siddiqəyə elçi gedəcək. Bunu Siddiqəyə yazdırmışdı, yoxsa Fatiməyə? Anamın buna görə sevindiyi, yoxsa narahat olduğu məktubdan bilinmirdi. Kənddə elçilik kiçik məsələ deyildi. Elçiliyə qədər hər şey düşünülüb razılaşdırılır, elçilikdə də "hə" alırdılar və məsələ bitirdi.

Kəndə getmək istəmirəm. Bu tunelin işləri dünyanın sonunacan da uzansa, qalar, günümü orada keçirərəm.

kitaboxu.com

Burada özümə görə qədir-qiymətim var, əlimin altında bir neçə əsgər işləyir. Mən əmr edirəm ki, çıxarılan torpağı haraya yaysınlar. Bu gün də əl arabası enib-qalxanda sürüşməsin deyə tunelə şpalla münasib yol düzəltmək planım var.

Əhmədlə hacı tuneldəydi, Səmədlə Əkbərsə istirahət edirdi. Hacı tunelin daimi işçisi idi, bizsə 5 dəqiqədən bir yerimizi dəyişdirirdik. Tuneldə hava yox idi. Kəhrizdə müəyyən fasilələrlə lüklər qoyulur, içəri hava girir. Ancaq yenə də nasos lazım olur. Burada isə tunel kordur.

Səməd məktubunu yazıb qurtarandan sonra sübh çağı çıxarıb daşın üstünə qoyduğumuz paltarların üstünə qoydu. Məni görən kimi dedi:

- Məktubunu yazdın? Sabah gəlib aparacaqlar.

Başımı elə yellədim ki, cavabımın nə olduğunu bilməsin. Hacının sözünün üstünə heç kim söz demirdi. Amma mən bu dəfə onu dinləmək istəmir, kənd, Siddiqə və növbəti həftə barədə düşünməməyə çalışırdım. Kənddə mənim üçün hər şey bitmişdi. Dayım Hacı İslamın oğlunu qoyub məndən yapışan deyildi. O, elə bilir ki, mən həmişə əli ayağına dolaşan uşaq qalacağam. Mənimlə elə rəftar edir ki, kişi olum, amma bu rəftar məni kişi etməkdən keçib. Sanki mənə nifrət edir.

kitaboxu.com

Əhməd tuneldən çıxanda bizim kimi olmuşdu: əynində palçıqlı şort olan bir palçıq heykəl. Bir stəkan suyu birnəfəsə başına çəkdi. Əkbər ayağa qalxıb onu əvəzləmək istəyəndə Səməd dedi:

- Əhməd, məktubunu yazmısan?

- Yaxşı ki, yadıma saldın, - deyə yoxuşla qalxıb daşın üstündən paltarını götürdü, cibindən kağız və qələmini çıxarıb əlavə etdi: - Buranı nə vaxt düzəltmək istəyirsən, İlyas? Sürüşkənə dönüb.

- İndi düzəldərəm. Hələ bir az da sürüş, sonra.

Əl arabası ilə torpağı yuxarı qaldıran əsgər bir neçə dəfə aşağı sürüşdü, dəni götürmək üçün dəfələrlə cəhd edən qarışqa kimi yenə çıxmağa çalışdı.

- Bu yazıqlar sənin qədər deyinmirlər.

Əhməd mənə cavab verməyib yuxarı qalxdı. Birdən fit səsi gəldi, sonra da dünya silkələndi. Hamımız yerə yıxıldıq. Araba çevrildi, əsgər də yoxuşdan yerə yıxıldı. Mərminin bir parçası önümə düşmüşdü. İstilikdən qızarmışdı. “Əhməd!” – deyə qışqırdım.

Əhmədin dayandığı yerdə yalnız toz-torpaq vardı. Hacı ilə Əkbər tuneldən bayıra qaçdılar. Səməd də yoxuşla qalxmaq istəyirdi, amma toz-dumandan heç nə görünmürdü. Birdən tozun içindən bir qaraltının çıxdığını gördük. Toz yatır, Əhmədin arıq bədəni görünürdü.

kitaboxu.com

- Mən öldüm, - dedi. – Yox, mən şəhid oldum. Şəhid oldum, düzdür?

- Hə, şəhid oldun, - Səməd dedi, sonra gülüb əlavə etdi: – Hamımız şəhid olub cənnətə getmişik; özü də necə cənnət!

- Buranın mələkləri də kankanlardır? – Əhməd bizi başdan ayağa süzüb dedi. – Heç olmasa, hamama gedəydiniz; bütün palçığın içindəsiniz.

Hacı gülüb dedi:

- Hara getsən, budur, Əhməd. Görürsən?! Sənin işin ancaq kəhriz və kankanladır; həm bu dünyada, həm o dünyada.

- Heyif ki, şəhid olmadın, Əhməd, - dedim.

- Hə, heyif, yenə sizə dözməli olacağam, - deyə Əhməd gülüb yerdə oturdu.

- Bu şpallar niyə belə səpələnib, ağa İlyas? – hacı ətrafa baxıb dedi.

- Bu gün bitirəcəyik, hacı.

- Tələs. Getməzdən qabaq bunları tamamlamaq lazımdır.

- Sən məzuniyyətə getmirsən, hacı? – deyə Əkbər ona baxdı.

Hacı ucadan “yox” deyib tunelə girdi, Əkbər də onun ardınca. Növbəmi gözləməli idim. Şpallara baxdım. Hövsələm yox idi. Əkbər çıxan kimi tunelə girdim.

kitaboxu.com

- Mənim növbəmdir, - Səməd dedi.

- Qoy mən girim, sonra şpallarla məşğul olacağam.

Tunel qaranlıq idi. Cəmi 20-30 metr irəliləmişdik. Hacının gətirdiyi və tunelin axırında yanan karbid lampasının işığından başqa bir şey görünmürdü. Qısa dəstəkli külüng və boş araba hacının arxasında idi. Sakitcə orada dayandım. Yəqin ki, mənim sərsəri ruh kimi ona baxdığımı hiss edib soruşdu:

- Nə olub, ağa İlyas? Məlun Səddam Hüseyn körfəzdəki neft tankerlərini vurub?

- Hacı, mən qayıtmaq istəmirəm.

- Niyə? – deyə karbid lampasını qaldırıb üzümə baxdı.

- İstəmirəm də; qalmaq istəyirəm.

- Yorulmusan, ağa İlyas. Get məzuniyyətə, bir az enerji topla, sonra gələrsən.

- Yox, hacı, mən nə etmişəm ki, yorulam?!

- Yox, sən o birilərdən çox işləmisən. Mən hamınıza fikir verirəm. Sənin mühəndislik qabiliyyətin çox yaxşıdır. Müşahidə səngərinin yeri və tunelin giriş yolu sənin ideyan idi, əsas əziyyətini də özün çəkdin. Yeni qüvvələr də bayırda bir istirahət səngəri düzəltsələr, yaxşı olar. Əlbəttə, əgər şpal işlərini bitirsən. Şpallar sənin işindir.

- Onda qalım, hacı. Hələ çox iş var.

kitaboxu.com

- Başqa bir məsələ var, eləmi? – deyə hacı lampanı endirib-qaldırdı.

- Yox, hacı.

- Yaxşı, qal. Mən Allah yolunda çalışanı zorla evinə göndərə bilmərəm. Amma anana məktub yaz ki, nigaran qalmasın.

- Yaxşı, hacı, - deyə gülümsədim.

- Siz uşaqlar varsınız ha! – başını yelləyib dedi.

Arabanı torpaqla doldurub bayıra sürdüm. Səməd boş bir araba ilə tunelə girdi və əsgər arabanı yoxuşdan qaldırmağa gəldi. Əhməd məktubunu yazıb bitirmişdi. Onu paltarlarının üstünə qoyanda dedim:

- Qələmini ver, mən də yazım.

***

**Çay yatağı, 17 oktyabr, sübh tezdən**

Hacı və mən qalmışdıq. Uşaqlar dünən getmişdilər, o biri qrup da hələ gəlməmişdi. Leytenant Aram demişdi ki, qatar biletləri bitibmiş və onların gəlişi bir neçə gün gecikə bilər. Biz ikimiz öndəydik, üç əsgər də arxamızda. Çayın yoxuşu ilə qalxdıq. Heç kimin tuneldən xəbər tutmaması üçün təhlükəsizlik tədbirləri artmışdı. Çay yatağından yuxarı qalxan, bizim hər gün getdiyimiz və tunelin göründüyü yolun daimi qarovulu vardı; tunelə sarı getmək istəyən hər kəs əvvəlcə onun postundan keçməli idi.

kitaboxu.com

Üzüaşağı enəndə Əbu Şərifin balaca səngərində oturub Quran oxuduğunu gördük. O, həkim asistenti idi, Tehrandan göndərilmişdi. Soyadı Məhəmmədxani idi, amma biz görəndən ona Əbu Şərif deyirdilər. Bu, bəlkə də, saqqalına görəydi. Ərəb qəbilə şeyxləri kimi uzun saqqalı vardı. Çəfiyə şalını da elə bağlayırdı ki, saqqalına yaraşırdı. Bizi görən kimi Quranı çuvallardan birinin üstünə qoyub yaxınlaşdı və silahını qaldırdı.

- Dayan!

- Əbu Şərif, yenə "dayan"?! – deyə hacı güldü.

- Dayan!

Heç kimlə zarafatı yox idi, işini çox gözəl şəkildə yerinə yetirirdi. Bu yarımçıq tunel sanki yeganə keşikçisi o olan bir ölkə idi, can-başla onu qorumağa çalışırdı.

Dayandıq. Əbu Şərif yaxınlaşıb günəşin doğuşuna yaxın cansız səmadan gələn zəif işıq altında üzlərimizə baxdı, keçək deyə silahı ilə hacıyla mənə işarə verdi, əsgərləri isə saxladı. Adlarını soruşdu və onları hərbi salam verməyə məcbur etdi.

- Çin səddini keçdik, - əsgərlərə keçid icazəsi verəndən sonra onların biri yavaşca dedi.

Bu gün şpal işini bitirməli idim. Bir dəfə yağış yağmış, giriş hissə bataqlığa dönmüşdü. Növbəti yağış yağmadan oranı düzəltməli idim ki, arabaları rahat



kitaboxu.com

endirib-qaldırsınlar və girişdəki torpaqları uzaqlaşdırsınlar. Torpaqların həcmi çoxalmışdı, bilirdim ki, hacı bu problemi necə həll etməyi düşünür.

- Azdanışan olmusan, İlyas!

- Mən, hacı?!

Bunu deyəndə tunelin önünə çatmışdıq.

- Dostların getdilər, tək qaldın. Mən dostun olmamışam hələ.

- Siz bizim böyüyümüzsünüz.

Üçüncü dəfəydi bu cümlədən istifadə edirdim. Onu Əhməddən öyrənmişdim.

- Arabanı gətir, - hacı tunelə girib dedi.

Onun ardınca tunelə girdim. Ancaq o, irəli getməmiş, bir neçə metrdən sonra divara söykənmişdi. Yanında dayandım.

- Demək istəmirsən ki, niyə məzuniyyətə getmədin? Kənddə kimdənsə küsməmisən?

- Yox, hacı; mən hara, küsmək hara! Mən kiminlə dostam ki, küsəm də.

- Sən yaxşı oğlansan, yəqin ki, dostların da özün kimidirlər. Sən küsəyən də deyilsən. Amma neçə gündür, məktub yazıb qayıdacağınızı bildirin dediyim gündən birtəhər olmusan. Kənddən gələn axırıncı məktubda nəsə yazmışdılar? Mənə hər şeyi söyləməni istəmirəm, amma bil ki, səndən ötrü narahatam.

kitaboxu.com

Divara söykəndiyim halda belimi aşağı sürüşdürüb oturdum. Qaranlıqda həll olmaq, sonra ürəyimdəkilərin hamısının havada səslənib cümləyə çevrilməsini və hacıya çatmasını istəyirdim. Hacı sakit dayanmışdı, hərəkət etmirdi. Bilirdim ki, diqqətlə dinləyir. Mən onun üçün "ağa İlyas" idim. Qaranlıqda mənim ürək sözlərimi eşitmək üçün işi saxlamışdı, mənsə boğulurdum.

Hacı yanımda oturub:

- Həyat yaxşı arabadır; ona minmək, onu düzgün idarə etmək lazımdır. Bunu etsən, ona minməkdən həzz ala bilərsən, amma düzgün idarə etməsən, həmin araba təkərləri ilə üstündən keçər, səndə salamat sümük qoymaz, - dedi, sonra əlini çiynimə qoyub əlavə etdi: - Sən çox bacarıqlısan, İlyas. Sənin bacardığın işləri mən çox cavanda görmürəm. Odur ki, sən bu problemin, kədərin, ya da narahatlığın öhdəsindən gələcəksən.

- Yox, hacı, mən əsla düşündüyünüz kimi deyiləm!

- Eləsən; əminəm ki, eləsən, - deyə çiynimi sıxdı. – Mən insanşünasam. Nə vaxt dərdləşmək, ya da kömək istəsən, mən varam.

- Hacı, mən bunu heç kimə deyə bilmirəm. Desəm də, faydası yoxdur, yəni iş işdən keçib. Hacı, mən günah eləmişəm, böyük günah.

- Tövbə edərsən, bitər.

kitaboxu.com

- Bacarmıram, hacı. Həmişə yadımdadır. Nə vaxt bağçamız yadıma düşürsə, dayım qızı oradadır. Həddi-büluğdan sonra onunla danışmamışam, amma... amma hacı, mən onunla evlənmək istəyirdim. İstəyirdim ki, məni ciddiyə alsın, atasının dediyi qədər fərsiz olmadığımı bilsin. Amma indi nə faydası?!

- Kim deyir ki, sən fərsizsən?! Sən olmasaydın, bu tunelin işləri axsayardı. Sonra da, bu dediklərində günah olan nədir?

- Budur ki, mən dayım qızını sevirəm. Dayım da həmişə deyir ki, sən heç bir işə yaramırsan.

- Mən dayınla danışaram.

- Xeyri yoxdur.

Hacı mənə tərəf dönmüşdü. Ağır baxışlarını hiss edirdim.

- Niyə? Nə olub ki?

- Evlənib.

Hacı bir söz demədi. Mən də bir neçə dəqiqə dinmədim. Hiss edirdim ki, davam etsəm, qızarmış üzüm yanmağa başlayacaq. Bir neçə dəfə dərin nəfəs aldım. Gözlərimin göynərtisini azaltmağa çalışırdım. Tunelin ortasında ağlamamalı idim.

- Anam məktubda yazmışdı ki, ona elçi gələcək.

- Elçilik evlənməkdən başqa bir şeydir.

- Fərqi yoxdur, hacı, - deyə-deyə nəfəsimi də bayıra buraxdım. – Əgər "hə" alacaqlarını bilməsəydilər,

kitaboxu.com

gəlməzdilər. Hər şey bitdi. Mən Siddiqəyə görə cəbhəyə gəlmişdim, istəyirdim ki, məni adam saysın, amma...

- Dünyanın axırı gəlməyib ki! Əgər evləndiyinə əminsənsə, daha onun barəsində fikirləşmə. Qalx ayağa. Sənin çox böyük işlərin var.

Hacı ayağa qalxdı, qarşımdakı arabanı elə qaldırdı ki, dəstəkləri özünə tərəf qalsın.

- Qalx, şpallar səni gözləyir. Qalx! Əbu Şərif gəlsə, deyəcək ki, bu əsgərlər niyə işləmirlər? Onları cəzalandırsa, sənin üzündən olacaq. Yazıqdırlar.

Bunu deyib güldü. Hacının gülüşü üzümün qızartısını azaltdı. Kaş orada qaranlıqda qalaydım və hacı mənim üçün yenə güləydi!

***

**Çay yatağı, 18 oktyabr, axşam**

Hələ yeni qüvvələr gəlməmişdilər. Bu gün tunelə getməmişdik. Çoxlu torpaq yığılmışdı, hacı israrla bildirirdi ki, belə getsə, iraqlılar bizi görə bilərlər. Torpaqları daşımalı idilər ki, yenə işləməyə yer açılsın.

Mən səngərdə uzanmışdım, hacı isə işlərinin ardınca getmişdi. O torpaqları necə yoxa çıxaracaqlarını bilmirdim. Günbatan çağı gəlib dedi:

kitaboxu.com

- Qalx! Nə qədər ki, hava qaralmayıb, gedək, tunelin qırağını da boşaldaq, bütün torpaqları bir yerdə aparsınlar.

- Hacı, biz niyə?! Bu, əsgərlərin işidir.

Hacı gözlərini bərəltdi; yəni özünü yığışdır, kim olduğunu sanırsan?!

Hacının ardınca oturaq halda tunelə getdik. Göy üzü qürub qızartısından alova dönəndə biz bellə torpaqları yuxarı atmağa başladıq. Hacı tunelin girişində kənara düşmüş şpalları göstərib dedi:

- Bunları niyə işlətməmisən?

Bir neçəsini aşağı hissədə çox qısa pillələrlə yol kimi düzmüşdüm, qalanı isə qalmışdı.

- Hacı, səngər üçündür, - dedim. – Qalanı da yuxarıya lazım olacaq. Gözləyirdim ki, torpaqları aparsınlar.

Yoxuşun yuxarısı sanki su ilə yuyulub sürüşkən olmuşdu. Hacı əlində bel şpallarla yuxarı qalxdı.

- Onda tez ol. O tərəfə tökək ki, buldozer apara bilsin.

Buldozer... Yerimdə donub qaldım. Şəhid olmuş buldozer sürücüsü gözlərim önündə canlandı.

- Hacı, buldozer?!

Hacı yuxarı qalxıb əyilə-əyilə torpaqları uzağa atırdı. İraqlılar görməsinlər deyə belini əyri saxlamışdı. Yuxarı ona kömək etməyə getdim. Buldozer sürücüsü

kitaboxu.com

yadımdan çıxmırdı. Qabaqkı sürücünün necə şəhid olduğu təkcə mənim yadımda qalmamışdı, bunu, yəqin ki, digərləri də xatırlayırdılar. İndi də başqa bir sürücü gəlirdi. Yəni sürücünün həyatı yenə qəza-qədər və duanın ümidinə buraxılacaq?!

- Yatmayasan ha, - hacı dedi.

Belləməyə başladım. Qaranlıq hər tərəfi bürüyür, artıq göz gözü görmürdü. Tunelin girişini mümkün qədər açıb qaranlıqda geri qayıtdıq. Hacı yenə məni səngərdə tək qoydu. Mənsə tək qala bilmir, kiminləsə danışmaq istəyirdim. Deməli idim ki, bəs bu buldozerin sürücüsü də şəhid olsa, necə olacaq? Ailə-uşağı nə edəcək? Hacının gecə evində uşaqlarına nağıl danışması yadıma düşdü. Onda körpəsinin yan otaqda ağlamaq səsini də eşitmişdim. Hacı özü uşaqlarını düşünməlidir. Deməli, sürücünün uşaqlarını da düşünməlidir.

Səngərlərin arasında yola düzəldim. Hacıya çatmaq istəyirdim. Səngərlərin qapısından bayıra düşən zəif işıqlar altında gedirdim. Başımı içəri salıb soruşurdum, amma hacı yox idi.

- Dayan!

Yerimdə qaldım.

- Hara gedirsən?

Qaranlıqda mənə yaxınlaşan silahın parlaq lüləsini, sonra da Əbu Şərifin üzünü gördüm.

kitaboxu.com

- Mənəm, Əbu Şərif!

- Özüm bilirəm kimsən. Başını aşağı salıb hara gedirsən? – silahını endirmədən dedi.

- Əbu Şərif, sən ananın canı, bunu o tərəfə tut, - deyə silahı göstərdim.

- Anamın canıdır; bu zonanın təhlükəsizliyi mənim namusumdur.

Əbu Şərif indi də mənə ilişmişdi. Səngərinin yanında oturdum.

- Niyə oturdun?

- Səni görməyə gəlmişəm.

- Üzlü uşaqsan, - deyə güldü və silahını endirdi.

- Hacı hanı?

- Bilmirəm.

- Onu axtarıram. Bu axşam buldozer gələcək.

- Bilirəm.

- Amma...

Demək istədim ki, sürücü necə olacaq, amma demədim.

- Bu gecə ay yoxdur, - Əbu Şərif dedi, - işıq da azdır. Belə yaxşıdır.

Elə bu?! Elə bu üstünlüklə buldozer işləyəcəkdi?

- Hacı gəldi, - deyə Əbu Şərif qaranlıq tərəfi göstərdi.

O qaranlıqda hacını necə ayırd etdiyini bilmədim. Dönüb gözlərimi onun üzünə dikdim.

kitaboxu.com

- Bu qaranlıqda hacını tanıyırsan, amma mənə silah tuşlayırsan?!

- Hər yerin öz qanunu var, - deyə güldü, ağ dişləri qaranlıqda parıldadı.

Hacı bizə çatıb dedi:

- Əbu Şərif, buldozer o tərəfdən gedir. Plan dəyişdi.

Əbu Şərif razılıqla başını tərpətdi.

- Sən buradasan? – hacı mənə baxıb dedi. – Mən də səni axtarırdım. Gəl, gedək o tərəfə. İndi buldozer gələcək. Haraya qədər irəliləyəcəyini ona deməliyəm.

Qalxıb hacının ardınca qaçdım.

- Hacı, bir şey də var...

- Nə? – deyə dayandı.

Bütün qorxularımı bayraq kimi göyə qaldırıb car çəkməli idim ki, hacı, mən sizin hamınızdan qorxağam; birdən sürücünün başına bir iş gələr!

Heç nə demədim.

- Sözünü udma, - hacı dedi.

- Heç nə, - deyə bir addım irəlilədim. - Gedək.

- De, ağa İlyas, - deyə hacı qolumdan tutdu.

- Hacı, birdən onu vursalar?..

- Buldozer sürücüsünü deyirsən?

Başa düşdüm ki, hacı bu barədə düşünüb. Dedi:

- Briqada komandiri polkovnik Süleymancah kreativ bir şey düşünüb, ona görə problem olmayacaq. Sənə demədim ki, sürpriz olsun və iraqlılara güləsən.

kitaboxu.com

Gözlərim bərəldi.

- Doğrudan?!

- Bəs necə?! Bizi elə-belə adam bilirsən? – deyib yola düzəldi, mən də onun arxasınca yeyinlədim.

- Hacı, mən elə bilirdim ki, sürücünü düşünürəmsə, qabaqkı sürücü kimi vurulacağından qorxuramsa, deməli, çox qorxağam.

Hacı yeriyə-yeriyə cavabımı verdi:

- Qorxaq nədir? Allah ağıl verib ki, istifadə edək. Salamat bədənimizi boşuna güllə qabağına verməli deyilik ki! Gəl... tez gəl. Biz bu qədər əziyyətlə tuneli də uşaqların canını qorumaq üçün qazırıq. Xəndək döyüşündə olduğu kimi, bir hərbi taktikadır. O da bir iranlının döyüş taktikası idi.

Hacı çay yatağının yoxuşuyla qalxıb divarın dibində düzəldilmiş bir səngərin damına yaxın yerdə oturdu.

- İndi gözləməliyik.

- Hacı, uşaqların üçün darıxmırsan? – deyə özümü ona yaxınlaşdırdım.

- Niyə?! Çox darıxıram onlar üçün.

- Bəs niyə özün məzuniyyətə getmədin?

- Bu iş bitməlidir, cavan. Tunel bitməyincə buradan gedən deyiləm, - dedi, sonra ayağının altından bir ovuc torpaq götürüb əlavə etdi: - Bax, bu torpaq mənəm. Məgər canımın parçasını – bu torpağı qoyub gedə bilərəm?! Yox!

kitaboxu.com

- Amma yaralansanız...

- Bilirsən, ağa İlyas... bir iş görülməlidirsə və mən onu görə bilirəmsə, deməli, qalmalıyam. Qalıb həm bu torpaq olan özümü qorumalıyam, həm də bu torpaqla yaşamalıyam. Mən İran torpaqlarının harasından olsa, - Yəzd, Qum, bura – hər zərrəsi ilə nəfəs alıram.

Ağzımı açmaq istəyəndə birdən bütün çöl "Allahu əkbər" səsi ilə doldu. Sanki hacının dediyi bütün torpaqlar birlikdə dil açıb təkbir deyirdi.

- Buldozer gəldi, - deyə hacı çiynimə vurdu.

"Allahu əkbər" səsləri altında uzaqdan bizə doğru yaxınlaşan buldozerin səsini eşitdim. Sonra təkbir səsi kəsildi, hər tərəfi buldozer səsi bürüdü. Sanki buldozer çay yatağına çatmazdan öncə buldozerlər diviziyasına çevrilmişdi.

- Hacı, neçə ədəddir?

- Nə?

- Buldozerlər.

- Bir dənədir, oğlan, - başını yelləyib dedi, - səsucaldan çoxdur.

- Səsucaldan, - deyə dodaqaltı təkrarladım.

İrqlıların atəş səsləri də gəldi. Qaranlıqda hara gəldi atəş açırdılar. Onlar üçün ətrafda min buldozer vardı, bizim tunelimiz üçün isə bir.

Buldozer çay yatağından keçib tunelə sarı getdi. Torpağı yaymaq işi çox asanlıqla baş tutdu. İraqlılar

kitaboxu.com

çaş-baş qalıb qaranlıqda atəş açır, buldozerin harada olduğunu bilmirdilər. Yaxşı kələk gəlmişdilər, yaxşı!

***

**Tunelin girişi, 27 oktyabr, günortaya yaxın**

Raket səsi gələndə tunelin girişindən bayıra atıldım. Qopan toz-torpaq arasında hacının səsi gəldi:

- Hamı salamatdır?

Üzüm torpağa bələşmişdi, ağzımın içindəki torpağı tüpürməyə çalışırdım. Yalnız ondan sonra başımı çevirib uşaqlara baxa bildim. Yeni qrup bir həftəydi gəlmişdi. Ayağa qalxıb əsgərlərin yanına getdim. Üzüaşağı hissəni bərkitmiş şpalların üstündə oturmuşdular. Bir baxışla gördüm ki, hamısı oradadır; iki araba da aşağı düşüb və birinin küncü qızarıb. Arabanın yanına üçgünc bir qəlpə düşmüşdü. Birdən Əkbər qışqırdı:

- Hacı, Həsən yoxdur!

- Heç kim yerindən tərpənməsin, - hacı dedi.

- Mən gedib baxaram, hacı, - səngərdəki əsgər dedi.

- Yox, özüm gedirəm. Hamı burada qalsın, sən də orada, - deyə barmağı ilə ona səngəri göstərdi.

Yeni qrup gələndə köməkləşib tunelin girişinin yuxarısında, düşmənin gözündən uzaq yerdə bir müşahidə səngəri düzəltmişdik. Səngərin üstünə şpal, şpalların üstünə isə çuval düzmüş, seçilməsin deyə

kitaboxu.com

çuvalların üstünə də torpaq tökmüşdük. Səngərin üç tərəfində dəlik vardı və əsgərlər səhərdən axşama qədər növbə ilə oradan ətrafı müşahidə edirdilər. Qərara gəlmişdik ki, bu həftə tunelin girişindəki çökəkdə bir istirahət səngəri də düzəldək. Hava sərinləşir, payız yağıntıları başlayırdı. Qazıntının sürətini azaltmaq olmazdı.

Tuneldən çıxıb yuxarı qalxanda hacını gördük. Qaz yerişi ilə yeriyir, Həsəni arxasınca sürüyürdü. Həsənin bir ayağı qandan islanmışdı. Şalvarı dizin aşağısından cırılmışdı, süründükcə yerdə qan iz qalırdı.

- Başına yığışmayın, - hacı dedi, - gərək hava alsın.

Həsənin üz cizgilərindən bilinirdi ki, zarımasın deyə özünü zorla saxlayır.

- Mən yaxşıyam, - dedi. – Məncə, bir şey deyil. Hacının qolu da...

- Dedim ki, kənara çəkilin, - deyə hacı Həsənin sözünü kəsdi. – İşinizin başına dönün, sonra Həsəni geriyə apararıq.

Həsənə doğru əyilib ayağına baxdım. Dedim:

- Hacı, yaranın yuxarısından bağlayım? Qanaxmanı azaltmaq üçün.

- Yaxşı, - deyib getdi.

Əsgərlərin biri başım üstə gəlib dedi:

- Şalvarını cır.

kitaboxu.com

Digərləri dağılışdı, əsgərlə mən qaldıq. Hacı tunelə girmişdi.

- Çox dərin deyil, - əsgər yaraya baxıb dedi.

- Hə, - deyə Həsən başını yellədi. – Hacının köynəyinin qolu da qanlı idi. Ona da baxarsan.

- Hacının qolu?! – deyə dönüb arxama baxdım. – Bəs niyə tunelə girdi? – sonra isə üzümü əsgərə tutub əlavə etdim: - Ayağını bağlayarsan?

- Bəli, - deyə razılıqla başını tərpətdi. – Bəlkə, özü hiss etməyib. Bədən isti olduğu üçün bəzən qəlpəni hiss etmir.

Ayağa qalxıb tunelə girdim. Əli dolu araba ilə tuneldən çıxırdı. Girişdən bir neçə metr sonra tunelin eni cəmi bir metr olurdu, bir nəfərin əl arabası ilə keçəcəyi qədər. Daldalı gedib ona yol açdım, sonra qaranlıqda irəliləməyə başladım. Hacı tunelin sonunda külünglə torpaq qazırdı. Karbid lampasının işığında köynəyinin qolunun qanlı olduğu və qanın tərlə kürəyinə doğru yayıldığı görünürdü. Lampanı yerdən götürüb qaldırdım. Hacı işığın yerinin dəyişdiyini hiss edib döndü və mənə baxıb:

- Sən burada neyləyirsən? – dedi. – Həsən necədir?

- Hacı, qolun!

Hacı qolunu divardan çəkib baxdı.

- Bu niyə qanlıdır?

kitaboxu.com

- Yəqin, qəlpə dəyib. Qoy baxım, - deyə lampanı yaxınlaşdırdım.

Yaranın yeri bilinirdi. Köynəyinin qolunu qaldırmaq istəyəndə tez geri çəkildi. Qolunun göynərtisini indi hiss edirdi.

- Hacı, sən Həsənlə geri get. Biz burdayıq, - dedim.

- Ciddi bir şey olduğunu sanmıram, - deyə gülümsədi. – Yəqin, siyirib.

Əlimi uzatdım. Külüngü ondan almaq istəyirdim.

- Qoy mən qalım. Bu qədər bizi geri göndərirsən, bir gün də özün get. Birdən qolun irinləyər.

- Yaxşı, ağa İlyas, - deyə qolunu irəli uzadıb bazusunun arxasına baxmağa çalışdı.

Külüngü aldım. Əlini çiynimə qoyub tuneldən çıxdı. Külüngləməyə başladım, sonra güldüm. Ucadan yox, yavaşca. Bizdən birinə qəlpə dəydiyinə, ya da hacının yaralandığına görə sevinmirdim; qorxmadığıma görə sevinirdim; hacının, işini davam etdirim deyə əlindəki külüngü mənə verib getdiyinə görə sevinirdim. Fikirləşirdim ki, böyümüşəm, önəmli adam olmuşam, hacı məni çox ciddiyə alıb tuneli tapşırır.

Yarım saat külünglə işləyəndən sonra nəfəsim çatmadı. Əkbər məni əvəzlədi və mən bayıra çıxdım. Bəs hacı burada dayanmadan necə işləyirdi? Hacı, Həsən, Hüseyn və əsgərlərin ikisi geri getmişdi. Günbatan çağı hamımız çay yatağına qayıdana qədər

kitaboxu.com

onlardan xəbərimiz olmadı. Şam yeməyinə geri qayıdanda hacının qolunun sarındığını gördüm. Həsəni isə yardım maşını ilə şəhərə göndərmişdilər. O, xəstəxanada müalicə olunmalı idi.

Axşam səngərin önündə yerdə oturub ulduzlara baxırdıq. Hacı torpaq üstə uzanmışdı, bizsə oturmuşduq. Əli dedi:

- Allah eləsin, Həsənə bir şey olmasın!

- Halı yaxşı idi, - deyə Hüseyn bildirdi. – Özü getmək istəmirdi, leytenant zorla göndərdi.

- Sən necəsən, hacı? – Əli soruşdu.

- Əəəla! – hacı dedi.

Əkbər söhbətə qoşuldu:

- Hacı, yadındadır, bir dəfə atan sarıqlı qolla şəbihgərdan olmuşdu?

Şəbih... Mən Rüknabadın şəbih tamaşalarını görmüşdüm. Balaca olanda Tasua və Aşura günlərində gedib baxırdıq. "Abbas" və "Şəhadət" şəbihlərini çox sevirdik.

- Hacı, atan şəbihgərdan olub? Yəni mən onu görmüşəm? – deyə soruşdum.

- Bəli, - hacı dedi.

Hamı hacının atasını tərifləyib necə yaxşı oxuduğundan, mərifətli insan olduğundan və hamının ona hörmət etdiyindən danışdı. Sonra mənim yadıma bir xatirə düşdü, onu danışmaq istədim, amma bir az

kitaboxu.com

tərəddüd etdim. Əvvəllər olsaydı, utanıb danışmazdım, indi isə birdən məclisi ələ aldım:

- Mən dostumla birlikdə Rüknabada şəbihə baxmağa gedirdim. Gecənin yarısı bitəndə Kamalabada qayıdırdıq. Bir dəfə Aşura gecəsinin simvolik tabut mərasiminə qaldıq. Sübh namazımızı da Rüknabad məscidində qıldıq. Oradan yola düzələndə yolda bizdən başqa heç kim yox idi. Çöllükdən səs gəlirdi. Mərasim bitsə də, sanki bir dəstə adam çölün ortasında əzadarlıq edirdi. Dostum Əhməd dedi ki, yəqin, cinlərdir. İkimiz də qorxub Kamalabada qədər qaçdıq. Mən o qədər bərk qaçmışdım ki, evə çatanda boğulmaq üzrəydim.

- Demək, onlar siz imişsiniz! – Hüseyn dedi.

- Kimlər? – deyə təəccüblə soruşdum.

- Sonralar Rüknabadda xəbər yayıldı ki, bir neçə uşaq cinlərin səsini eşidib.

- Nağıl danışmaq bitdi? – hacı dedi. – Gedin, yatın. Sübh tezdən tunelə gedəcəyik. Sabah bir nəfər və bir qolumuz az olacaq.

- Hacı, cinlər köməyə gələcəklər, - Əli dedi. – Ağa İlyas onlarla dostdur.

Hamı gülüşdü. Mən də qorxularımın bir hissəsinə bərkdən güldüm.

***

kitaboxu.com

## Çay yatağı, 6 noyabr, sübh tezdən

Sübh namazından sonra tunelə getməyə hazırlaşanda gördüm ki, hacı səngərdə yoxdur. Öyrəndim ki, kapitan Mirhüseyni gəlib və tunelə baxmaq üçün bizdən öncə gediblər. Biz Əbu Şərif səddindən keçmək istəyəndə onlar qayıdırdılar. Yanlarında bir neçə zabit də vardı. Paltarlarından adlarını oxudum: polkovnik Əli Rəzmi, polkovnik Süleymancah, polkovnik Həsəni Sədi. Polkovnik Süleymancah boyda hamısından hündür idi. O, leytenant Arama zarafatla: “Bu Aram tuneli öz boyuna görə qazıb, bizə balacalıq edir!” – dedi, hamı gülüşdü.

Kapitan Mirhüseyni hamımızla hal-əhval tutub bizi təriflədi ki, iş çox yaxşı gedir və s. Hacı geridə qaldı və biz tunelə getdik.

Son bir həftədə sürətimiz artmış, tunel çox uzanmış, bu da öz növbəsində nəfəs almağı daha da çətinləşdirmişdi. Artıq tuneldə 5 dəqiqədən çox qalmaq olmurdu. Hava azalır, tez-tez bir-birimizi əvəzləyirdik.

Mənim növbəm idi. Tunelin sonuna qədər getmişdim. Külüngləyir, şırhaşırla tək tökürdüm. Dərimin bir neçə dəfə qalınlaşdığını, istidən şişdiyini hiss edirdim. Maykamı çıxarıb arxamdakı arabanın üstünə atdım. İmkanım olsaydı, dərimi də soyunardım.

kitaboxu.com

Nə edəcəyimi bilmirdim. Bir neçə dəfə havanı səsli şəkildə sinəmə ötürdüm və gözlərim tavana dikildi.

Arxamda əl arabasının səsini eşitdim. Dönüb baxdım. Əsgərlərin biri idi, arabaya torpaq doldururdu. Maykamdan ehtiyatlı olmasını tapşırmaq istəyəndə gördüm ki, arabanın dəstəyinin üstünə atıb.

- Get, Əli ilə Hüseyni çağır, - ona dedim.

Əsgər niyəsini soruşmadan bayıra getdi.

"Niyə öncədən ağlıma gəlməyib?! – deyə düşündüm. – Yuxarıdan balaca bir dəlik açmaq olar. İraqlılar bizi görməzlər, amma hava gəlib-gedər".

Təklifi söylədim, hamı razılaşdı. Hacı hələ gəlməmişdi. Fikirləşdim ki, hacı gəlib beynimə necə ideyanın gəldiyini görsə, çox sevinəcək.

Bir neçə nəfərlə dəliyin yerini təyin edib aşağıdan deşməyə başladıq. Dəliyin haradan çıxacağını bilmədiyimizə görə yuxarıdan kömək edib tezləşdirə bilmirdik. Bundan əlavə, iraqlılar ərazini görürdülər və oraya getmək kökündən imkansız idi.

Dəlik dərinləşəndə ayağımızın altına araba qoyduq. Başlarımızı tavana yapışdırıb növbə ilə işləyir, külünglərin dəstəyini var gücümüzlə başımızın üstündəki torpağa vururduq. Dua edirdik ki, həmin hissədə daş olmasın. Bu zaman əlimizdən heç nə gəlməzdi. Amma dəlik qazıntısı yaxşı getdi. Günortaya yaxın dəlikdən ilk işığı gördük.

kitaboxu.com

Nahar və namaz üçün bayırda oturduğumuz zaman hacı gəldi. Dəlik məsələsini ona söyləmək üçün səbirsizlənirdim. Amma əsgərlərin biri bunu ağzından qaçırdı.

- Səhərdən bu qədər işləmisiniz?

Hacı bunu soruşanda həmin əsgər yerindən sıçrayıb:

- Tunel üçün hava dəliyi də açıblar, - dedi.

Hacı bizə baxdı və mən tez izah etməyə başladım. O, bu xariqüladə ixtiranın mənə məxsus olduğunu bilməli idi. Mən tuneldə nəfəs almaq üçün yol tapmışdım. Hacı bir neçə dəfə başını yelləyib "Ooo! Ooo!" dedi; vəssalam. Çox incidim. Qrupumuzun hamısı məndən böyük olan digər üzvləri yanında məni çox tərifləməsini istəyirdim, o isə tez paltarlarını çıxarıb tunelə girdi.

Çox təəccübləndim; o qədər ki, tunelə girməyim gəlmədi. Bayırda məşğul oldum və uşaqların heç biri – nə qəlpə yarasından hələ də ayağı axsayan Həsən, nə də digərləri niyə işdən qaçdığımı soruşdular.

Hacı niyə birdən belə olmuşdu? Özü deyirdi ki, mənim çoxlu bacarıqlarım var. İndi də tənəffüs problemini həll etdiyimə görə digərlərinin önündə mənə çox hörmətlə yanaşmasını gözləyirdim.

Bəlkə, haradasa nəsə etmişəm, yadımdan çıxıb? Günortadan sonra ancaq bunu fikirləşdim. Ağlıma heç nə gəlmirdi. Axşam hamımız geri qayıdanda hacı

kitaboxu.com

bizdən ayrılıb Əbu Şərifin yanında qaldı. Artıq əmin oldum ki, məndən narazıdır. Məni görmək belə istəmirdi. Bəs mən nə etmişdim? Niyə özüm bilmirdim? Bəlkə, dəliyə görəydi? Axı hacının özünün də nəfəsi daralırdı...

Ürəyim sakitləşmirdi. Etdiyim qələtin nə olduğunu öyrənmək istəyirdim. Səngərdən çıxıb Əbu Şərifin səngərinə doğru getməyə başladım. Bilirdim ki, yaxınlaşan kimi silahını qaldırıb: "Dayan! Hara?" – deyəcək. Ancaq Əbu Şərif səngərdə deyildi. Necə yəni?! Bu, qeyri-mümkün idi. Əbu Şərif bir neçə dəfə öz rəisi olan leytenant Aramın qarşısını kəsib kim olduğunu dəqiqləşdirmiş, sonra keçməyə icazə vermişdi. Tunelin qazıntısı o qədər gizli idi ki, bizimlə işləyən əsgərlərə məzuniyyət verilmir, təxirə salınırdı. Onlar hətta hamama da digər əsgərlərdən ayrı gedirdilər.

Yoxuşla qalxandan sonra Əbu Şəriflə hacını gördüm. Hündür bir yerdə oturub tunelə baxırdılar. Əbu Şərif addımlarımın səsini eşidən kimi silahını mənə tuşladı.

- Dayan!

- Mənəm, Əbu Şərif, İlyas! Hacı buradadır?

- Yaxşı ki, gəldin, ağa İlyas, - hacı dedi. – Qaç, balaca külünglərin birini gətir.

Sözünə qulaq asmadım. Bu zülmətdə külünglə nə işi vardı? Yuxarı qalxıb yanında yerdə uzandım. Tunelə baxanda isə bütün bədənim titrədi. Tunelin üstündə bir yerdən tüstü ilə toz arasında bir şey, ya da duman çıxır, ay işığında aydın görünürdü.

- Hacı, iraqlılar tuneli tapdılar? – deyə soruşdum. – O, alovdur?

- Yox. Mən də əvvəl elə bildim, amma sonra başa düşdüm ki, yerin buğudur.

Mat-məəttəl qalmışdım. Tunelin içindəki istilik həmin balaca dəlikdən bayıra çıxır, dəlik dudkeş kimi tunelin yerini bildirirdi.

- Hacı, mən nə etmişəm?! Bu, mənim günahımdır!

- Qaç, qaç, külüng gətir, - deyə çiynimə vurdu. – Mən dedim ki, otur burda bizə xütbə oxu, görək kimin günahıdır?!

Səngərlərə tərəf qaçdım. Qayıdanda Əbu Şərif tək idi.

- Hacı getdi, - dedi, - dedi ki, tunelin girişindən külüng götürəcək.

Qaranlıqda hacını görmür, amma nəyinsə xışıltısını eşidirdim. Tunelə tərəf getmək istəyəndə Əbu Şərif yaxamdan tutdu.

- Hara?

- Gedim, kömək edim.

kitaboxu.com

- Hacı dedi ki, kömək lazım deyil. Ona görə də burada qalırsan.

- Mən getməliyəm. Bu, mənim günahımdır.

- Bir sözü neçə dəfə deyim? – deyə Əbu Şərif silahını mənə doğrultdu.

- Bir dəfə, Əbu Şərif, sənin sözün birdir.

Əbu Şərif məni yerimdən tərpənməyə qoymurdu. Bacardığım qədər diqqətlə baxıb qaranlıqda hacını görməyə çalışdım. Amma gördüyüm yalnız buxarın kəsilməsi oldu. On dəqiqədən sonra hacı yanımıza gəldi.

- Nə oldu, hacı?

- Üstünə torpaq tökdüm, iki tikan kolu da qoydum. Arxayın ol.

Hacının əllərini tutub:

- Bağışlayın, mən belə olmasını istəmirdim, - dedim.

- Düzdür, cinlərlə münasibətin var, - deyə hacı güldü, - amma mən səndən cin ağlı gözləmirəm ki, nə olacağını öncədən biləsən. Sənin işin düzdür, amma bizim bu bölgə ilə tanışlığımız yoxdur.

Mızıldamağa başladım:

- Mən... bircə onu istəyirdim ki... tuneldə nəfəs almaq mümkün oslun...

- O da düzəldi. Səhər kapitan Mirhüseyni, polkovnik Süleymancah və polkovnik Sədi ilə danışdım. Bizə elektrik generatoru gətirəcəklər, tunelə boru çəkəcəyik.

kitaboxu.com

Beləliklə həm tunelə hava girəcək, həm də işığımız olacaq. İşimiz də sürətlənəcək.

- Nə yaxşı!

- Onda cinlərinə de, yatsınlar, sabah görüşərik.

Gülə-gülə hacının ardınca səngərlərə doğru qayıtdım.

***

**Çay yatağı, 7 noyabr, axşam**

“Salam olsun bəşər dünyasının xilaskarı və dövrün imamı ağamız İmam Mehdiyə və onun haqq naibi, ümmətin döyünən qəlbi, Ali Baş Komandan, məzlumların köməkçisi, ümmət imamı, Cəmaran mürşidi Ayətullah əl-üzma İmam Xomeyniyə!

Salam olsun erkən çağından İran İslam İnqilabına qədər dünyadan köçən, xüsusən də İraqın İran əleyhinə başlatdığı müharibədə qanına qəltan olub barlı İslam ağacını suvaran İslam şəhidlərinin müzəffər ruhlarına!

Salam olsun hörmətli şəhid və itkin ailələrinə, əsirlərə və hizbullahçı ümmətə...”

Bu bir neçə sətri oxuyub əmin oldum ki, bu dəfə məktubu nə Siddiqə yazıb, nə Fatimə. Məktubların əvvəli heç vaxt belə atəşli olmurdu, sadə salamlaşma ilə başlayırdı, vəssalam. Bu isə o deməkdi ki, məsələ bitib; Siddiqə gəlin köçüb və daha heç biri bizə gedib-gəlmir.

kitaboxu.com

Gözlərimi məktubdan çəkib alovun başına toplaşmış uşaqlara baxdım. Bu axşam külüng itiləyirdilər. Ocaq qalayıb başı kütləşmiş külüngləri odda yumşaldır, sonra daşla döyəcləyib mümkün qədər itiləyirdilər. Hərə öz külüngü ilə məşğul idi, mənsə onlardan uzaqlaşıb anamın məktubunu oxuyurdum.

Siddiqə evlənəndən sonra aldığım ilk məktub idi. Məktubda Siddiqənin toyundan nəsə yazılmasını həm istəmirdim, həm də istəyirdim. İstəyirdim anam yazsın ki, qayıt gəl, toy baş tutmadı.

"Hörmətli dostuma, Kamalabadın cəsur kişisinə ən səmimi salamlarımı təqdim edirəm! Ümidvaram, sağ-salamatsan və həzrət İmam Mehdinin diqqəti sayəsində İslam və müsəlmanlara xidmət edirsən.

Əziz könüllü qardaş! Mən Əhmədəm və bu məktubu Kabalabadda cəsur qadın və bütün kənd xanımlarına örnək olan hörmətli və səbirli anan tərəfindən yazıram".

Məni gülmək tutdu. Deməli, bu bədii əsər Əhməd ağanın hünəri imiş. Anamın əli heç kimə çatmamış, Əhməddən məktub yazmasını xahiş etmişdi.

"Əgər bu dəyərsiz bəndənin və hörmətli ananın halını bilmək istəsən, şükür Allaha, biz də salamatıq. Bircə səndən ayrılıq problemi var ki, onun da Allahın köməyi ilə tezliklə aradan qalxacağına inanırıq. Biz və anan sənin məzuniyyət üçün kəndə təşrif buyurmanı



kitaboxu.com

səbirsizliklə gözləyirik. Anan darıxır, amma gənc və qeyrətli oğlunun beynini bununla məşğul etmək istəmir. Ağa İlyas, kənddə yerin görünür və bütün əhali həmişə səni xatırlayır.

Anan yaxşıdır və Allaha şükür ki, narahatlığı yoxdur. İstəyir ki, rüknabadlı döyüş yoldaşların kimi sən də məzuniyyətə gəlib ailəni ziyarət edəsən. Əlbəttə, anan qeyd etməmi istəyir ki, tez qayıtman üçün israr etmir. Allah yolunda cihad edən oğul öz xeyrini daha yaxşı bilir.

Ağa İlyas, dua elə, mən də İslam İranına xidmət səadətinə nail olum və batil əleyhinə haqq cəbhələrinə qoşulum. Sənin və bu torpağın digər igid insanlarının yanında vətən borcumu yerinə yetirmək istəyirəm.

Anamın dözümsüzlüyü olmasaydı, indiyə sizə qoşulmuşdum. Kaş anam sənin anandan bir qədər səbir və mətanət öyrənəydi!”

Əhməd beləcə davam etmiş, qoltuğuma irili-xırdalı qarpızlar vermişdi. Sanki mən burada günə yeddi-səkkiz düşmən öldürməyincə rahat oturmuram.

Məktubu axıracan oxudum. Heç nə; heç elə bil, məktub anam tərəfindən yazılmamışdı. Əhməd bir inşa yazmışdı, mən də buradan ona yağlı bir “20” verməli idim. Amma pis deyildi. Məni çox yüksək qiymətləndirmişdi və təriflərindən belə çıxırdı ki, adım kənddə dillər əzbəri olub.

kitaboxu.com

Məni cəsur bilmələrinin zamanı indi idimi?! Nə faydası?! Daha iş işdən keçmişdi. Mən dayımın gözündə kürəkən ola bilmək üçün gəlmişdim, indi isə Əhmədin gözündə qəhrəman olmuşdum. Əcəb dünyadır! Dərin nəfəs alıb küləyin mənə sarı gətirdiyi tüstünü sinəmə yolladım.

Anam həmişə deyirdi ki, dünya yumrudur, fırlanır və sabah nə olacağı bilinmir. Ağlıma gəlməzdi ki, bir gün Əhməd mənə qibtə edə, mən də Siddiqəyə həsrət qala bilərəm.

Məktubu qatlayıb cibimə qoydum. Hacının dediyi kimi, həyat arabası gedirdi, mən yerdə qalmamalı idim. Araba daşlığa da girsəydi, ondan enmək olmazdı. Səngərin önündən külüngümü götürüb uşaqların yanına getdim.

***

**Tunelin girişi, 11 noyabr, sübh tezdən**

Generator axşam gəldi. Dörd yanı paslanmış böyük bir metal qutu idi. Güman ki, paslanmazdan qabaq rəngi sarı olub. İndi isə baxanda elə bilirdin ki, palçığa salıb-çıxarıblar. Altındakı dörd təkərin biri laxladığına görə yaxşı hərəkət etdirmək olmurdu. Deyirdilər ki, yaxşı generatordur, yüz il yaşaya bilər. Amma bizi nə qədər yaşayacağı və nə qədər yaşadığı

kitaboxu.com

maraqlandırmırdı, tuneldə olduğumuz müddətcə işləməsi kifayət edirdi.

Hava işıqlanmadan generatoru digər alətləri ilə birlikdə tunelin önünə aparmalı idik. Boz plastik boruları bir gün öncə tavana bərkitmişdik. Tunel qazılıb uzandıqca onlara çox asanlıqla boru əlavə etmək olacaqdı. Tavandan elektrik kabeli də çəkmişdik.

Generator həm havanı borularla tunelin içinə üfürən nasosa kömək edəcək, həm də içəridəki zəif lampaları yandıracaqdı.

Dörd nəfər generatorun kənarlarından tutub tunelin girişinə apardıq, özü də necə! Dişimiz, dırnağımızla onu girişə endirdik. Generatoru işə salmaq üçün mühəndis qrupundan bir nəfər gəlmişdi. Hacı da bacarırdı. İkisi köməkləşdi və hava işıqlaşandan bir saat sonra generator traktor səsi ilə işləməyə başladı. Onun səsi ətrafa yayılan kimi iraqlılar tərəfdən atəş səsləri də gəldi. Müşahidə postundakı əsgər qışqırdı: "Söndürün!"

Hacı tez generatoru söndürdü, şpalların üstündə oturub dedi:

- Olmaz! Planın üstü açılar, təhlükəlidir. Səsi olduqca çoxdur. Ərazi də sakitlikdir, səsi yayılır.

- Bəs nə edək, hacı? - deyə soruşdum. – Nasos işləməsə, tuneldə boğularıq.

kitaboxu.com

- Generatoru çay yatağına qoyaq, - deyə hacı yerindən sıçrayıb Mühəndis-istehkam bölməsindən gəlmiş döyüşçüyə dedi. – Oradan tunelə qədər kabel çəkərik.

Mühəndis başını yelləyib dedi:

- İndi başlayaq?

- İndi generatoru apara bilmərik, - deyə hacı başını buladı. – Görüb bilərlər, təhlükəlidir. Axşam qaytarar və işlərini görərik, - sonra isə külüngünü götürüb əlavə etdi: - Bismillah. Qədim üsulla son günümüzü işləyək, görək Allah nə istəyir.

Hava qaralanda generatoru geri apardıq. Leytenant Aram dedi:

- Yaxşı olar ki, generator üçün də bir səngər düzəldək, Əbu Şərif onun işləməsinə də nəzarət etsin.

Qaranlıqda səngər düzəltmək olmazdı. Səhər tezdən hacı, mühəndis və başqa iki nəfər tunelə qədər kabel çəkməyə gedəndə biz də çuvalları torpaqla doldurub generatorun ətrafına düzürdük. Günəş çıxandan sonra mühəndis gəlib generatoru işə saldı. Hamımız salavat dedik. Tunelə girəndə Əli dedi:

- Bu, başqa məsələ! İndi nəfəs almaq olar.

İşə başladıq. Olduqca daha rahat işləyir, irəliləyirdik. Hələ də tərləyirdik, hələ də bir şortla palçıq heykəllərə oxşayırdıq, amma boğulma az

kitaboxu.com

olurdu. Günortaya yaxın isə generator söndü və hava kəsildi.

Nə baş verdiyini heç birimiz bilmirdik. Hacı da geri getməyə icazə vermədi. Tunelin işi ləngimişdi, qabaqkı üsulla işləməli idik. Axşam geri qayıdanda Əbu Şərif generatorun çox qızdığını və daha davam etməyin mümkün olmadığını bildirdi. Hacı bizdən ayrılıb leytenant Aramın yanına yollandı. Bizim daha çox generatora ehtiyacımız vardı.

***

**Çay yatağı, 21 noyabr, axşam**

Çay yatağına çatan kimi məktub almışdım. Anamdan idi. Düzünü desəm, açmağa heç həvəsim yox idi. Əgər Əhməd yazıbsa, deməli, yenə qoltuğuma çuval-çuval qarpız verib. Heç anamın sözlərini yazmamışdı. Anamın da daha Siddiqəyə əli çatmırdı ki, məktubu ona yazdırsın.

Bəlkə, Fatimə yazıb. Ola bilməz ki, dayım birdən-birə bacısını tək qoysun və daha evinə gedib-gəlməsin.

Axşam yeməyimizi yemişdik. Məktubu gəlmiş uşaqlar səngərdə lampa işığının altına toplaşmışdılar. Bayırda hava yaxşı idi. Milçək boyda ağcaqanadlar olsa da, yenə də hamı açıq havada yatmağı üstün tuturdu. Bir neçə gün idi hava qızmışdı. Heç elə bil payızın yarısı arxada qalmayıb və indi yağış yağmalı

kitaboxu.com

deyil. Səngərin küncündə çuvalların arasında özümə yer seçib məktubu açdım. Bu dəfə məktubu yazan nə Əhməd idi, nə Fatimə, nə də Siddiqə. İlan-qurbağa xətti ilə yazılmışdı. Düşündüm ki, yəqin, anam Savadlanma hərəkatının dərslərinə getmiş və özü mənə məktub yazmışdır.

"Salam, İlyas! Mən Rüqəyyə xanımın oğlu Seyid Cavadam".

Yazar lap əvvəldə özünü təqdim etmişdi. Xəttinin belə olmasının da səbəbi bilindi.

Seyid Cavad dördüncü, ya da beşinci sinifdə oxuyurdu. Dəcəl uşaqdı, dam-divara dırmaşırdı. Arabir küçədə görürdüm ki, Rüqəyyə xanım onu çəkələklə qabağına qatıb döymək istəyir.

"Anan dedi ki, sənə məktub yazım. İlyas, sən kəndin vəziyyətini bilmirsən. Müharibə gedir. Sən müharibəyə getdin, müharibə də qalxıb sizin evinizə gəldi. Bunları anan demir ha, özüm yazıram. Kamalabada qayıtma. Dayın diri-diri başını üzəcək!"

Məni gülmək tutdu. Bu uşaq ağzına gələni yazıb.

"Anan deyir, yazım ki, tez gəl. Sənin üçün darıxıb. Amma sən mənim sözümə qulaq as, gəlmə! Hacı İslamla dayının səni görməyə gözləri yoxdur. Dayıqızın da hələ ki, sizdədir. Hər şeyi korladı, bütün kəndi alt-üst etdi!"

kitaboxu.com

Nə? Necə yəni? Bu uşaq nə deyir? Hansı dayıqızı? Nə korlanıb?

“Anan deyir ki, yaxşı yemək ye, xəstələnməyəsən. Mənsə ona dedim ki, cəbhədə toyuqplov olmur, yalnız quru çörək yeyirlər. Mən də pasportumu dəyişdirib cəbhəyə getmək istəyirəm. Mənə bir yer saxla. Xudahafiz!”

Səni ölməyəsən, uşaq; bu necə məktub yazmaqdır?! Anamın dediklərindən çox özünün çərən-pərən sözlərini yazıb. Görəsən, kənddə nə baş verdiyini necə öyrənə bilərəm? Hacı İslamla dayım niyə mənim başımı üzmək istəsinlər ki? Dayım qızı bütün kəndi alt-üst edib? Yəni Siddiqə? Yəni o, Hacı İslamın evinə gəlin köçməyib?

Anama bir məktub yazmalı idim. Onu kimin oxuyacağı önəmli deyildi. Kim olsa, hər halda, kənddə nə baş verdiyini məndən yaxşı biləcək. Çantamdan kağız və qələm çıxarıb anama yazdım ki, daha məktublarını Əhmədə və Seyid Cavada yazdırma, kənddə nə baş verdiyini və vəziyyətin necə olduğunu mənə ətraflı yaz. Yəqin, nəsə olub ki, anam məktubu Siddiqəyə yazdırmayıb. Dayıqızıdan heç nə yazmadım, amma yəqin ki, anam nəyi bilmək istədiyimi başa düşəcək.

***

kitaboxu.com

## Çay yatağı, 3 dekabr, axşam

Səngərdən bir çuval quru çörək gətirməyə getmişdim. Quru Yəzd çörəyini qabaqkı qrup gətirmişdi. Nə yaxşı ki, ağıllarına belə bir şey gəlib. İki gün idi həmin çörəkləri yeyirdik.

Ərzaq maşınını körpüdən öndə vurmuşdular. Maşın sabaha qədər yanmış, heç kim ona yaxınlaşa bilməmişdi. Sürücü və köməkçisi maşının içində kömürə dönmüşdü. Qərara alınmışdı ki, bir neçə gün körpüyə heç bir maşın yaxınlaşmasın. Yaxşı ki, mən o səhnəni görmədim. Yoxsa uzun müddət özümü alovlar arasında qalmış və heç kimin kömək edə bilmədiyi vəziyyətdə təsəvvür edəcəkdim. Üzümün yanıqlarının yeri daha göynətmirdi, amma qorxusu canımdan çıxmırdı.

Bir neçə günlük ərzaq vardı, amma hacı özü leytenant Arama demişdi ki, kankanlar quru çörək gətiriblər və bir neçə gün bizə kifayət edər. Nahara quru çörək aparıb əsgərlərlə yeyirdik. Onlar ilk dəfəydi belə çörək yeyirdilər.

Hacı çörəkləri Həsənin gətirdiyi zolaqlı süfrənin üstünə sərib əli ilə üzərlərinə su çiləyir, sonra süfrənin o biri başını çörəklərin üstünə atıb deyirdi ki, gözləyin, çörəklər yaxşı islansın. Elə deyirdi ki, sanki suyun nə olduğunu və necə təsir etdiyini bilmələri üçün

kitaboxu.com

çörəklərin diqqət cəmləməyə ehtiyacları vardı. Sonra süfrəni kənara çəkib deyirdi: "Buyurun!"

Əsgərlərin biri bu gün deyirdi ki, sizin quru çörəkləriniz mənim nənəmin çörəklərinə oxşayır. Nənəsi bütün kənd üçün təndirə çörək yapırmış. Doğru deyirdi. Quru çörəyi elə yeyirdik ki, elə bil, evdə yel alıcının altında oturmuşduq.

- Qalan budur, hacı, - deyə çuvalı çıxarıb hacıya verdim. – Bu axşam bitər.

- Eybi yox, - hacı razılıqla dedi. – Bu gün ərzaq maşını gəlib.

- Doğrudan?!

- Hə. Məktub da gətirib sənə. Axır zamanlar məktubların çoxalıb.

Mən niyə ərzaq maşınının gəldiyini anlamamışdım? Quru çörəyimizlə yeməyə qatığımız da vardı. Yeməkdən sonra məktubu alıb səngərə qayıtdım. Hüseynin də məktubu vardı. Məktubu açan kimi yenə Seyid Cavadın xəttini gördüm.

"Salam, ağa İlyas. Mən Seyid Cavadam. Anan deyir ki, qabaqkı məktubuma görə çox hirslənmisən. Bu dəfə anan nə desə, yazacam. Dayın deyib ki, Siddiqə ya Hacı İslamın gəlini olacaq, ya da ömrünün axırına qədər evdə qalacaq. Siddiqə əvvəldə heç nə deməyib. "Hə" deməyib, amma "yox" da deməyib. Dayın da

kitaboxu.com

Hacı İslama deyib ki, gəlsinlər. Gələndən sonra isə Siddiqə hamının yanında deyib ki, yox.

Dayın bunu səndən bilir. Mənsə ona dedim ki, mənim İlyasım duzu yeyib duzqabını qıran oğlan deyil. Dedim ki, Siddiqə barədə də mənə bir söz deməyib. Mənə də deməmiş kimə deyəcək?! Bunları anan deyir ha, mən yox. Mən Seyid Cavadam, yadından çıxmasın.

Ağa İlyas, anan düz deyir? Sən Siddiqəni istəmirsən? İndi sizdə qalır. Kənddə söhbəti gedir. Anam deyirdi; deyirdi ki, bu qız necə ürəkli imiş!

Yenə sənin ananın sözlərini yazıram. Deyir ki, İlyas, məzuniyyətə gəl, qoy söz-söhbət də bitsin. Amma məncə, gəlmə, ağa İlyas. Mən Seyid Cavadam, yadından çıxmasın. Qoy dayın bilsin ki, bir Allah döyüşçüsü onların hay-küyündən qorxmur. Bel və külünglə Səddamı gömməyə getmisən, indi dayından qorxacaqsan?! Xudahafiz!"

Elə bu? Anam niyə mənə qulaq asmamış, məktubu yenə Seyid Cavada yazdırmışdı? Necə yəni Siddiqə hər şeyi korlayıb? Mən Siddiqəni istəyirəm, həm də hər şeydən çox. Anam niyə elə düşünür ki, Siddiqəni istəmək duzqabını qırmaqdır? Mənim dərdimi anam başa düşmürsə, dayım başa düşəcək?! İndi hansı üzlə anama deyim ki, səhv edir?! Səni ölməyəsən, Seyid Cavad! Boş-boş çərənləmək yerinə kənddə baş verənlərdən bir az da yazsaydın, ölərdin?! Görəsən,

kitaboxu.com

kimdən soruşa bilərəm? Əgər Siddiqə bizdədirsə, anam niyə məktubu Seyid Cavada yazdırır?

Hacı yanımda oturub dedi:

- Nə olub belə çaş-baş qalmısan? Uşaqlar işığı söndürüb yatmaq istəyirlər.

Gördüm ki, səngərdə hamı uzanıb, yorğun bədənlər yerə sərilib. Ayağa qalxdım. Bu qədər fikir içində yata bilməzdim.

- Mən bir az gəzişməyə gedirəm, - dedim, - qayıdanda səngərin önündə yataram.

Hacı razılıqla başını tərpətdi. Məktubu çantama saldım. Yediyim qatıq-çörəyin boğazıma qədər gəldiyini hiss edirdim. Başım ağırlaşmışdı, sanki beynimə hava çatmırdı.

Səngərdən çıxan kimi gözlərim göydə qaldı. Səma buludlu idi, hava həmişəkindən qaranlıq görünürdü. Çənə tərəf gedib dəstəmaz aldım, fikirləşdim ki, gəzişməyim uzansa, bir namaz qılaram. Diqqətim cəmlənmir, anama nə yazacağımı bilmirdim. Qayıtmağa üzüm gəlmirdi. Mən yanlış bir iş görməmişdim, amma, bəlkə də, Siddiqəni sevdiyimi əvvəldən anama deməli idim. Olmurdu. İndi də deməyə utanıram. Bəs deməsəm, necə olacaq? Kül mənim fərsiz başıma! Siddiqə hər şeyi alt-üst edib dayıma qarşı çıxıb, dünyanın ən çətin işini görüb, mənimsə tapdanmış bir qarışqa kimi tərpənməyə və

kitaboxu.com

danışmağa da gücüm çatmır. Qaçıb bu tunelə girmişəm, sevdiyim adamı qoruya da bilmirəm.

Amma mən, doğrudan da, bu işi görmək istəyirdim. Mən ölkəmi qorumağa gəlmişdim, Siddiqə də... Mən ona görə gəlmişdim ki, Siddiqə məni adam saysın, indi də adam sayır...

Sanki qollarımı bir maşına, ayaqlarımı da bir maşına bağlamışdılar və maşınlar bir-birinə əks səmtə doğru gedirdi. Səngərə yaxınlaşıb torpaq dolu iki çuvalın üstündə oturdum, hacının qucağında nə isə səngərdən çıxdığını gördüm. Görəsən, gecənin bu vaxtı hara gedirdi?

Ayaqlarımın səsini eşitməsin deyə yacaşca ardınca getdim. Əvvəl elə bildim ki, Əbu Şərifin yanına gedir, amma yox, çənin arxasına sarı döndü. Əlindəkiləri böyük bir ləyənə töküb ləyəni su ilə doldurdu. Yerimi dəyişib bir az yaxınlaşdım. Axı hacının bu qədər paltarı yox idi.

kitaboxu.com

- Kimsən? – hacı hərəkətimi duyub soruşdu.

- Mənəm, hacı.

- Gəzişməyə getmişdin, yoxsa məni güdməyə?! Bəlkə, cinlər xəbər verdi?

- Yox, hacı, - deyə güldüm. – Nə yuyursan?

- Müfəttişsən?! Nəsə yuyuram da. Get, yat!

Yaxınlaşdım. Palçıqlı maykalar idi – hamımızın maykaları. Onlar bir neçə dəfə də öz-özünə

yuyulmuşdu. Mən düşünmüşdüm ki, yəqin, əsgərlərin birinə əmr ediblər, o da yuyub.

- Sən niyə, hacı? – dedim.

- Artıq söz danışmaq olmaz. Get, yat. Dəvə gördün? Heç qığını da görmədim!

Heç nə demədim. Amma qayıtmaq istəyəndə birdən yerimdə donub qaldım. Düşündüm ki, dərdimi deməyə hacıdan yaxşı kim ola bilər?!

- Hacı, o iş vardı ha! – dedim.

- İş?! Hansı iş? – ləyəndəki maykaları sürtə-sürtə dedi, sonra başını qaldırıb qaranlıqda gözlərini üzümə dikdi.

- Dayım qızı məsələsini deyirəm.

- Hə; dedin ki, gəlin köçüb. Qərara gəldin ki, onu düşünməyəsən.

- Köçməyib, hacı.

- Gəlin köçməyib?! – deyə əlləri palçıqlı halda ayağa qalxdı.

- Yox. Anam bugünkü məktubda yazıb ki, dayım qızı hər şeyi pozub. Gəlin köçməyib, dayım da çox hirslənib. Sonra da hamı fikirləşib ki, dayım qızı məni istədiyi üçün belə edib.

- Kor nə istər? İki göz, - deyə hacı güldü. – İndi ürəyindəki sözü anana deməyin vaxtıdır.

- Bacarmıram, hacı. Üzüm gəlmir.

kitaboxu.com

Hacı yenə oturub ləyəndəki paltarları sürtməyə başladı.

- Kim tovuzquşu istəyirsə, Hindistana getməyin çətinliyinə də dözməlidir! O, sənə görə hamıya qarşı çıxıb, sənsə heç danışmaq da istəmirsən?!

- Bacarmıram, - deyib hacı ilə üz-üzə oturdum. – Anam elə bilir ki, hamı yanlış düşünür; elə bilir ki, Siddiqəni bacım kimi istəyirəm. Ona necə deyim ki...

- Mən deyim? – deyə hacı başını qaldırdı.

- Sən?! Necə?

Paltarları bir-bir ləyənə sıxaraq dedi:

- Məktub yazaram, anam gedib ananla danışar. Amma sən mənə de görüm, əminsənmi? Sonra fikrin dəyişməyəcək? Camaatın qızının ümidi sənədir.

İrəli atılıb hacının üzündən öpdüm, sonra dodaqlarımı dişlədim. Hacı yaş əllərini qaldırıb dedi:

- Yaxşı, oğlan, başa düşdüm, fikrini dəyişməyəcəksən.

Birdən yadıma düşdü ki, bu müddətdə mən ancaq danışmış, hacı isə paltar yumuşdu.

- Hacı, qalanını mən yuyacağam, - dedim.

- Olmaz, - deyə hacı ləyəni özünə sarı çəkdi, - get o yana. Bu, mənim işimdir.

Bir addım geri çəkilib hacının işinin bitməsini gözlədim. Sonra ləyəni zorla ondan alıb ipdən asmağa apardım. Mən qayıdanda hacı səngərin yanında namaz

kitaboxu.com

qılırdı. Yanında dayanıb namaza başladım. Amma fikrim namazda deyildi, kəndə getmiş, evimizə girmişdi. Fikrim Siddiqədə idi, dayıma qarşı çıxmağa necə ürək etdiyini düşünürdüm. Mənim cürətim çatmazdı, onunsa çatıb. Bəlkə, heç Hacı İslamla razılaşmanı pozması mənə görə deyil? Başımı buladım.

Kül başıma! O qədər fikrə dalmışdım ki, namazda başımı yelləyirdim. Dodaqaltı "əstəğfirullah" deyib diqqətimi cəmləməyə çalışdım. Amma yenə bütün fikrim Kamalabadda idi.

***

**Tunelin girişi, 13 yanvar, səhər**

Hamı gedib. Təkcə hacı ilə mən qalmışıq. Hacı deyir ki, tunelin işi təxminən bitib. İsrar edir ki, mən də gedim, amma mən hələ buradayam, nə qədər mümkündürsə, hacının yanında qalacağam. Bir neçə gün öncə anamdan məktub gəldi. Dayım çoxlu vasitəçiliklərdən sonra, axır ki, Siddiqənin mənimlə ailə qurmasına razılıq verib. Amma mən qərarımı vermişəm: mənim macəram bu tunellə birlikdə başlayıb, axırınacan da qalmalıyam.

Leytenant Aram deyir ki, əməliyyat zamanı yalnız və yalnız hacıya ehtiyacı olacaq. Atəş açmağı bacarmayan kankanları top-tüfəngin ortasına buraxa

kitaboxu.com

bilməz. Ancaq mən orasını da düşünmüşəm. Cəbhədən birbaş təlimə gedib eynilə bu əsgərlər kimi bir əsgər olmaq, yenə bura qayıtmaq istəyirəm. Bu fikri hələ heç kimə deməmişəm.

Tunelin koridoru və iki yolüstü istirahət və sursat səngəri hazır idi. Hacı Aramın istədiyi girişləri hazırlamaq üçün qalmışdı. Tunelə bir-biri ilə əllimetrlik məsafələrdə yerləşən üç giriş vardı. Top mərmisi bir girişi bağlasaydı, şəxsi heyət digər girişlərdən girə biləcəkdi. Mən üçüncü girişdə işləyirdim, hacı isə digər iki çıxışı hazırlamağa getmişdi. O iki çıxış yolu əsas yolla birlikdə üç yol edirdi. Çıxış yolları indi açılmalı deyildi, amma əməliyyat zamanı da kankanlığa vaxt olmayacaqdı. Hər şey hazırlanmalı idi ki, hücum axşamı hacı gəlib yolu açsın.

Məgər bu tuneldə mənsiz əməliyyat ola bilərdi?! Yarım saat idi hacı tuneldə tək idi. Çıxışlarda işləmək tunelin özündən çox çətin idi. Buna görə özü qalmışdı. Arabanın dolduğunu düşünüb köməyə getdim.

Tuneldən hacının səsi gəlirdi. Təvəssül duası oxuya-oxuya balaca bellə torpaqları arabaya tökürdü. Birinci çıxışın yoxuşunu hazırlamış, ikincini də yarıya çatdırmışdı.

Məni görən kimi dedi:

- Özüm gətirirdim, ağa İlyas.

kitaboxu.com

- Qoy nə qədər ki buradayam, bir işə yarayım, hacı.

- Bu tuneldən ayrıla bilmirsən?

- Məgər sən ayrıla bildin?!

- Bunun məsuliyyəti mənim üzərimə düşür, ağa İlyas. Camaatın uşaqları bu tuneldən düşmənə hücum edəcəklər.

- Mən də olmaq istəyirəm.

- Sözə qulaq asmırsan, oğlan. Bir dəfə məzuniyyətə getmədin. Şükür Allaha, dayınla problemin də həll olub. Get, ananın gözləri yolda qalmasın.

- Mən daha sənin əlində qaldım, hacı. Hara getsən, varam. Leytenant Aramın əməliyyat zamanı məni də tunelə buraxması üçün əla bir yol tapmışam.

- Bəlkə, o vaxtacan buralarda gizlənmək istəyirsən? – deyə hacı güldü və gülüş səsi tuneldə əks-səda verdi.

- Yox, - deyə başımı qaldırdım, - əsgərliyə getmək istəyirəm. Əsgər olub yenə bura qayıdacağam.

- Yaman uşaqsan!

Arabanı doldurmuşdum. Mən geriyə qayıdanda arxadan dedi:

- Ondan qabaq bir iş görməlisən.

- Nə, hacı?

- Kəndə gedib ananla görüşməlisən.

Arabanı yerə qoydum. Kəndə getmək istəmirdim. Anam üçün çox darıxırdım, amma dayımı, hətta Siddiqəni də indi görmək istəmirdim. Hər bir şey məni

kitaboxu.com

qərarımdan döndərə bilərdi. Mən cəbhəyə qayıtmaq, bu dəfə bel əvəzinə silah götürmək istəyirdim. Əgər tərəddüd etsəydim, yenə yerindən tərpənmək istəməyən əvvəlki qorxaq İlyas olsaydım, nə olacaqdı?!

- Yox, hacı can, incitmə, - dedim.

- Hacının sözü birdir, - başını yelləyib dedi. – Məzuniyyətə getməsən, Arama deyəcəyəm əsgərlik işini düzəltməsin.

- İncitmə, hacı.

Hacı arxasını mənə çevirib yoxuşla qalxdı və külüngünün səsi gəldi. “Hacı bir söz deyirsə, qulaq asmalıyam” – deyə düşündüm.

Arabanı tuneldən çıxarıb ətrafa boşaltdım. Əsgərləri də göndərmişdik. Yoxuşdakı şpalların üstündə oturub tunelin girişinə baxmağa başladım. Hər şey ilk gündəkindən necə də fərqlənmişdi! Sanki bu tunel mənim özüm idi, zəmanətli olmaq üçün əvvəldən axıra qədər qazılmışdım. Amma indi zəmanətli deyildim, öz qərarıma tam inanacaq həddə çatmamışdım. Kəndə qayıtsaydım, anam məni hərbi xidmətə getməkdən daşındıracaqdı. Yox, daşındırmazdı. Bu, insafsızlıqdır. Onun özü məni cəbhəyə yollamışdı, niyə daşındırsın ki?! Bəlkə, hələ özümə inanmırdım. Bəlkə, əməliyyat zamanı hacının yanında olmağa cəsarətimin çatacağına şübhəm vardı.

kitaboxu.com

Tunelə qayıtdım. Hacı yenə bərkdən dua oxuyurdu.

- Hacı! Hacı!

Hacı yoxuşdan enib mənə baxdı.

- Nə olub? Səsin bütün tuneli bürüyüb. Burada belə qışqırmaq olmaz!

- Hacı, kəndə gedirəm. Üçgünlük məzuniyyət götürüb gedirəm. Özün Aramla danışarsan əsgərliyimi düzəltsin?

- İndi oldun ağıllı oğlan, - deyə güldü və qaranlıqda ağ dişləri göründü. – Afərin! Gedib ananın razılığını alırsan, sənə analıq etdiyi üçün əlini öpürsən. Sonra da sənə yaxşılıq etmiş dayının əlini öpürsən.

- Hacı, başqa əmrin yoxdur?! – deyə yerdə oturdum.

- Var, - hacı gülüb dedi. – Nişanına da hamımızı çağırırsan, tunelin qazıntısında iştirak edənləri.

Məni gülmək tutdu.

- Ooo, hacı, haralara getdin?! Qoy hələ gedib dayımın qarşısında oturum, o da şərtlərini kəssin; əlbəttə, əgər mən kəndə çatınca sözünü geri götürməsə.

- Arxayın ol, - deyə güldü. – Mənim anam işin içindədirsə, problem olmayacaq.

İşimə döndüm. Özümdən asılı olmadan gülürdüm. Sanki dünyanın bütün dərd-qəmi birdən-birə bitmişdi. Daha dayımla üz-üzə gəlməkdən də qorxmurdum.

Axşam geri qayıdanda hacı leytenant Aramla danışdı. Aram dedi ki, mənim sənədlərimi həll edəcək

kitaboxu.com

və on günə gedəcəyəm. Hacı hesablayıb demişdi ki, tuneldə hələ iki həftə iş var. Mən son günə qədər yanında qalmaq istəyirdim. Amma hacı dedi ki, leytenant nə deyirsə, “baş üstə” de. Mən elə də etdim.

***

**Çay yatağı, 21 yanvar, axşam**

Sakitlik idi. Sanki bütün ərazinin üstünə rahatlıq yorğanı sərilmiş, müharibənin getdiyi, güllə və qəlpələrin yağdığı hamının yadından çıxmışdı. Bəlkə də, yer-göy bu şəkildə mənə sevgi göstərirdi. Bu gecə tunellə mənim son gecəm idi. Sabah səhər Əhvaza gedəcək və kəndə qayıdacaqdım. İki gün məzuniyyətim vardı. Sonra Kirman şəhərinə təlimə gedəcək, oradan da bura qayıdacaqdım.

Gecənin yarısı tunelə gedib onunla vidalaşmaq istəyirdim. Hacının bir neçə gün işi vardı, mənimsə ezamiyyət vərəqəm yazılmışdı, ona qədər cəmi iki gün vaxtım vardı. Hacı məni hədələyib demişdi ki, gedib anama baş çəkməsəm, tunelə qayıtmağım mümkün olmayacaq.

Hacı səngərdə Kumeyl duası oxuyanda çay yatağını bir maşın səsi bürüdü. Bu gecə maşın gəlməməli idi. Hər bir gözlənilməz hadisə tunelə qayıtmağımı gecikdirəcək deyə məni qorxudurdu.

kitaboxu.com

Hacı ilə bayıra çıxdıq. Komandir səngərindən bayıra düşən işıqda balaca bir hərbi avtomobil gördüm. İlk dəfə idi belə bir maşın görürdüm. Hacı dedi:

- MUTT avtomobilidir. Görəsən, kim gəlib?

Komandir səngərinin girişindəki pərdə endi və bayıra düşən az işıq da yox oldu. Mən səngərə girmək üçün döndüm, hacı isə komandir səngərinə getdi. Mənim onunla getməyim mənasız idi. O, məsələni öyrənməyə gedirdi. Amma mənə də maraqlı idi. Bir neçə addım məsafə ilə onun ardınca yola düzəldim, ancaq komandir səngərinə çox yaxınlaşmadım. Hacı gedib pərdəni qaldırdı, sonra ucadan salam verdi və pərdə yenə endi.

Bir az dayanıb düşündüm. İstədiyim vaxt komandir səngərinə girə bilməzdim. Aram məni əsgər kimi qəbul etmək fikrindən dönsəydi, bir də tunelə qayıda bilməyəcəkdim. Bir qədər gözlədim. Hacı çıxmaq bilmirdi. Öz səngərimizə getdim, amma hələ içəri girməmiş hacının komandir səngərinin önündə iki nəfərlə danışıq səsini eşitdim.

Səngərin pərdəsi kənara çəkilmişdi. Aramla hacını tanıdım, amma o biri iki nəfəri ilk dəfəydi görürdüm. Dördü də generatorlar səngərinə tərəf getdi. Ondan sonra Əbu Şərifin qarovul səngəri gəlirdi, sonra da tunelə getmək olurdu.

kitaboxu.com

Hacının yanına qaçdım, digərlərindən aralananda dedim:

- Hacı, nə olub?

- Tanımırsan, eləmi? – deyə güldü.

- Kimi?

- Bu kişiləri.

- Yox.

- Polkovnik Səyyad Şirazi, - deyə başının işarəsi ilə birinci kişini göstərdi, sonra o birinə işarə ilə əlavə etdi: - O da polkovnik Rəzmidir. Tunelə baxmaq istəyirlər.

Təəccübdən donmuşdum. Polkovnik Rəzmini bir dəfə görmüşdüm, Səyyadı isə yox.

- Hacı, mən də gəlim? – yavaşca dedim.

- Niyə də yox?! – dedi, sonra addımlarını yeyinlədib polkovnik Rəzmi ilə çiyin-çiyinə gedən Arama yaxınlaşdı. – Bu da ağa İlyasdır, tunelin kankanlarından.

Rəzmi dayanıb mənə əl verdi. Səyyad da eşidib dayandı, salam verdi və hamımız birlikdə tunelə doğru yolumuza davam etdik. Əbu Şərif hərbi salam verdi və biz qaranlıqda tunelə yaxınlaşdıq. Tunelin mövqeyini qaranlıqda da yaxşı bildiyimizə görə hacı ilə mən öndə gedirdik. Girişə enəndən sonra leytenant Aram əlindəki fənəri yandırdı. Səyyad tuneldə bir neçə addım gedəndən sonra dönüb hacıya dedi:

- Həqiqətən, ustasan, usta!

kitaboxu.com

Mən hacıdan da çox sevinib güldüm. Hacı dedi:

- Bir qrupun zəhmətidir, tək mənim yox.

Səyyad hələ tunelin girişində olan Rəzmiyə baxıb dedi:

- Bu tuneli sənin sərəncamından çıxarıram. Bu tuneldən böyük bir əməliyyatda istifadə olunmalıdır. Mən göstəriş verməyincə buradan istifadə etməyəcəksiniz. Bu tunel bizə böyük kömək edəcək!

- Oldu, - Rəzmi dedi.

Bu zaman kapitan Mirhüseyni qaranlıqdan tunelə girdi. Bizə o qədər baş çəkmişdi ki, tunelin yolunu bilirdi.

Səyyad sözünə davam etdi:

- Ordu ilə korpusun müştərək qərargahı olan Kərbəla qərargahı bu bölgəni mənə verəndə çox narahat olmuşdum. Bu böyük sipərin arxasında düşmənin o qədər istehkamları var ki, biz bu açıq ərazidən necə hücum etsək, çoxlu şəhid verəcəkdik. Mən qiyamət günü şəhid ailələrinə cavab verəcəyəm, xalqın övladlarını bu şəkildə güllə qabağına göndərə bilmərəm.

O, əlini hacının çiyninə qoyub dedi:

- Siz mənim bu narahatlığıma son qoydunuz. Belə böyük bir tunel isə böyük bir əməliyyat tələb edir.

Səyyad danışa-danışa mənim ürəyim daha bərk döyünürdü. Üzüm qızarmışdı. Tunelin divarlarını

kitaboxu.com

qucaqlayıb ağlamaq istəyirdim. Səyyad hacını qucaqlayıb öpdü və dedi:

- Bizim boynumuzda böyük haqqınız var. Nə istəyirsiniz, deyin, can-başla hazırıq!

- Mən yalnız sizin sağlığınızı istəyirəm, - deyə hacı Səyyadın çiyinlərini öpdü.

- Neçə uşağın var, hacı?

- Dörd; iki oğlan, iki qız.

- Allah saxlasın! Siz yaxşı tədbir düşünmüsünüz. Sizin bu kreativ tədbiriniz İran xalqının, xüsusən də Yəzd əhalisinin qüruruna səbəb olacaq.

Gülüşümü üzümdən toplaya bilmirdim. İçəri qaranlıq olmasaydı, məni görüb hamıdan çox sevindiyimi bilərdilər. İşimizin bu qədər əhəmiyyətli olduğuna inana bilmirdim. Hamı qayıdıb tuneldən çıxdı. Fənəri söndürdülər və qaranlıqda geri qayıtdıq. Səyyad, Rəzmi və Mirhüseyni MUTT avtomobilinə mindilər. Mən də orada dayanmışdım. Maşın gedəndən sonra hacı səngərə sarı qayıtdı.

Leytenant Aram əlini çiynimə qoyub dedi:

- Gün qalxmamış oyanmalısan. Bilirsən ki, əsgəri kimsə yuxudan oyatmır. Çətin işin sabahdan başlayır.

- Çətin iş tunel idi, o da bitdi. Elə deyil?

- O ki, elədir, - deyə güldü. – Amma daha mühüm işlər var. İndi əməliyyata qədər bu tuneli qorumalıyıq.

Gülüş üzümdən getdi.

kitaboxu.com

- Yəni hacı əməliyyata qədər burada qalacaq?

- Yox, onun üçün başqa bir şey düşünmüşəm, - dedi, sonra sağollaşdı və biz ayrıldıq.

kitaboxu.com

# Beşinci fəsil

*Hafiz, sənin borcun yalnız dua etməkdir,*
*İşin olmasın ki, eşitdi, ya eşitmədi.*

**Kamalabad, 22 yanvar, axşam**

Günbatan çağı kəndin girişinə çatıb piyada evə doğru getdiyim yerdə Hacı İslam məni gördü. O, məscidin önündə eyvanda oturub azanı gözləyirdi. Onu görən kimi məktubda yazılanlar yadıma düşdü, bu təsadüfi görüşün yaxşı bitməyəcəyindən qorxdum.

Məni görməsin deyə küçəyə dönmək və başqa yolla evə getmək üçün addımlarımı yavaşıtdım. Buna baxmayaraq, məni gördü. Uzaqdan yaxşı ayırd etməyib ayağa qalxdı və mənə baxmağa başladı. Əmin olandan sonra mənə sarı gələ-gələ:

- Salam, İslam döyüşçüsü! – ardınca da salavat deməyə başladı.

kitaboxu.com

Səsi o qədər hündür idi ki, məsciddən iki nəfər də çıxdı. Əcəb işə düşmüşdüm! Nə qayıda bilirdim, nə qaça, nə də başımı aşağı salıb evimizə gedə.

Hacı İslam məni məscidə apardı. Hamı məni dövrəyə aldı. Hacını soruşurdular. Yaralanıb-yaralanmadığımı bilmək üçün qol və ayaqlarıma baxırdılar.

Biri dedi:

- Yaralanıb. Baxın, üzündə ləkələr var.

- Yox, bu çoxdan vardı, Kəhnucda olub, - Hacı İslam dedi.

Tuneldən və gördüyümüz işlərdən danışmağa icazəm yox idi. Mövsümi çayda nə görmüşdümsə, danışmağa çalışırdım: səngər düzəltmək, ərzaq maşınının vurulması, buldozer sürücüsünün şəhid olması... Səyyad Şirazini gördüyümü də demədim. Sözüm bitəndə isə azan köməyimə gəldi.

- Hacı İslam, mən gedim, dəstəmaz alım, - deyə çantamı götürdüm.

- Çantanı hara aparırsan? – deyə Hacı İslam onu əlimdən aldı. – Get, tez gəl. Hacı ağa səni gözləyəcək.

Bu zaman kəndin ruhanisi olan hacı ağa məscidə girdi, mənimlə çox hörmətlə görüşüb dedi ki, səni gözləyirik; get, dəstəmaz al, gəl.

Bu mərəkədən heç bir qaçış yolu yox idi. Cəbhəyə getməzdən qabaq arzu edirdim ki, belə görülüm, hamı

kitaboxu.com

başıma toplaşıb mənə hörmət etsin, hətta camaat namazını mənə görə bir neçə dəqiqə gecikdirsin. İndi isə qorxurdum ki, nə qədər çox sual-cavab etsələr, çaşıb tunel barədə ağzımdan bir söz qaçıraram.

Dəstəmaz aldığım yerdə bir nəfər arxadan belimə bərk vurdu.

- Ağa İlyas!

Əhməd idi. Məni bərk qucaqladı. Çox çalışdım ki, yaş əllərim ona toxunmasın, amma olmadı. Bütün beli islandı, bir söz də demədi. Üçüncü cərgədə oturanda hacı ağa dedi ki, ön cərgəyə keçim. Bu zaman isə dayımı gördüm. Qeyri-ixtiyari olaraq ona yaxınlaşıb salam verdim. O da salam verdi və başını əyib guya yanında oturmuş kişi ilə danışmağa başladı:

- Bizim bağımızın suvarılma növbəsi bu axşam idi, düzdür?

Kişi çaş-baş qaldı, dayımın niyə məni saymayıb bağın suvarılmasını soruşduğunu anlamadı. Mənsə səbəbini bilirdim. Yerimə qayıtdım və birinci cərgəyə keçmədim.

İkinci namazın salamlarını deyib qurtaran kimi çantamı götürüb ildırım sürətilə qaçdım. Əhməd nə qədər çağırdısa, dedim:

- Hələ anamı görməmişəm, evə getməliyəm!

Anam məni görən kimi başımı sinəsinə sıxıb o ki var ağladı. Niyə məzuniyyətə getməmiş, məktubla

kitaboxu.com

kifayətlənib qəlbini qırmışam deyə şikayətlənəcəyini gözləyirdim, amma bir söz demədi. Sanki o da dəyişmişdi, Kəhnucdan gələndə məni hamının yanında balaca bir uşaq kimi əzizləyən adam deyildi. Cəbhənin nə qədər faydası toxunmuşdu mənə!

Anam əcəbsəndəl, şorba və toyuqplov bişirmişdi.

- Ana, məgər mənim yeməyə nə qədər yerim var?! – dedim.

Əvvəl çuqun kasaya şorba çəkib mənə verdi və dedi:

- Bir gün burdasan. Nə sevirsənsə, bişirəcəyəm, sən də gərək yeyəsən. Çox qala bilməzsən?

- Yox, ana, ezamiyyət vərəqəm göndərilib, vaxtında hərbi hissədə olmalıyam.

Bunu deyəndən sonra birdən ona yazığım gəldi. Gələr-gəlməz təlimə getməliyəm deyə necə mənasız israr edirdim! Anamı bu qədər gözüyolda qoyduğumu unutmuşdum. Gözləri qapıda qalmışdı, indi də gizlənqaç oyunu kimi bir göz qırpımı qədər qalacaqdım.

- Ana, bağışla, gərək çox qalaydım. Təlimdən sonra da birbaş cəbhəyə getməliyəm. Amma öncələr məzuniyyətə gələ bilərdim; öz təqsirim oldu.

Anam öz aş kasasını xalçanın üstünə qoyub qarşımda dizləri üstə oturdu, alnımdan öpdü, üzümü əlləri ilə tutdu.

kitaboxu.com

- Boyuna qurban olum, oğlum! Sən nə vaxt böyüyüb belə kişi oldun?! Mən kiməm ki, Allah döyüşçüsünü bağışlayım?! Özümü saxlaya bilməyib ağlayıramsa, səni getmək həvəsindən salıramsa, sən məni bağışla. Sən getməlisən; haranı uyğun görürsənsə, ora getməlisən. Mən də dua edəcəyəm ki, həmişə salamat olasan.

Burnum göynəyirdi. Gözlərim göynəməsin və məni ağlamaq tutmasın deyə əlimdən gələni edirdim.

Dərin nəfəs alıb dedim:

- Həmişə qulluğundayam, ana!

- Qulluq sahibi sənsən! – deyə anam çiynimə vurdu və ağladığı yerdə birdən güldü. Mən də güldüm. Anam heç vaxt belə danışmamışdı. Düzü, heç mən də belə danışmamışdım.

Şam süfrəsi sərilmişdi. Toyuqplovu əcəbsəndələ qarışdırıb elə yeyirdim ki, sanki aclıqdan çıxmışam. Bu zaman qapı döyüldü, dayımın yoldaşı, Siddiqə, Fatimə və onun yoldaşı içəri girdilər.

Başımı döndərib Siddiqəyə baxmağa cürət etmirdim. Fatimənin yoldaşı mənimlə çox hörmətlə danışır, cəbhədən soruşurdu. Mən də bir neçə alovlu cümlə qurdum.

Anam qonaqlara boşqab gətirməyə gedəndə dayım yoldaşı:

kitaboxu.com

- Biz yemək yemişik. Çayı birlikdə içək deyə gəldik. Mən çay gətirərəm, - dedi və ayağa qalxıb özü mətbəxə keçdi.

Fatimə əcəbsəndəl qazanına bir çırtma vurub dedi:

- Bibi, bu əcəbsəndəlinə söz ola bilməz!

Anam öz boşqabını Fatimənin önünə qoyub dedi:

- Ye, qızım. Nuş olsun!

- Bu gonbul xanım indi hər şeyə yerikləyir, - deyə dayım yoldaşı mətbəxdən dilləndi.

Fatimə gülüb əcəbsəndəldən yeməyə başladı. Onun yoldaşına baxıb dedim:

- Mübarəkdir!

- Sağ olun, - qızarıb dedi.

Fatimənin isə vecinə də deyildi. O, mənə bacı kimi idi. Mənə dedi:

- İlyas, sovqat gətirməmisən? Topdan, tüfəngdən...

- Top-tüfəng?! – deyə yoldaşı güldü.

- Balaca olur ha; güzgünün qabağına qoyurlar, - Fatimə yeməyi çeynəyə-çeynəyə dedi.

- Giliz. Eləmi?

- Gələn dəfə gətirərsən.

- Yaxşı, - ona baxıb dedim, sonra gözucu Siddiqəyə nəzər saldım. Mənə baxırdı. Bir neçə saniyə bir-birimizə baxdıq, dayım yoldaşı əlində çay sinisi gələndə isə üzümü çevirdim.

kitaboxu.com

# Altıncı fəsil

**Çay yatağı, 11 mart, sübh tezdən**

Bilmirəm bu adsız-nişansız yerə nə vaxt alışmışdım ki, bu qədər darıxırdım. Sanki bir parçam burada qalmışdı və indi ardınca gəlmişdim. Axırıncı gün hacı buranın torpağından bir ovuc götürüb mənə göstərəndə boşuna deməmişdi: "Mən bu torpaqla nəfəs alıram və bir gün bu torpaqda rahat yatacağam. Odur ki, niyə buna can yandırmayım?! Niyə bunu sevməyim?!"

Mən də hacı kimi olmuşdum. Şübhəsiz ki, hissiyyatım hacı kimi güclü deyildi, amma bu torpaq hər kəsi özünə cəzb edirdi. Elə gücü vardı ki, məni özünün bir parçası hesab etdiyini bilir, mən də onu bir parçam sayırdım.

Məktub yazılmış və təlimim bir neçə gün tez bitmişdi. Hər nə idisə, mən tunel ailəsinin bir üzvü olmuşdum və onun təhlükəsizliyini mənə etibar edə bilirdilər.

kitaboxu.com

Hələ günəş qalxmamış məni gətirən hərbi avtomobil körpüdən keçib getdi. Çantamı çiynimə atıb səngərlərə tərəf gedirdim. Leytenant Aram səngərdən çıxdı və mən onu görən kimi çantamı yerə qoyub hərbi salam verdim. Bu çay yatağında daha kankan deyildim ki, hamı qayğıma qalsın və hərbi qaydalardan da azad olum. Artıq ordunun bir əsgəri idim və hərbi intizama əməl etmək borcumdu.

Bölgünü elə aparmışdılar ki, mən çavuş Üçtəpə ilə işləyəcəkdim. Tunelin mühafizəsi ona tapşırılmış və qərara alınmışdı ki, yeni gələnlər tunel barədə heç nə bilməsinlər.

Leytenant Aram vəzifələrimi izah edəndən və artıq sərbəst olandan sonra Əbu Şərifin yanına getdim. Onun üçün darıxmışdım. Hələ də tam ciddiyyətlə tuneli qoruyurdu. Səngərinin girişindəki çuvalların üstündə onun yanında oturdum. Bahar havası vardı, çay yatağında sərin meh əsirdi.

kitaboxu.com

- Bu qədər ehtiyat lazımdır? – deyə soruşdum. - Tunelin qazıldığı bilinməməlidir, deyilsə, heç kim də deməz!

- Sən yatmısan, sadəlövh cavan, - deyə gülüb çiynimə vurdu, - tunelin xəbəri yayılıb.

Birdən belim dondu və gözlərimi Əbu Şərifin üzünə dikib qaldım. Bunu gülərək dedi, amma özümü onun

zarafat etdiyinə inandırmağa nə qədər çalışdımsa, olmadı.

- Doğru deyirəm. Necə yayıldığı tam bəlli deyil, amma şəhərdən belə bir xəbər gəlib. Deyəsən şəhərin ümumi hamamına gedən əsgərlər orada çox uzun bir tunelin qazıldığından danışıblar.

Dilim tutuldu. Yəni bütün zəhmətlərimiz hədər getdi?

Qırıq-qırıq səslə dedim:

- İndi necə olacaq?

- Qorxma, - deyə Əbu Şərif yenə güldü. – Elə bilirsən, təkcə sənin canın bu tuneldə qalıb?! Çoxları bunu sevirlər. Yadındadır, buldozerlər üçün nə etdik?

- Səsucaldanlar?

- Hə...

- Səsucaldanların tunellə nə əlaqəsi var? – deyə başımı buladım. – Tunelin səsi yoxdur ki, hər tərəfə yayasan.

Əbu Şərif bu dəfə bərkdən güldü, başını yelləyib dedi:

- Səndən çox xoşum gəlir, cavan! Tunelə səs düzəltmək! Bilirsən bir tunelə necə səs düzəltmək olar? Hər yerdə belə bir şayiə yayılır ki, Şuşdan Kərxə körpüsünə və Dehloranın yaxınlığına qədər bütün cəbhədə tunel qazırlar. Üstəlik, boş da oturmurlar ha, bəzi yerlərdə çox dayaz və sadə tunellər də qazırlar.

kitaboxu.com

- Doğrudan?!

- Hə. Heç biri sizin tunel kimi deyil. Dərinlikləri azdır, adətən üzərlərinə taxta döşəyirlər. Uzunluqları da çox olmur. Amma... uzunluqları olmasa da, səsləri var. Beləliklə, səsucaldanlardan tunelin səsi çıxır və sizin tunelinizdən təhlükə uzaqlaşır.

- Məni qorxutdun, - deyə ayaqlarımı toplayıb çuvalın üstünə qoydum.

- Qorxma. Bu tunel hamımız üçün əzizdir.

Doğru deyirdi, tunel hamıya əziz idi. Deyirdilər ki, fevraldakı yağıntıların birində tunelin istirahət otaqlarından birinin tavanının bir hissəsi çöközübmüş. Çavuş Üçtəpə, kapitan Mirhüseyni və bir neçə etibarlı əsgər gedib içəridən möhkəm dirəklərlə tavan düzəltmişdilər. Tunel 24 saat mühafizə altındaydı. Hamı çalışırdı ki, hacının və digərlərinin əziyyəti hədər getməsin.

Axşama qədər çay yatağında gəzdim. Axşam tunel üçün ilk qarovul növbəm idi. Əbu Şərifin səngərindən keçib çiynimdə silah müşahidə postuna yollandım. Səngərin düzəldilməsində özümüz də iştirak etmişdik, amma hazır olandan sonra içinə girməmişdim. İndi mənimçün fəth etdiyim yeni bir qala kimi idi.

Səngərin yerində oturdum, başımı torpaq çuvalına dayayıb müşahidə dəliyindən qarşıya baxdım. Qaranlıq tikanlı məftillərə qədər uzanıb gedir, sonra yoxuş

kitaboxu.com

gəlirdi, arxasında da iraqlılar. Ulduzlardan başqa heç bir işıq görünmürdü. Daha diqqətlə baxdım; kolların arasında bir siçan da tərpənmirdi. Birdən məni gülmək tutdu. Möhtəşəm iş görmüşdük! Hansı iraqlının ağlına gələrdi ki, biz yerin altında səssiz-səmirsiz nələr etmişik, onlar üçün hansı planlar cızmışıq?!

Göydəki ulduzlara baxdım. Birdən Siddiqənin mənə son baxışı yadıma düşdü. Gözlərimi göydən çəkib yenə tunelin yoluna baxdım. Birinci axşam məsciddə rastlaşandan sonra bir də dayımı görməmişdim. Dayım yoldaşı isə ertəsi gün gəlmişdi. Anam son ana qədər mənə heç nə demədi. Geyinməyə başlayanda dedi ki, hacının anası gəlib və onunla danışıb. Sonra özü gedib dayımla da danışıb.

Utandığımdan heç nə deyə bilmirdim. Anam elə bunu bildiyinə görə tez deməmiş, məni narahat etmək istəməmişdi. Güldüm; səngərdə tək-tənha öz-özümə güldüm. Bu tunelə borclu idim; hacıya borclu idim. “Tunelin düşmənə hücum üçün gəlmiş əsgərlərlə dolacağı günə qədər burada qalmalıyam” – deyə düşündüm.

***

### Çay yatağı, 14 mart, gecəyarı

Yuxumda kimsə bağırırdı. Qara açıq bir ağız görürdüm, səs də gah gəlir, gah gəlmirdi. Yerimdən

kitaboxu.com

sıçradım. Hamı oyanıb qalxmışdı. Yəni iraqlılar hücuma keçmişdilər? Bəs qışqıran kim idi? Həmin gecə qarovul növbəsi olan bir əsgər idi.

- Qalx... Qalx...

Hamı oyanmış olsa da, o, mənim başım üstə dayanıb deyirdi ki, qalxım. Məgər düşmən təkcə mənə hücum edib? Beynim dumanlı halda başımı yelləyib bildirdim ki, nə olub? Əsgər əli ilə səngərin bayırını göstərib dedi:

- Çavuş Üçtəpə dedi ki, tez bura gəlsin; dərhal!

- Yalnız mənmi?

- Hamıya əmr verilib, amma sən indi getməlisən.

Paltarımı maykamın üstündən əynimə keçirib çəkmələrimi yarıya qədər geydim və komandir səngərinə tərəf qaçmağa başladım. Yolda leytenant Aramın Əbu Şərifin səngərinə doğru qaçdığını görüb yerimdə dondum. "Tunel" – deyə düşündüm.

Leytenant mənə çatanda hərbi salam vermək istədim, amma üst-başım çox bərbad idi. Axırıncı düyməmi bağlamaq istəyəndə yanımdan keçib dedi: "Qaç!"

Çəkmələrimin bağını bağlayınca bir neçə saniyə gecikdim, sonra ardınca qaçıb Əbu Şərifin səngərindən qabaq ona çatdım.

- Tunelə nə olub? – deyə soruşdum, amma cavab ala bilmədim.

kitaboxu.com

Tunelin fikri məni dəli etmişdi, yadımdan çıxmışdı ki, mən əsgərəm, leytenant da zabit.

Səngərin önündə Əbu Şəriflə Üçtəpənin yanında bir əsgər dayanmışdı.

- Ətraflı danış; nə gördün? – deyə Əbu Şərif əsgərdən soruşdu.

Əsgər tövşüyürdü. Rənginin qaçdığı zəif ay işığı altında da görünürdü.

- Bir şey görmədim. Çox qaranlıq idi. Bulud vardı, bu zəif işıq da yox idi. Səslərini eşitdim. Yavaşca danışırdılar. Sonra tuneldən əl arabalarının taqqıltısı gəldi. Bu çöllükdə taqqıldayacaq başqa nə var ki?! Arabalar idi. Onlar da tunelin içindəki otaqlardadır. İndi nə edək?

Leytenant Aram əlini üzünə çəkib Üçtəpə ilə Əbu Şərifə baxdı. Hər ikisi başını buladı.

- Mərkəzlə əlaqə saxlayım, görüm nə deyirlər, - leytenant Aram bunu deyib komandir səngərinə doğru getmək istəyəndə mənə baxıb əlavə etdi: - Ordu əsgəri bu qədər səliqəsiz olmur. Bu dəfə səni cəzalandırmıram.

Əynimə baxdım. Köynəyimin yarısı şalvardan bayıra çıxmışdı. Hərbi salam verdim, üzünü çevirən kimi tez paltarlarımı səliqəyə saldım, sonra isə əsgərə yaxınlaşdım.

kitaboxu.com

- Sən səhv eşitmisən, - dedim. - Adam tək olanda bəzi səslər eşidir.

- Əminəm, - deyə əsgər başını tərpətdi, - vallah, əminəm!

Dayanıb düşünməyə başladım. Başımıza haranın külünü tökəcəkdik?! İraqlılar bura necə gəlib çıxmışdılar? Yəni minalardan və tikanlı məftillərdən keçib tunelin çıxışını açmışdılar? Bəlkə, elə o başdan, ayaqlarının altından yol açıb tunelə giriblər? Biz tunelin haraya qədər uzandığını hələ bilmirdik. Sanki ürəyimin başına ağır bir şey yapışmışdı.

- Yəni iraqlılar bizim tunel qazdığımızı əvvəldən bilirmişlər? – yavaşca dilləndim.

Əbu Şərif başını yelləyib cavab verdi:

- Bacardığımız qədər qoruyurduq. Amma nə etsək də, tunelin söhbəti bölgəyə yayıldı. Düşmənin beşinci kolonu da şəhərdə çox fəaldır.

Yerə uzandım. Daha iki rəisimin qarşısında intizamlı əsgər ola bilmirdim. Biz bu tunellə nəfəs alırdıq. Leytenant Aram bir neçə əsgərlə qayıtdı. Tunelin qazıntısına kömək edənlər idi. Cəld ayağa qalxdım. Ürəyimin gup-gup səsinin qarşısını almalı idim.

- Axtarış komandası yaratmalıyıq, - deyə Aram bildirdi. - Tunelə girib iraqlıların orada olub-olmadığını dəqiqləşdirəcəyik. Sonrasına da hazır

kitaboxu.com

olmalıyıq. Əgər iraqlılar tuneli öyrənmişlərsə, elə bu gecə onu partladacağıq!

- Yox! – deyə qışqırdım, sonra isə Aramın gözlərinə baxdım. Heç nə deməməli idim. O, mənim komandirim idi, mən də əsgər. Amma tuneli partlatmaq olmazdı. Bir neçə aylıq işin, bu qədər əziyyətin nəticəsi... Hacı bunu eşitsəydi, nə hala düşərdi!

- Tunelin sənə necə əziz olduğunu bilirəm, - deyə Aram əlini çiynimə qoydu. - Hamımız üçün əzizdir. Amma düşmənlərin əlinə keçməsinə göz yuma bilmərik. Əgər onların əlinə keçsə, bizim zəhmətimizin bəhrəsindən bizə qarşı istifadə edərlər. Əvvəl partlatmaq üçün hazırlıq görüm, sonra gedək irəli, - sonra Əbu Şərifə sarı dönüb əlavə etdi: - Biz gedirik. Əgər yarım saata qayıtmasaq, tuneli partladarsan.

Əbu Şərifin üzünə baxdım. "Yox" deməsini gözləyirdim, o isə razılıqla başını yelləyib gətirdikləri partlayış vasitələrinə doğru getdi. Kənarda dayanıb baxmağa başladım. Yalnız baxır və nə nə etdiklərini tam anlamırdım. Əsgərlər partlayış maddələrini tunelin yanına aparacaqdılar. Biz bayıra çıxmasaydıq, iraqlılarla və tunellə birlikdə havaya uçacaqdıq.

- İstəsən, sən gəlməyə bilərsən, - deyə Aram mənə sarı döndü.

Başımı buladım. Tunel havaya uçacaqdısa, orada olmalı ilk adam özümdüm. Təlimə gedib qayıtmışdım

kitaboxu.com

ki, ordunun əsgəri olum, yenə bu tuneldə qalım, buradan keçib düşmənə hücum edənlərin arasında olum. Odur ki, geri çəkilmək vaxtı deyildi. Ən doğru qərar bu idi. Tunel daha bizim deyildisə, düşmənimizin də olmamalı idi. Bizim olmayacaqdısa, heç kimin olmamalı idi.

Qaranlıqda ehmalca tunelə yaxınlaşdıq. Heç bir səs gəlmirdi. İraqlılar içəri girmiş olsaydılar da, bunu bilindirəcək qədər axmaq deyildilər. Onlar üçün bu tuneldən yaxşı nə ola bilərdi?! Biz bu tunellə gizlicə onların yanına getmək istəyirdik, indi isə onlar havayı şəkildə eyni yolla bizim başımızın üstünü ala bilərdilər.

Üçtəpə və axtarış komandası tunelə birinci girəcəkdilər. Bütün tuneldə yeddi istirahət otağı vardı. Otaqlar yoxlandıqca leytenant Aram və digərləri də irəliləyirdilər. Mən Üçtəpəyə yapışdım, heç bir etiraz olmadan onunla və başqa iki əsgərlə birlikdə tunelə girdik.

Tunel zülmət qaranlıq idi. Oranı heç vaxt elə qaranlıqda görməmişdim. Mən oranın hər qarışını əzbər bilirdim. Bir kor öz evində necə sərbəst hərəkət edirsə, mən də elə edirdim və qorxmalı olan vardısa, o da iraqlılar idi.

Tunel ensiz idi, cəmi bir nəfər gedə bilirdi. Mən önə keçmək istəyəndə çavuş Üçtəpə əlinin işarəsi ilə bildirdi ki, ondan arxaya keçim. O, iraqlılarla, yəqin ki,

kitaboxu.com

məndən yaxşı bacarardı, üstəlik, mənim komandirim idi, sözünün üstünə söz deyə bilməzdim.

Onun ardınca tuneldə irəliləməyə başladım. Əlimi divardan tutur, külünglərin yerinə toxunurdum. Heyif idi; tökülən tərlərə, kəsilən nəfəslərə, yorğunluqlara heyif idi; düşmənə güclü bir zərbə vurmadan bu qədər əziyyətin bir gecənin içində havaya sovrulması heyif idi...

Üçtəpə dayanıb əli ilə mənə işarə verdi. Qaranlıqda əlini görməsəm də, hərəkətini hiss edirdim. Mən də dayanmaları üçün arxamdakılara işarə verdim. Birinci istirahət otağı sol tərəfimizdə idi. Tuneldə heç bir səs yox idi. İşıq da gəlmirdi. Otaq, yəqin ki, boş idi, amma Üçtəpə ehtiyatı əldən vermirdi. Silahı atəşə hazır vəziyyətdə məndən uzaqlaşıb otağa girdi, sonra isə ratsiyadan sakit danışıq səsini eşitdim. Birinci otaq döyüşsüz fəth olunmuşdu. Üçtəpə bunu rabitə cihazı ilə tunelin girişində dayanmış leytenant Arama məruzə edirdi.

Qaranlıqda Üçtəpənin ardınca yavaşca digər otaqlara da girdik. Beşinci otaqdan sonra Üçtəpə birdən dayandı. Səs yox idi; olsaydı, mən də eşidərdim. Deməli, nəsə görübmüş. Çiyinlərinin üstündən boylanıb irəli baxmaq istədim, amma o, ucaboy və enlikürək idi, tunelin bütün enini tutmuşdu. Bir qədər geri çəkilib mənə toxundu.

kitaboxu.com

- Burada işıq var, - dedi, - hazır olun!

Deməli, tuneldə işıq görmüşdü. Nəydisə, altıncı otaqdaydı. Hazır idim; J3 silahım da atəşə hazırdı. Bu silahım olmasaydı da, tuneli ələ keçirmiş hər bir iraqlının qırtlağını dişlərimlə qopara bilərdim.

Üçtəpə sürətlə otağa girdi və mən bir anlığa içəridə zəif işıq gördüm. Onun ardınca mən də cəld içəri girdim. Üçtəpə otağın ortasında durdu. Tavan çökmüş, arabalar əyri-üyrü şəkildə yerə düşmüşdü. Səma görünürdü. Üçtəpə əli ilə susmaq işarəsi verdi.

Heç bir iraqlı yox idi. Tunelimizə heç kim girməmişdi. Mən sevinmək, sevindiyimdən qışqırmaq istəyirdim, amma Üçtəpənin işarəsindən sonra bayıra çıxıb digər iki əsgərin yanında dayandım. Özü də bayıra çıxıb təkbaşına irəliləməyə başladı. Yeddinci otağa baxmaq istəyirdi.

Bir neçə dəqiqədən sonra qayıdıb ratsiya ilə əlaqə saxladı:

- Təhlükə yoxdur. Altıncı otağın tavanı çöküb, bu gecə təmir etməliyik. Siperə yaxındır, sabah görə bilərlər. Tuneldə səs salmaq da olmaz. Səs dolaşıb bu hissədən çıxa bilər, sonra tunelin yeri bilinər.

Başımın hərəkəti ilə Üçtəpənin bütün sözlərini təsdiq edirdim, halbuki mənim təsdiqimə heç bir ehtiyac yox idi. Hamısını doğru deyirdi. Tuneldə heç

kitaboxu.com

bir iraqlı olmasa da, təhlükə hələ tam aradan qalxmamışdı.

Geri qayıtdıq. Qərara alındı ki, Üçtəpə, mən və digər üç əsgər köməkləşib sübhə qədər tavanı düzəldək. Bütün lazımi alətləri qaranlıqda və səssizcə tunelə gətirmək lazım idi. Saman çuvallarını çay yatağında belimizə atıb əyilə-əyilə tunelə gətirdik. Gün doğmadan işlər bitsin deyə Əbu Şərif də qarovulu buraxıb bizə kömək edirdi.

Çuvalları altıncı otağa apardıq. Üçtəpə onları gətirdiyimiz millərlə tavanın uçmuş hissəsinə bərkitdi, sonra onları palçıqla yapışdırıb dedi:

- İndi gərək gözləyək, qurusun. Birdən-birə sementləmək olmaz; tökülə bilər. Bir az keçsin, milləri çıxarıb sementlə bərkidərik.

Doğru deyirdi. Palçıq və saman çuvalları ilə balaca və möhkəm bir tavan düzəldirdi.

Günəş çıxmadan çay yatağına qayıtdıq. Səngərlərimizdə yataq deyə leytenant hamımıza istirahət zamanı verdi. Amma gözlərimə yuxu getmirdi. Tuneldə bir şey yarımçıq qalmışdı; Üçtəpə təmiri yekunlaşdırmağa gedəndə mən də getməli idim.

Əbu Şərifin yanına qayıdıb səngərinin önündə oturdum.

- Ay bala, get, bir az yat, - Əbu Şərif dedi, - gözlərin qan qoyub.

kitaboxu.com

Küsmüş uşaq kimi başımı yelləyib dedim:

- Yox. Tuneldə işləməyə gedəcəklər, mən də oyaq olub getmək istəyirəm.

Əbu Şərif gülüb:

- Heç olmasa, gəl, burada uzan, - dedi və səngərindəki ədyalı kənara çəkdi. – Mənim postumdan keçmədən heç kim tunelə gedə bilməz. Kim getmək istəsə, səni oyadaram.

Yaxşı təklif idi. Yavaş-yavaş gözlərim yumulurdu. Əbu Şərif gözlərim önündə dalğalanırdı. Səngərin yerinə uzananda dedi:

- Qorxma, oğlan. Hacının gördüyü iş, qazdığı tunel hamımıza əzizdir. Onu həyatımız bahasına olsa da, qoruyacağıq. Hacı böyük adamdır. Bilirsən ki, tunelin işi qurtaranda, məzuniyyətə çıxmaq istəyəndə ona bir təşəkkürnamə və on beş ədəd “Azadlıq baharı” qızılı verdilər?

- Ona halaldır, - uzandığım yerdə gərnəşib dedim, - çox əziyyət çəkdi.

Əbu Şərif mütəkkəni mənə tərəf itələdi. Götürüb başımın altına qoydum.

- Hə, halal haqqı idi, - dedi. – O, daha çoxuna layiq idi, amma o qızıllardan birini də götürmədi, hamısını batalyona qaytarıb dedi ki, cəbhə üçün xərclənsin. Dedi ki, bu təşəkkürnamə vərəqi mənim bəsimdir; mən

kitaboxu.com

Allah üçün işləmişəm. Sonra da getdi. O, Allahdan ötrü əziyyət çəkdi, işinin qarşılığını da Allahdan alacaq.

Bir söz demədim. Gözlərimi yumdum və hacı gözlərim önündə canlandı. Onun üçün çox darıxmışdım.

***

**Çay yatağı, 17 mart, gündüz**

Hamımız hazırlıqlı vəziyyətdə məşq edirdik. Yeni gəlmiş könüllülərə təlim keçirilirdi. Mənim vaxtımın çoxu tunelin müşahidə postunda keçirdi. Çay yatağında piyada yürüş və qaçışlarımız olurdu. Hava çox gözəl idi. Çayda meh əsirdi, arabir yağıntı olanda səngərlərə girirdik. Yağıntının güclənməsindən, bəzi uşaqların dediyi kimi, at quyruğu yağışının yağmasından çox qorxurduq. Yağış çoxalsaydı, bəlkə də, yuxarıdan çay yatağına su dolar və bütün səngərləri yuyub aparardı. Oradan çıxıb iraqlıların görüş zonasına da yerləşə bilməzdik.

Yağış güclənəndə tunelə görə narahat olurdum. Hər yağıntıdan sonra Üçtəpə ilə birlikdə tuneli yoxlayırdıq. Daha heç bir yerdə tavan çökmürdü. Məncə, altıncı otağın üstü çökək olub su yığdığına görə tavanı çökmüşdü.

kitaboxu.com

Səhər tunelə baxmağa getmişdik. Çay yatağında generatoru da yandırmışdılar. Tuneldə bir qədər irəlilədikdən sonra Üçtəpə:

- Həqiqətən də, möhtəşəm iş görüb hacı! Hamınız sənətkar imişsiniz, - deyə geri dönüb çiyninin üstündən mənə baxdı.

Sevindim. Döyüş adamı olan Üçtəpə adamı tərifləyəndə sevinməyə dəyərdi. Bir neçə ay qabaq olsaydı, bəlkə, sevindiyimdən ürəyim gedərdi.

- Mən məzuniyyətə gedəndə yoxlamağa özün tək gələcəksən, - deyə Üçtəpə bildirdi. – Səndən yaxşısı kim olacaq?!

- Məzuniyyət?!

Bunu deyəndən sonra dodağımı dişlədim. Heç bir taborda belə üzlü əsgər yox idi. Rəisimə deyirdim ki, nə məzuniyyəti?!

- İkinci övladım dünyaya gəlir, - Üçtəpə tuneldə yeriyə-yeriyə dedi. – Qorxuram ki, onu heç vaxt görə bilmərəm. Leytenant icazə versə, gedib tez qayıdacağam. Ürəyimə damıb ki, ömrümün sonuna az qalıb.

- Leytenant Aramın bütün ümidi sizədir. Siz taborun qəhrəmanısınız!

Gülüş səsi bütün tunelə yayıldı. Heç nə demədi. Geri qayıtdıq və istirahət vaxtım olduğuna görə mən Əbu Şərifin yanında qaldım.

kitaboxu.com

Günbatan çağı qarovul növbəm başlayırdı. Müşahidə səngərində oturmuşdum, bütün diqqətim tunelin ətrafında idi. Hətta bir siçan da yolunu tunelə doğru döndərsəydi, işini bitirməyə hazır idim. Atəş açmağa icazəm yox idi; amma öz əllərimlə onu boğardım.

***

**Çay yatağı, 19 mart, gündüz**

Bütün məzuniyyətlər ləğv edilmiş, Üçtəpə də getməmişdi. Çay yatağında bizə çoxlu qüvvə əlavə olmuşdu; Bəsic və korpusdan gəlmişdilər. Bir-birimizi tanımaq, xarakterlərimizlə tanış olmaq üçün birləşmişdik. Səhərdən axşama qədər məşqlərimiz olurdu. Qarovulun sayı da artırılmışdı. Əməliyyat zamanının yaxınlaşdığını təxmin etmək çətin deyildi.

Postdan qayıdanda Əbu Şərifin səngərində Üçtəpəni gördüm. Əbu Şərifə vəsiyyət edirdi. Əmin idi ki, şəhid olacaq və ikinci övladını görə bilməyəcək. Əbu Şərifə deyirdi ki, cəsədinin Ərdəbilə göndərilməsini leytenant Arama vəsiyyət etmişdir.

Hərbi salam verib səngərdən uzaqlaşdım. Üçtəpə niyə şəhid olacağını düşünürdü? O, bu qədər fiziki gücüylə bərabər – hətta Aram ona taborun qəhrəmanı deyirdi - əməliyyatdan sağ çıxmayacağını düşünürdüsə, mən necə sağ qala bilərdim?!

kitaboxu.com

Günbatan çağının alatoranlığında səngərin divarının kənarında oturdum və gözlərim səliqəli sıralarla qaranlığa sarı qaçan əsgərlərə dikilib qaldı. Çoxu tövşüyürdü. Mən şəhid olsaydım, necə olardı? Anam Siddiqə ilə qalardı...

- İlyas, leytenant Aram səni çağırır, - bir əsgər mənə doğru qaça-qaça dedi.

Ayağa qalxdım. Çay yatağında vəziyyət əla idi. Yəqin ki, mənə tunellə bağlı tapşırıq verəcəkdi.

Hərbi salam verib komandir səngərinə girdim. Leytenant Aram əl işarəsi ilə səngərin pərdəsini arxamca endirməmi istədi. Sonra "azad" işarəsi verdi və mən qarşısında oturdum.

- Yaxşı qulaq as, oğlan, - dedi. – Sabah axşamdan sən mənim əsgərim deyilsən.

- Necə yəni, komandir?

- Sabah axşamdan hacının əsgərisən. O, nə desə, elə bil ki, mən demişəm.

Ürəyim döyünməyə başladı.

- Hacı Qulamhüseyn? Gəlir?

- Bəli. Ardınca adam göndərdim. Qatarla gəlməsini gözləyə bilmərik. Danışdıq ki, təyyarə ilə Əhvaza gəlsin, oradan da bura gələcək, - dedi, sonra səsini endirib əlavə etdi: - Əməliyyat belə tez başlamayacaqdı, amma daha vaxtımız yoxdur. Hacının sağ əli olduğuna görə sənə deyirəm. Bizim əsas işimiz



kitaboxu.com

tunellədir; tər tökdüyünüz, əzab-əziyyət çəkdiyiniz şeylə. Görüm sabah nə edirsən.

- Hacı desə ki, tankın altına gir, girərəm, - deyə həyəcanla cavab verdim.

- Tunelə tank gəlməyəcək, - leytenant Aram başını bulayıb dedi, - amma əmrinə tabe olman yaxşıdır. Azadsan, get, gecə saat 4-də postda ol. İndi digər qüvvələrlə işim var.

Ayağa qalxdım və hərbi salam verib səngərdən çıxdım.

kitaboxu.com

# Yeddinci fəsil

## Çay yatağı, 21 mart, gecə

Səngərlərdən uzaqda dayanıb körpü mənzərəsinə baxmağa çalışırdım. Qaranlıqda heç nə görünməsə də, hacının gəlişini görmək istəyirdim. Hamı hazır vəziyyətdə idi, mənsə hacının yolunu gözləyirdim. Gəlməli idi. Leytenant Aram demişdi ki, bu gecə gələcək. O hacını ki, mən tanıyıram, piyada gəlməli olsa da, özünü yetirəcək. Tunel hacısız tunel deyildi, yarımçıq idi. Bu gecə vəd olunmuş gecəydi və tunel varlığını hamıya sübut edəcəkdi.

Birdən maşın səsi eşitdim. Körpünü vururdular, amma maşın körpüdən keçmişdi və artıq çay yatağının enişində idi. Qaçaraq ona yaxınlaşdım. Toyota idi. Aşağı enəndən sonra işıqlarını yandırdı. Gözlərim qamaşdı və dərhal dayandım. Maşının işıqları önündə bir kölgə yarandı. Toyota dövrə vurub getdi, işıqlarını da söndürdü. Gəldiyi yolla da geri qayıdırdı.

kitaboxu.com

Qaranlıqda yaxınlaşıb hacını gördüm, qucaqladım, o da çiyinlərimi sıxıb dedi:

- Necəsən, İslam döyüşçüsü?

- Hacı, sənin üçün darıxmışdım.

Məni özündən uzaqlaşdırıb üzümə baxdı.

- Gedək; işimiz çoxdur, - dedi.

Leytenant Aram hacını görən kimi vəziyyəti izah etdi. Əməliyyat parolu elan olunmadan heç bir iş görə bilməsək də, o an üçün tam hazırlıqlı olmalıydıq. Sayı hacının vaxtından qat-qat çoxalmış şəxsi heyət tunelə yerləşməli idi. Parol elan olunan kimi isə bütün qüvvələr tuneldən düşmənə hücuma keçəcəkdilər.

- Mən hazıram; gedim, - deyə hacı çantasından külüngünü çıxardı.

Leytenant Aram əlini hacının çiyninə vurub dedi:

- Bismillah.

Mat-məəttəl baxırdım.

- Bəs mən? – dedim.

Leytenant mənim çaş-baş qaldığımı görüb dedi:

- Hacı, köməkçi istəmirsən?

- Yox, - deyə hacı mənə baxıb başını yellədi. – Təkcə çıxışlardır. Əsgərləriniz sizinlə qalsın.

Hacı bunları deyib səngərdən çıxdı. Leytenant Aram mənə dedi:

kitaboxu.com

- Hacının əmrinə qulaq as. Ardınca get, tunelin girişində gözlə. Mən də gəlirəm. Çıxış açılmazdan qabaq şəxsi heyəti yerləşdirməliyik. Sayları çoxdur.

- Oldu, cənab komandir, - deyib hacının ardınca qaçdım. Mən bayıra çıxanda Əbu Şərif uşaqlara nə isə paylayırdı. Yaxınlaşıb gördüm ki, halqa-halqa rezinlərdir.

- Şalvarının balaqlarına keçir, - deyə bir cüt rezini mənə uzatdı. – Bir-birinə dəyib səs çıxarmamalıdır.

Çəkmə geyməyə mane olmasın deyə balaqlarımızı rezinlə yuxarı qaldırırdıq. İndi isə həmin hissəni bir daha rezinlə ayaqlarımıza yapışdırmalı idik. Mənim rezinə ehtiyacım yox idi. Tunelə ilk dəfə girmirdim. İraqlılar da heç vaxt səsimi eşitməmişdilər.

- Bunlara ehtiyac yoxdur; birinci dəfəm deyil ki, - deyə bildirdim.

Hacı yanımda dayanmışdı. Dedi:

- Lazımdır. Camaata bax. Bu qədər adamın hərəsi azca səs çıxarsa, nə olar?!

Başımı tərpədərək təsdiqlədim.

Şəxsi heyət doqquznəfərlik doqquz manqaya bölünmüşdü və mən heç birində deyildim. Qərara alınmışdı ki, mən hacının arxasında olum. Hamıdan qabaq çay yatağından çıxıb tunelə sarı getdik. Hacı dodaqaltı dua oxuyub tunelə girdi.

kitaboxu.com

Tunelin sonunda çıxışlar üç qola ayrılırdı. Hacı birinci çıxışa qalxıb külünglə qazmağa başladı. Az sonra tuneli addım səsləri bürüdü. Döyüşçülər gəlmişdilər. İndicə hava çatışmazlığı yaranacaqdı. Generatoru işə saldılar, tunel işıqlandı. Fənərimi söndürəndə leytenant Aramın hamıdan öndə bizə yaxınlaşdığını gördüm. Ordu, korpus və Bəsic qüvvələri koridora və istirahət otaqlarına doluşmuşdular.

Hacı Aramı görüb:

- Açılıb, - dedi və bir addım hündürə qalxdı.

- Qalxma, hacı, - Aram dedi, - köynəyin ağdır.

- İşimin nəticəsinin haradan çıxdığını görmək istəyirəm.

Tunelin üç qola ayrılan hissəsi enli idi, eyni zamanda bir neçə nəfər yerləşirdi.

Leytenant Aram hacının yanından keçib:

- Hacı, bura qədər zəhmət sənə düşürdü, bundan sonrası mənlikdir, - dedi və yoxuşla qalxıb bayıra çıxdı.

Hacı zikr deyirdi, mən də salavat. Tunelin haradan çıxdığını heç birimiz dəqiq bilmirdik. Aram geri qayıdıb əlinin içinə baxdı; qanayırdı. Hacı narahat halda soruşdu:

- Haradır?

Aram gülümsədi, lampaların zəif işığı altında gözləri parıldadı.

kitaboxu.com

- Ən yaxşı yerdir, hacı, bundan yaxşısı ola bilməzdi.

- Bəs əlin?

- Minalanmış sahəni və tikanlı məftilləri keçmişik, - deyə Aram əli ilə yuxarını göstərdi. – İraqlıların sipərinin düz yanındayıq. Yəni tuneldən çıxan kimi ayaqlarının altındayıq. Bizi görə bilməzlər.

- Arxalarından çıxsaydıq, daha yaxşı olardı, - qeyri-ixtiyari olaraq dilləndim, sonra isə rəisimin önündə fikir bildirdiyimə görə dodağımı dişlədim.

- Yox, onda tuneldən bir nəfər çıxan kimi görərdilər və çox şəhid verərdik. İndi isə hamı arxayın şəkildə çıxa bilər, - Aram dedi və əlini hacının çiyninə qoyub əlavə etdi: - Sən ikinci çıxışa başla, - sonra isə Üçtəpəyə işarə ilə bildirdi: - İkinci çıxış səndə.

Bu zaman Üçtəpənin arxasındakı rabitəçi dedi:

- Qərargahdandır, komandir.

Üçtəpə ilə hacı ikinci çıxışa getdi, leytenant Aram isə tunelin haradan çıxdığını və şəxsi heyətin hansı vəziyyətdə olduğunu ratsiyadan kiməsə izah etdi. Rabitəçidən uzaqlaşanda mənə dedi:

- Səyyad tuneldən ötrü narahatdır. Bu tunelə çox güvənirlər.

Sonra saatına baxıb ikinci çıxışa getdi və aşağıdan hacını çağırdı:

kitaboxu.com

- Hacı, üçüncünü açma. Uşaqlar bu iki sıraya yerləşsinlər, parol elan olunan kimi bayıra çıxsınlar. Mən birinci qapıdan, Üçtəpə də ikincidən.

Üçtəpə ikinci çıxışdan enib leytenant Aramın qarşısında dayandı:

- Cənab leytenant, mən uşağımı görmədim, - dedi. – Mən şəhid olacağam. Siz mənə bir söz verməlisiniz: cəsədimi ailəmə çatdırarsınız.

- Mən şəhid olmasam, söz verirəm. Amma hardan məlumdur; bəlkə, mən şəhid oldum, sən qaldın?

- Mənim ürəyimə damıb ki, şəhid olacağam, - deyə Üçtəpə başını yellədi.

Üzüm qızarmışdı, leytenant Aramın yerində olsaydım, nə cavab verəcəyimi bilmirdim. Leytenant yavaşca söz verdi və birinci çıxışa qalxdı. Mən də onun ardınca qalxdım. Qaranlıqda hamımız bir-bir yavaşca tuneldən çıxıb sipərə söykənirdik. Dünən gəlmiş ruhani də bizimlə idi. Adını heç kimə söyləməmiş, tanınmaz halda döyüşçülərə kömək etməyə gəlmişdi.

Biz tuneldə və çay yatağında olanda iraqlılar bizi necə görürmüşlər deyə qaranlıqda qarşıya baxdım. Heç nə görünmürdü. Leytenant Aram saatına, sonra tuneldən təkcə başı çıxmış rabitəçiyə baxdı.

Aramın saatını gördüm. Birin yarısına az qalırdı. Artıq martın 22-si idi. Rabitəçi rabitə cihazını tuneldən çıxarıb dedi:

kitaboxu.com

- Ya Zəhra! Əməliyyat parolu... Ya Zəhra... Ya Zəhra... Ya Zəhra...

***

**Düşmən mövqeyi, 22 mart, gecə**

Siperə dırmaşırdıq. Məqsədimiz düşməni qəfil yaxalamaq olduğuna görə imkan daxilində yavaş hərəkət edirdik. Mən ayaqlarımın altındakı torpağın sürüşəcəyindən qorxduğum üçün hər addımda ayağımı siperdən çəkmədən qaldırır, yerini bərkitməyə çalışırdım. Buna görə digərlərindən bir az geri qaldım.

Əvvəldən tapşırılmışdı ki, çavuş Üçtəpənin başçılıq etdiyi taqım sağ tərəfdə olsun, leytenant Təbatəbayinin taqımı onun yanında, leytenant Təfəzzüli ilə çavuş Kakasultanın taqımı da sol tərəfdə.

Leytenant Təbatəbayinin taqımı kanaldan keçəndən sonra tez sağa çəkilib düşmənin yan tərəfi ilə Qəhvəxana üçyoluna gedəcəkdi. Çavuş Üçtəpənin taqımı leytenant Aramla birlikdə düşmənə hücum edəcəkdi. Digər taqım da Kərxə çayının kənarı ilə yandan düşmənin arxa tərəfinə doğru gedəcəkdi.

Üçtəpənin ikinci çıxışdan çıxmış taqımı bizdən öndəydi. Onlarda əl qumbaraları vardı, düşmən səngərlərini "təmizləyəcəkdilər".

Siperin o tayından iraqlıların gülüş səsləri gəlirdi. Kefləri kök idi. Gecənin yarısı istirahət edir, bəlkə də,



kitaboxu.com

fikirləşirdilər ki, iranlıların novruz bayramıdır, hələlik bizimlə işləri olmaz. Təpənin başından o taya əvvəl Üçtəpə endi, sonra da bir neçə nəfər. Birdən partlayış səsi gəldi, sonra bizim qrupumuz sipərdən endi. Gecə səmasını tüstü və toz-duman bürüyürdü.

İraqlıların yalvarışlarını və partlayış səslərini eşidirdim. Uzaqdakı səngərlərdə olub bizim hücumumuzdan xəbər tutan düşmən qüvvələri qışqırır, atəş açırdılar. Üçtəpənin də səsini eşitdim; bir əsgərinə əmr edirdi ki, sol tərəfdəki səngəri yaddan çıxarmasın. Hər bir hərəkət çox sürətli idi, mən bir an da gecikməməli idim.

Komandirimin ardınca enişdən endim. Bir səngərin girişindən bayıra qan sıçradı, sonra isə ucadan "Allahu əkbər" səsi gəldi.

- Əsirləri sıraya düzün!

Partlayış səsi gəlirdi. Hər bir birləşmə nəyin bahasına olursa olsun, öz işini düzgün yerinə yetirməli idi. Hər bir partlayışdan sonra səngərə girib yoxlayırdılar ki, "təmizlənməmiş" səngər qalmasın.

Önündə dayandığım səngərdən inilti və qışqırıq səsi gəlirdi. Qumbara partlayışından salamat qurtulanlar, yəqin ki, parça-parça və yaralı idilər.

Arxamda iki əsgər beş düşmən əsirini aparırdı. Əsirlər yalvararaq: "Mən müsəlmanam" – deyirdilər.

kitaboxu.com

İki əsgərlə birlikdə səngərə girdik. İki iraqlı səngərin ortasına sərilmişdi. İlk düşmən ölüsü mənə Əndimeşkdə aldığım müharibə yarasını xatırlatdı. Cəsədin qarnı yırtılmış, bağırsaqları bayıra tökülmüşdü.

Geridə səngərin küncündə bir cavan oğlan əllərini qaldırıb yalvarırdı. Dayanmadan ərəbcə danışır, mənsə heç nə anlamırdım. J3-ün lüləsi ilə işarə verdim ki, ayağa qalxsın. Qalxanda gördüm ki, sağ dizi aşağıya qədər qan içindədir. Səngərdən çıxandan sonra digər beş əsirin arxasında dayandı. Ayaq üstə durmaq ona çətin idi. Sipərin üstündə onları üzü üstə uzadıb ciblərini yoxladıq, çiyin kəmərlərini açdıq.

Yanımdakı əsgər dedi: "Çəkmələri".

Doğru deyirdi, çəkmələrində bıçaq ola bilərdi. İşarə ilə bildirdim ki, çəkmələrini yoxlasın. Sonra bir daha başdan ayağa yoxladıq. Leytenant Aram əmr etdi ki, əsirləri tunelə aparıb girişdə gözləyən qüvvələrə təhvil verək və tez qayıdaq.

Silahın başı ilə ayaqlarına vurub qışqırdım: "Qalxın!"

Yanımdakı əsgər silahla böyürlərinə vurub sipərin üstünü göstərdi. Dörd nəfərdik, onları əhatəyə almışdıq. Səngərlərin "təmizlənməsi" hələ davam edirdi, partlayış və atəş səsləri gəlirdi. Bəzi səngərlərə bir qumbara kifayət etmirdi. "Təmizləmə" zamanı

kitaboxu.com

səngərə əl qumbarası atır, özləri də tez səngərin üstündən yerə atılıb uzanırdılar ki, qəlpə dəyməsin. Üçtəpə bunu öz qüvvələrinə dəfələrlə məşq etdirmişdi.

İki könüllü döyüşçü də üç iraqlını sipərə qaldırırdı. Əsirlər tunelə çatdıqdan sonra məsuliyyətləri təminatçı uşaqların üzərinə düşürdü və biz əməliyyat yerinə qayıtmalı idik.

- Ən az döyüşlə mövqeyi ələ keçiririk, - zabitlərin biri dedi.

Leytenant Aram demişdi ki, əsas hədəf sipərin arxası deyil, ərazi düşməndən təmizlənəndən sonra Qəhvəxana üçyoluna getməliyik. Üçyolun biri dördüncü və beşinci platformalara və Fəkkəyə gedirdi, biri Dehlorana. Oraya qədər 3 km yolumuz vardı, günəş çıxmazdan qabaq çata bilsəydik, bu, böyük nailiyyət olardı.

Sipərdən enəndən sonra əsirlərimizlə könüllülərin üç əsirini bir sıraya düzüb tunelin girişinə doğru yönləndirdik. Kakasultan iki əsirlə birgə gedirdi. Birdən iraqlılar səs-küy salmağa başladılar. Ərəbcə nəsə deyirdilər, mən başa düşmürdüm. Dezfuldan olan bir könüllü gülməyə başladı. Biz mat-məəttəl ona baxırdıq.

- Qorxurlar, - dedi. – Deyirlər ki, bizi əsir tutun, quyuya atmayın.

Silahla birinin belinə vurub dedim:

kitaboxu.com

- Ya Allah! Tərpən!

Bizə ehtiyac vardı, digər işlər üçün qayıtmalı idik. Bekar deyildik ki, tunelə girmələri üçün onlara yalvaraq. Öndəki iki nəfər yerə oturub yalvarmağa başladı.

- Nə edək?

Könüllü ərəbcə onlara nələrsə dedi, amma qulaq asmaq istəmirdilər. Əllərini uzadıb çəkmələrimizə vururdular. Kakasultan önə keçib birinci girişin yanında dayandı:

- Onlara de ki, əvvəl özü gedəcək, - deyib tunelə endi.

Az sonra birinci iraqlı ayaqları əsə-əsə aşağı endi. Onların ardınca biz də tunelə girdik. Heyrət içində tunelin tavanına, divarlarına və yolu işıqlandırmış lampalara baxıb "Allahu əkbər" dedi və yenə ərəbcə danışmağa davam etdi. Dezfullu könüllü də tunelə girdi, onun sözlərini eşidib dedi:

- Bunu nə vaxt qazdığınızı düşünüb təəccüb edir. Belə qəfil yaxalanacaqlarını gözləmirmişlər.

Sonra digər əsirlər, onlardan sonra əsgər və başqa bir könüllü də tunelə girdi. Əsirləri yeddinci istirahət otağında gözləyən qüvvələrə təhvil verib tuneldən çıxanda başqa bir qrup əsiri də girişə gətirmişdilər.

Səngərlərin yanına qayıdanda bir tankın sipərin yuxarısında sürətlə getdiyini gördüm. Həyəcanla



kitaboxu.com

sipərin üstündə, tankla paralel şəkildə qaçırdıq. Uşaqlar bütün zirehli maşınları ələ keçirmişdilər, bircə bu tank qaçmaq istəyirdi. Qaranlıqda bir kölgənin tankın lüləsindən asıldığını gördüm. O, yan tərəfə yerə atıldı.

- Çavuş Üçtəpə idi, - deyə yanımdakı əsgər qışqırdı.

Tankda nəsə partladı və tank dayandı. Yavaş-yavaş qapı açıldı və iraqlılar yalvara-yalvara təslim oldular.

Yerə endim. Əsir olduqca çox idi. Düşmənin altı tankı və çoxlu hərbi avtomobili bizim əlimizə keçmişdi. Səngərlərdə yaralı və sağlamları yoxlayırdıq. Onları bayıra çıxarıb əsirlərin yanına gətirir və hamısını sıraya düzürdük. Hər komandir öz şəxsi heyətini sayırdı.

Əməliyyatın başlanmasından nə qədər vaxt ötdüyünü bilmirdim. Toz-torpaq, tüstü və ax-uf səsləri altında bir neçə dəfə tunelə gedib-qayıtmışdım. Birdən iki əsgərin sipərin üstündən bir xərəklə endiyini gördüm. O vaxta qədər bizimkilərdən heç kim yaralanmamışdı. Ümumiyyətlə, bizimlə düşmən arasında ciddi bir döyüş baş tutmamışdı. Amma görünür bir nəfərin xərəyə ehtiyacı olmuşdu. Leytenant Aram xərəyi sipərin sol tərəfinə yönləndirdi və özü də arxasınca qaçdı.

Tunelə aparmaq üçün dörd əsiri mənə və digər əsgərə tapşırmışdılar. Biz sipərə qalxanda xərəyi

kitaboxu.com

gördüm. Üçtəpə idi. Dayanıb gözlərimi onun xərəkdən sallanan qoluna dikdim. İnana bilmirdim.

Leytenant Aram tunelin girişinə qədər xərəklə yanaşı getdi. Gözlədilər, biz əsirləri tunelə göndərdik. Mən girişdə dayanmışdım. Xərək də dayananda Üçtəpə dedi:

- Gördün?! Dedim ki, şəhid olacağam!

- Ratsiyadan bildirmişəm, - leytenant Aram dedi, - təcili yardım maşını yoldadır. Sonra da səni helikopterlə geri aparacaqlar. Sən yaşayacaqsan!

Bir addım yaxınlaşdım. Artıq Üçtəpəni ay işığında xərəyin üstündə görə bilirdim. Bir ayağı yox idi, bədəni qana bələşmişdi.

Bədənim buz kimi soyudu. Oradaca yerə oturdum.

- Tunelə aparın, - leytenant Aram dedi.

Üçtəpə onun əlini tutub dedi:

- Verdiyin söz yadından çıxmasın.

Aram onun əlini sıxdı və xərək tunelə endi. Leytenant məni görən kimi qışqırdı:

- Əsgər! Öz yerinə! Burada niyə oturmusan?!

Özü cəld sipərə qalxdı.

Zaman niyə bir dəfə də olsun, yerində durmurdu? Dayana, hərəkət etməyəydi və biz Üçtəpəyə yoldaşlıq edəydik, hamımız onun ardınca geri qayıdaydıq. Niyə o vaxt zaman dayanmadı ki, Üçtəpə gedib uşağını görsün?! Zaman niyə bu qədər amansızdı?! Ayağa

kitaboxu.com

qalxa bilmirdim. Nə sipərə tərəf gedə bilirdim, nə də tunelə. Hər iki tərəfdə qan vardı və mən hələ də qandan qaçan qorxaq İlyas idim.

Lakin ayaqlarım... Mən dayanmışdım, amma özüm bilmədən sipərə qalxırdım. Yarımçıq bir iş qalmışdı. Üçtəpə o işə görə qanına qəltan olmuşdu.

***

Qəhvəxana üçyolu, 22 mart, sübh tezdən

Leytenantın taqəti çəkildi və o, torpaq üstə oturdu. Hacı yanına getdi və bir qədər danışdılar. Xəbər gəlmişdi, pis bir xəbər. Hacı əlini üzünə çəkdi. Ağlayırdı. Sipərin yanından Qəhvəxana üçyoluna gələndə hacı silah götürüb döyüşçülərə qoşulmuşdu. J3 silahı ilə işləməyi məndən yaxşı bacarırdı.

Pis xəbərin nə olduğunu bilirdim. Əmin idim ki, bilirəm, amma öz-özümə təkrarlamaq istəmirdim. O olmamalıdır; pis xəbər mənim əmin olduğum hadisə olmamalıdır.

Hacı leytenant Aramdan aralananda ona yaxınlaşdım. Məni görən kimi dedi:

- Üçtəpə tuneldə şəhid oldu!

Üçtəpə və tunel... Tunel çoxlarına təhlükəsiz yer idi, Üçtəpə üçün isə artıq həmişəlik təhlükəsiz olmuşdu. Hamımızın arasında pıçapıç başladı. Sübh azanının vaxtı idi. Azan səsi gəlmədən namaza başladıq.

kitaboxu.com

Üçtəpəni tanıyan hər kəs namazda onu da özünə yoldaş etdi.

Bir qədər irəliləyəndən sonra üçyol göründü. Leytenant Aram birdən dayandı. Ratsiyadan verilən xəbər üçyola çatmağın şirinliyini zəhər etdi. İrəliləyib leytenant Aramı dövrəyə alanların arasına girdim.

Leytenant ratsiyadakı adamla danışırdı:

- Əminəm. Təmizləmə əməliyyatı bitdi. Bütün maşınları da yoxladıq. Beş yüzə yaxın əsir göndərdik geriyə. Heç bir iraqlı qalmadı.

- Heç kim mövqedən uzaqlaşmasın, - deyə ratsiyadan səs gəldi. – Kim irəliləyirsə, vururlar. Belə çıxır ki, siz düşmənlərin arxa tərəfində qalmısınız.

Aram onu əmin etdi ki, problemi özü həll edəcək. Tez Kakasultana xəbər verdi. Mən, hacı və başqa bir neçə nəfər leytenantla geri qayıtdıq, digərləri isə üçyolda qaldılar.

Var gücümüzlə qaçırdıq. Sanki gecəni yatmayan və indi acmalı olan biz deyildik. Sipər uzaqdan görünəndə səma işıqlanmışdı. Çökək bir yerdə mövqe seçdik. Necə gəldi getsəydik, digərlərini bu tərəfə buraxmadıqları kimi bizidə parça-parça edərdilər.

Kakasultan leytenantla danışıb sürünə-sürünə bir qədər irəlilədi. Sonra leytenant Aramın özü, ardınca da biz getdik. Atəş səslərindən iraqlıların harada olduqlarını öyrəndik. Səngərə heç bir bənzərliyi

kitaboxu.com

olmayan bir beton otaq vardı. Müharibədən qabaq əkinçilər üçün tikildiyi aydın bilinirdi. Buna görə uşaqların gözündən uzaq qalmışdı.

Kakasultan işarə ilə bildirdi ki, hamı yerində qalsın və özü gedib baxsın. Hamımız sakitcə yerimizdə pusurduq. İyirmi dəqiqədən sonra gəlib dedi:

- Səngərlərinin bir çıxışı var, oradan yaxalaya bilərik.

- Yox, qumbaraatanla vurarıq, - deyə leytenant Aram başını tərpətdi. – Daha kadrlarımızı riskə ata bilmərik.

Qumbaraatan əlverişli mövqe və məsafə seçib səngəri vurdu. Partlayış səsinə görə qulaqlarımı tutmuşdum. Səngər beton təpəsinə döndü və hər yeri toz-duman bürüdü. Dağılmış səngərə sarı bir neçə addım atandan sonra bir neçə iraqlının toz-torpaq altından çıxdıqlarını gördük.

- Bunlar haradaydılar?! – hacı dedi.

Qaçıb onlara yaxınlaşdıq, özlərinə gəlincə silahlarımızı tuşladıq. "Təslim! Təslim!" deyə səsləri ucaldı. Kakasultan qışqırdı:

- Bu qədər adam öldürdünüz, indi təslim olursunuz?! Qoyun vurub öldürüm bunları!

- Vurma, - bir nəfər dilləndi, - nə də olsa, müharibə əsirləridir.

kitaboxu.com

- Ənə şiə[1]... Əli... Əli.. - əsirlərin biri dedi.

- Yalan deyir, artistlik edir, - deyə bir əsgər bildirdi.

Başqa biri dedi:

- Məndə marker var. Paltarlarının arxasına yazım ki, bizdən çoxunu şəhid ediblər. Sonra geri göndərək, orada barələrində qərar verərlər.

İraqlıları bir neçə nəfərlə tunelə göndərdik. Sonra gördük ki, hacı yoxdur. Vurulmuş səngərə baxmağa getmişdi. Onun yanına gedəndə mənə dedi:

- Səngər içində səngər tikibmişlər. Buna görə qumbaraatandan ölməmişdilər.

Hacı məndən ayrılıb leytenant Arama sarı getdi. Mən sipərin üstündə qalmışdım. Artıq digər qüvvələr sipərin bu tayına keçə bilərdilər. "Təmizləmə" bitmişdi. Sipərin üstündən baxıb aşağıda bir cəsəd gördüm. Bizim qüvvələrin formasından geymişdi. Aşağı sürüşüb başının üstünə çatanda tanıdım; axırıncı gecə tanınmaz halda köməyə gəlmiş ruhani seyid idi. Bəlkə, Üçtəpə kimi o da bilirmiş ki, şəhadəti yaxındır.

Bizim qüvvələrimiz tunelin sayəsində ən az itki ilə Qəhvəxana üçyoluna qədər ərazini düşməndən geri aldılar. Bizim qrupun şəhidləri yalnız Üçtəpədən və ruhani seyiddən ibarət oldu.

---

[1] Mən şiəyəm.



kitaboxu.com

# Səkkizinci fəsil

**İngiltərə mətbuatı, 28 mart**

**“Financial Times”**

“Financial Times” qəzeti Səddamın təhqiramiz şəkildə geri çəkilməyə məcbur olduğunu bildirərək İranın qələbələrini tam təsdiqləmişdir. İraq ordusunun rəhbərliyinin, geri çəkildiyini etiraf etdiyi dördüncü korpusun bu hücumda ən çox itki verən birləşmə olduğu qeyd olunur.

kitaboxu.com

**“Daily Telegraph”**

Bu qəzet Bağdaddakı müxbirinin adından bildirir ki, Səddam tərəfindən geri çəkilmə əmrinin verilməsi Bağdaddakı xarici diplomatları təəccübləndirmişdir. Çünki indiyə qədər İraq rejiminin bütün bəyanatları Səddamın ardıcıl qələbələrindən söz açırdı. ABŞ kəşfiyyatı və rəsmi şəxsləri İranın hücumlarında azı iyirmi min İraq əsgərinin öldüyünü təsdiqləmişlər.

"Amerika" radiosu, 31 mart

"Vaşinqton Post" qəzetinin məlumatına əsasən, Səddam Hüseyn İraq ordusunun bir ildən artıqdır ələ keçirdiyi İran torpaqlarını tərk etdiyini bildirmişdir.

**"London" radiosu, 1 aprel**

Prezident Səddam Hüseyn bir Fransa qəzetinə müsahibəsində İranın qələbə çalaraq iraqlıları geri çəkilməyə vadar etdiyini yalanlamışdır. Lakin bu günlərdə cəbhələrə baxış keçirmiş şəxslərin verdiyi məlumata görə, İran qüvvələri son hücumlarını Xuzistan vilayətinin Şuş bölgəsində həyata keçirmiş və İraq ordusunun dördüncü korpusunu darmadağın etmişlər.

***

**Qum, illər sonra, günbatan çağı**

- Hacı, sənin üçün darıxmışam, - deyə yerə oturub gözlərimi hacının gözlərinə dikdim. – Hacı, səndən çox şey öyrənmək istəyirdim... çox şey. İstəyirdim ki, toyumda iştirak edəsən. Sənsiz xoşbəxt olduğumu düşünmək istəmirdim. Hacı, nəyim varsa, sənə görədir. Sən öyrətdin ki, istəyim; sən öyrətdin ki, ona görə vuruşum; sən öyrətdin ki, bu torpağı sevim...

kitaboxu.com

Əlimin içi ilə toxunduğum sərin daşın üzərinə belə yazılmışdı:

"Könüllü döyüşçü Şəhid Qulamhüseyn Əli oğlu Rəiyyət Rüknabadi, 35 yaşında, 15 may 1983-cü ildə cənub cəbhəsində şəhidlik məqamına ucalmışdır".

Bu dəfə də Qumda azsam, məni tapacaq kimsəm yoxdur, hacı. Amma sən mənə öyrətdin... azmamağı öyrətdin. Həmişə sənə borcluyam, hacı.

kitaboxu.com

General-mayor Əhməd Aramın bildirdiyinə əsasən, tunelin qazılmasında iştirak edənlər aşağıdakılardır:

1. 21 Saylı diviziyanın və Nəsr qərargahının komandiri polkovnik Hüseyn Həsəni Sədi

2. 21 Saylı diviziya komandirinin birinci müavini və briqada komandiri polkovnik Bəhruz Süleymancah

3. Diviziyanın İdeoloji-siyasi işlər rəisi Hacı ağa Vəfa

4. Diviziyanın İdeoloji-siyasi işlər rəisinin müavini kapitan Seyid Kazim Mirhüseyni

5. Baş kankan və tunelin qazıntısına məsul şəxs Hacı Qulamhüseyn Rəiyyət Rüknabadi

Onun rəhbərliyi altında qazıntı aparan kankanlar: Şəhid Cəfər Rəiyyət, Həsən Rəiyyət, Əkbər Xorsəndi, Səməd Tağızadə, Əhməd Əbdi, Əli Şirmərdi, Həsənşah Rəiyyət, Hüseyn Molla-Sadiqi, Yadullah Molla-Sadiqi, Əsğər Şirmərdi, Abbas Əli-imami, Seyid Məhəmmədəli Miri.

6. 21 Saylı diviziyanın birinci briqadasının üçüncü şöbəsinin rəisi polkovnik Əli Nikfərd

7. 21 Saylı diviziyanın birinci briqadasının ikinci şöbəsinin rəisi polkovnik Sabirpur

8. 131-ci taborun komandiri polkovnik Cəfər Xoşdil

9. Tunel qazıntısının və tuneldən başlayan əməliyyatın icraçısı leytenant Əhməd Aram

kitaboxu.com

10. Birinci briqadanın Mühəndis-istehkam rəisi baş leytenant Hadi Nəsiri

11. Tunel çöküntülərinin təmirçisi baş çavuş Şəhid Üçtəpə

Sonuncu fəsildə xəbərlərin mənbəyi: Səmii Ə. Səkkizillik müqəddəs müdafiə əməliyyatları. "Nəsli-Kövsər" nəşriyyatı.

kitaboxu.com

# Mündəricat


Birinci fəsil ........................................................................3
İkinci fəsil ........................................................................30
Üçüncü fəsil ........................................................................43
Dördüncü fəsil ........................................................................80
Beşinci fəsil ........................................................................136
Altıncı fəsil ........................................................................142
Yeddinci fəsil ........................................................................161
Səkkizinci fəsil ........................................................................178


kitaboxu.com